Xalqın qəzeti!

# Xalq qəzeti

№ 51 (31020) 19 mart 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Prezident İlham Əliyev: Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm

## *Prezident İlham Əliyevin Xocavəndin Xanoba kəndində bərpa-quruculuq işləri ilə tanışlığı*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş və nəzərdə tutulan işlər barədə məlumat verdi.

Xanoba kəndi Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə yerləşir. Bura Qarabağ xanlarına məxsus olmuş yaşayış məntəqəsidir. İşğaldan əvvəl kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərib. Kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Kənddə mövcud fərdi evlərin sayı 153-dür. Onlardan da 21-i yararsız, 132-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 26-sı artıq istismara hazırdır. Bu ilin sonunadək daha 106 ev hazır olacaq.

Bir neçə gün əvvəl ilkin mərhələdə kəndə 25 ailə - 114 nəfər qayıdıb. Oktyabradək daha 107 ailənin köçürülməsi planlaşdırılır. Ümumilikdə ötən ilin oktyabrından Xocavənd rayonunun 6 yaşayış məntəqəsinə 1818 nəfər - 441 ailə qayıdıb.

Xanoba kəndində sosial məsələlərin həlli istiqamətində bir sıra işlər görülüb. Kənddəki mövcud 2 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa olunub, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyusunda və nasos stansiyasında təmir işləri aparılıb.

*(ardı 2-ci səhifədə)*

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2026-cı il**

## Prezident İlham Əliyevin sosial media hesablarında Novruz bayramı ilə bağlı paylaşım edilib

**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Novruz bayramı ilə bağlı video paylaşılıb.**

**Paylaşımda deyilir:** *"Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir".*

## Bakının siyasi ucalığı və mənəvi alicənablığı



Səhifə ⇨ 7

## Azərbaycanın səmada liderliyi




Səhifə ⇨ 9

## İşıqlar sönür, mənzillər alova bürünür...



Səhifə ⇨ 10

## Beynəlxalq gərginlik və Cənubi Qafqazda sabitlik



Səhifə ⇨ 5

## Seulun regional maraqları Bakının mövqeyi ilə ortaqlaşır



Səhifə ⇨ 5

## Melanşon yenidən siyasi səhnədə

### *Parisdə ideoloji qarşıdurma daha da dərinləşir*



**Fransada keçirilən son bələdiyyə seçkiləri ölkənin siyasi mənzərəsində uzun müddətdir yığılıb qalan ziddiyyətlərin daha açıq şəkildə üzə çıxmasına səbəb oldu. Seçkilərin nəticələri göstərdi ki, Fransa cəmiyyətində ideoloji qütbləşmə dərinləşməkdə davam edir və ənənəvi siyasi mərkəz getdikcə zəifləyir. Sözügedən prosesin fonunda "Əyilməz Fransa" partiyasının lideri Jan-Lük Melanşon yenidən siyasi gündəmin mərkəzinə çevrilib və onun əldə etdiyi nəticələr qarşıdan gələn prezident seçkiləri baxımından ciddi əhəmiyyət kəsb edir.**

*(ardı 6-cı səhifədə)*

## Ermənistanın taleyi tərəziyə qoyulub

### *Onu tarazlamaq üçün konstitusiyadan Azərbaycana ərazi iddiası çıxarılmalıdır*

**Əgər bu versiyanı qəbul etsək ki, Paşinyan sülh planı üzrə "ev tapşırıqlarından" ən çətinini axıra saxlayıb. Artıq "olum, ya qalım" sınağına çevriləcək parlament seçkiləri ərəfəsində bu məsələdən danışmağın onun üçün nə qədər çətin olduğunu nəzərə almalıyıq. Ölkənin ədliyyə nazirinin Azərbaycanın əsas şərti sayılan bu məsələ barədə mart ayında ikinci dəfə açıqlama verməsi də vəziyyətin Paşinyan komandası üçün heç də ürəkaçan olmadığına dəlalət edir. Ermənistanın yeni konstitusiya layihəsi mətninin mart ayı ərzində dərc olunacağı bildirilsə də, bu, indiyədək baş verməyib.**



*(ardı 6-cı səhifədə)*

# Prezident İlham Əliyevin Xocavəndin Xanoba kəndində bərpa-quruculuq işləri ilə tanışlığı





(əvvəli 1-ci səhifədə)

Sonra dövlətimizin başçısı və birinci xanım kəndə köçmüş Bəybala Qasımovun evində olublar.

**Sakin:** Xoş gəlmisiniz, cənab Ali Baş Komandan.

**Prezident İlham Əliyev:** Salam. Necəsən? Maşallah.

**Birinci xanım Mehriban Əliyeva:** Təbrik edirəm bayramınızı.

**Qadın sakin:** Çox sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Təbrik edirəm.

**Qadın sakin:** Çox sağ olun, var olun.

**Birinci xanım Mehriban Əliyeva:** Balaca gözdən sizə oxşayır. Neçə yaşın var, Ayaz? Ayazın neçə yaşı var?

**Qadın sakin:** Üç.

**Birinci xanım Mehriban Əliyeva:** Üç? Sən nə yaxşı hündürboy oğlansan? Mən elə bildim 5 yaşın var sənin. Maşallah. Gedək.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Şəraitiniz necədir?

**Sakin:** Şükür, hər şey yaxşıdır. Allah Sizdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Amin.

**Sakin:** Allah Sizi başımızın üstündən əskik eləməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bayram ərəfəsində burada, Qarabağda olmaq çox xoşdur, təbrik edirəm.

**Sakin:** Allah köməyiniz olsun, çox sağ olun.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Sakin:** Ağcabədidə.

**Prezident İlham Əliyev:** Neçə gündür gəlmisiniz?

**Sakinlər:** 3-4 gündür.

**Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov:** Bir neçə ailədir. Valideynləri də köçüblər, qonşudurlar.

**Birinci xanım Mehriban Əliyeva:** Qırmızı "KamAZ" olacaq.

**Sakin:** Allah Sizdən razı olsun, Allah Sizə kömək olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Gedək göstərək bizim maşını.

**Birinci xanım Mehriban Əliyeva:** İstəyirsən maşına minmək?

**Qadın sakin:** Maşına baxırsan?

**Birinci xanım Mehriban Əliyeva:** İstəyirsən?

**Uşaq:** Hə.

**Birinci xanım Mehriban Əliyeva:** Gedək. Gəl, otur görək.

**Prezident İlham Əliyev:** Xoşuna gəlir bu maşın?

**Birinci xanım Mehriban Əliyeva:** Yaxşı maşındır? Bu yaxşıdır, yoxsa "KamAZ" yaxşıdır?

**Uşaq:** Hə.

**Birinci xanım Mehriban Əliyeva:** "KamAZ". Gəl öpüm səni. Babanı da öpürsən?

**Sakin:** De, sağ ol baba.

**Uşaq:** Mən sənin maşınını istəyirəm.

**Birinci xanım Mehriban Əliyeva:** İstəyirsən, yaxşı. Sağ olun, təbrik edirəm.

**Sakinlər:** Sağ olun, Allah köməyiniz olsun.

*

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb.





Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət ediblər.

**Prezident İlham Əliyev:** Salamaleyküm, bayramınız mübarək, təbrik edirəm.

**Sakin:** Salam, sağ olun, Sizinlə bahəm. Sizi də təbrik edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, xoş gəlmisiniz, bayramınız mübarək olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, Allah Sizə dəyməsin. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə də cansağlığı arzulayıram. İşlər necə gedir?

**Sakinlər:** Əla, çox gözəl.

**Prezident İlham Əliyev:** Neçə gündür buradasınız, üç-dörd gündür buradasınız?

**Sakinlər:** Bəli.

**Prezident İlham Əliyev:** Ev şəraiti necədir?

**Sakin:** Əladır, çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu kənddə bütün şərait var, yaşamaq, işləmək üçün.

**Sakin:** Var, şükür Allaha.

**Prezident İlham Əliyev:** Əsas odur ki, doğma Qarabağ torpağına qayıtmısınız. Qarşıdan gələn bayramlar münasibətilə təbrik edirəm. Həm Ramazan, həm Novruz bayramlarını burada - doğma Qarabağ diyarında qeyd edəcəksiniz. Bu, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra artıq bu bayramları doğma vətəndə qeyd edəcəksiniz.

**Sakinlər:** Çox sağ olun, Sizin sayənizdə, Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yerləşmişdiniz?

**Sakin:** Xocavənd qəsəbəsində.

**Prezident İlham Əliyev:** Dövlət tərəfindən tikilən qəsəbədə?

**Sakinlər:** Bəli, Sizin sayənizdə tikilmiş binalarda yerləşmişdik.

**Prezident İlham Əliyev:** Novruz tonqalı da buradadır, gedək birlikdə onu alovlandıraq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə birlikdə Novruz tonqalını alovlandırdılar.

**Prezident İlham Əliyev:** Gəlin, birlikdə şəkil çəkdirək.

Şəkil çəkdirilir.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun, bir daha təbrik edirəm, uğurlu olsun.

**Sakin:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Doğma vətəndə.

**Sakin:** Sizin sayənizdə, Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Şəhidlərimizin, qazilərimizin sayəsində.

**Prezident İlham Əliyev:** Bəli, Allah rəhmət eləsin.

**Sakin:** Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı, Sizə də uzun ömür arzulayırıq. Hər zaman xalqımızın başının üstündə olasınız.

**Sakinlər:** Amin, inşallah. Allah ölkəmizi, xalqımızı, hər bir valideyni, hər bir uşağı qorusun, amin.

**Sakin:** Cənab Prezident, 1992-1993-cü illərdə biz buradan ağlayaraq, sürünərək getmişik. İndi buraya sevinc hissi ilə qayıtmışıq, Sizin sayənizdə qayıtdıq, Sizin rəhbərliyinizlə, Sizin "dəmir yumruğ"unuz sayəsində, Ordumuzun gücü ilə. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Amin.

**Sakin:** Sizə çox təşəkkür edirik. O vaxt mən buradan tək çıxmışdım, bu gün isə bura 6 uşağımla gəlmişəm.

**Prezident İlham Əliyev:** Allah saxlasın.

**Sakin:** Allah Sizə cansağlığı, uzun ömür versin, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun, doğrudan da böyük xoşbəxtlikdir. Artıq iki ildir ki, bu diyar işğalçılardan azad olunub, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilmişdir və bundan sonra artıq bərpa işləri başlanmışdır, evlər yenidən tikildi-quruldu, bütün şərait yaradıldı. Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir.

**Sakin:** Bəli, Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Biz öz milli qürurumuzu bərpa etdik, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Bunun nəticəsində biz bu gün bu torpaqlardayıq və biz bu torpaqların əsl sahibləriyik. Çünki Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə-yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar. Siz də artıq üç-dörd gündür ki, buradasınız. Yerləşmisiniz, hər şey yaxşıdır?



**Sakin:** Sağ olun, uşaqları da götürüb gəlmişik.

**Prezident İlham Əliyev:** Neçə uşaqdır?

(ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyevin Xocavəndin Xanoba kəndində bərpa-quruculuq işləri ilə tanışlığı











(əvvəli 2-ci səhifədə)

**Sakin:** Altı uşaqdır, üzr istəyirəm, yoldaşım qəhrəman anadır.

**Prezident İlham Əliyev:** Allah saxlasın. Çox yaxşı. Allah köməyiniz olsun. Yaxşı nümunə göstərirsiniz. Gərək əhali artsın, mütləq.

**Sakin:** Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Düzdür, bu gün də artır, amma daha da sürətlə arta bilər.

**Sakin:** Biz Sizinlə fəxr edirik, dövlətimizlə fəxr edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Allah köməyiniz olsun, Allah Sizi var eləsin, dövlətimizi var eləsin.

**Prezident İlham Əliyev:** Sizi bir daha təbrik edirəm. Artıq sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində xoşbəxt yaşayın. İndi qurub-yaratmaq dövrüdür. Ona görə kənddə də bütün şərait var, məşğulluqla bağlı da imkanlar var. Həm dövlət, həm də ki, özəl sahədə. Özəl əkin sahələri var, örüş sahələri, su var. Yəni işıq, qaz.

**Sakin:** Gözəl havası var.

**Prezident İlham Əliyev:** Kurort havası var, kurortda yaşayırsınız. Layiqsiniz. İndi havanın fərqini görürsünüz.

**Qadın sakin:** Havası çox gözəldir, tərtəmiz havası var.

**Prezident İlham Əliyev:** Hava, su insanın sağlamlığı üçün əsas şərtlərdən biridir. Siz işğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Xocavənd rayonunun qəsəbəsində.

**Prezident İlham Əliyev:** İndi biz bu doğma Qarabağ torpağında əbədi yaşayacağıq.

**Sakin:** Azərbaycanın hər tərəfi bizim torpağımızdır, amma buralar bizim dədə-baba yurdumuzdur. Ona görə də biz buralara gəlməli idik.

**Prezident İlham Əliyev:** Düzdür, gəlməli idik və gəldik, qalib xalq kimi qayıtdıq. Sizi bir daha təbrik edirəm.

**Sakinlər:** Sağ olun, var olun.

**Sakin:** Cənab Prezident, Sizinlə şəkil çəkdirmək olar?

**Prezident İlham Əliyev:** Əlbəttə olar, çəkdirək.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz harada yaşamısınız?

**Sakin:** Biz Füzuli rayonunun Yuxarı Veysəlli kəndində.

**Prezident İlham Əliyev:** Yuxarı Veysəlli?

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Hə, təmas xəttinə yaxın.

**Sakin:** Cənab Prezident, yalın o biri üzündədir.

**Prezident İlham Əliyev:** Aşağı Veysəlli o, anklav idi.

**Sakin:** Bəli, neytral zona idi. Biz Aşağı Veysəllidən gəlib baxırdıq buralara, həsrətlə baxırdıq. Mənim buradan çıxanda yeddi yaşım var idi. Deyirdim ki, görəsən, biz bu dağlara qayıda biləcəyik? Sizin sayənizdə, şəhidlərimizin sayəsində gəldik, bu gün buradayıq.

Şəkil çəkdirilir.

**Prezident İlham Əliyev:** Mehriban, sən də gəl, bizimlə şəkil çəkdir. Gəlin, gəlin.

**Sakinlər:** Sağ olun, çox sağ olun, Allah köməyiniz olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Qəhrəman ana ilə mən də çəkdirim.

**Prezident İlham Əliyev:** Bəli, gəl. Nümunə olmalısınız.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah, Allah saxlasın.

**Sakinlər:** Çox sağ olun, var olasınız.

**Birinci xanım Mehriban Əliyeva:** Neçə yaşı var ən böyüyünün?

**Qadın sakin:** 18. Universitetə hazırlaşır. 11-ci sinifdədir hələ.

**Birinci xanım Mehriban Əliyeva:** Ən böyüyü, ən balacası?

**Qadın sakin:** Balacası, 4 yaşındadır.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah.

**Sakin:** Maşallah gününüz olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Neçəsi qız, neçəsi oğlandır?

**Sakin:** 4-ü qızdır, 2-si oğlan.

**Birinci xanım Mehriban Əliyeva:** Allah saxlasın.

**Kişi sakin:** Çox sağ olun, Allah sizinkilərə dəyməsin, cansağlığı versin.

**Sakin:** Cənab Prezident, icazə olar şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Bəli, gəlin.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Neçə medalın var?

**Sakin:** Beş.

**Prezident İlham Əliyev:** Beş?

**Sakin:** Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha bayramınız mübarək.

***AZƏRTAC***





# M.Y.Zabelinin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Mixail Yuryeviç Zabelin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2026-cı il**

# Azərbaycan və Almaniya liderlərinin telefon danışığı

**Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts arasında telefon danışığı olub.**

Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Fridrix Merts Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayıb, bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib.

Azərbaycan Prezidenti və Almaniya Kansleri ikitərəfli münasibətlərin perspektivlərini, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Kobaxidzeyə

**Hörmətli cənab Baş nazir!**

Bütün Gürcüstanın Katalikos-Patriarxı, zəmanəmizin görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

II İlya həzrətləri bütün həyat və fəaliyyətini xalqına və bəşəriyyət naminə nəcib amallara həsr etmişdir. Qafqazda sülhün, əmin-amanlığın, insanlar arasında həmrəyliyin, dinlərarası anlaşma və dialoqun bərqərar olması yolunda fəaliyyəti ilə II İlya həzrətləri milli və dini mənsubiyyətindən asılı olmayaraq milyonlarla insanın qəlbində yer tapmış, dərin ehtiram və rəğbət qazanmışdır.

Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində II İlya həzrətlərinin böyük xidmətləri olmuşdur.

Bu ağır itkinin kədərini bölüşür, Sizə, bütün Gürcüstan xalqına, Gürcüstan Pravoslav Kilsəsinə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2026-cı il**

# Hikmət Hacıyev Parisdə Makronun diplomatik müşaviri ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransa Prezidenti Emmanuel Makronun diplomatik müşaviri Emmanuel Bonne və digər fransalı həmkarlarla ikitərəfli münasibətləri müzakirə edib. Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.**

PA rəsmisi qeyd edib ki, Prezident İlham Əliyev və Prezident Emmanuel Makron arasında telefon danışığından sonra Parisdə Prezidentin diplomatik müşaviri Emmanuel Bonne və digər fransalı həmkarlarla məhsuldar görüş keçirib: "Biz ikitərəfli münasibətlər, eləcə də qarşılıqlı maraq doğuran regional və qlobal məsələlər barədə fikir mübadiləsi apardıq".

*XQ*

# Sahibə Qafarova Gürcüstan parlamentinin sədrinə başsağlığı verib

**Martın 18-də Milli Məclisin sədri Sahibə Qafarova Bütün Gürcüstanın Katalikos-Patriarxı, görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı ilə əlaqədar Gürcüstan parlamentinin sədri Şalva Papuaşviliyə başsağlığı məktubu göndərib.**

Məktubda deyilir ki, II İlya həzrətlərinin bəşəriyyət naminə fəaliyyəti, Qafqazda sülhün, həmrəyliyin və dinlərarası dialoqun təşviqinə verdiyi töhfələr, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsində göstərdiyi böyük xidmətlər hər zaman ehtiramla xatırlanacaq.

Milli Məclisin sədri məktubda gürcüstanlı həmkarına, parlamentin üzvlərinə, dost Gürcüstan xalqına öz adından və Milli Məclisin üzvləri adından dərin hüznlə başsağlığı verib.

*XQ*

# Alena Əliyeva Novruz yarmarkasını ziyarət edib





**Martın 18-də Alena Əliyeva və Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Dənizkənarı Milli Park ərazisində təşkil olunmuş Novruz yarmarkasını ziyarət ediblər.**



Qonaqlar yarmarkada təşkil olunmuş köşklərə baş çəkib, təamların dadına baxıblar.

Azərbaycanda ilk inklüziv kafe olan "Kaşalata"nın köşkünün fəaliyyəti də diqqətdə saxlanılıb, kafenin əməkdaşlarına təbriklər ünvanlanıb, fəaliyyətlərində uğurlar arzulanıb.

Qonaqlar yarmarka ərazisində təşkil olunan əyləncə məkanına da baş çəkib, hədiyyəli yarışda özlərini sınayıblar.

Alena Əliyeva ziyarətçilər və iştirakçılarla şəkillər çəkdirib, ona hədiyyələr təqdim olunub.

# Daş Salnamə Muzeyində inklüziv incəsənət sərgisi





**Dünya Daun Sindromu Günü ərəfəsində Daş Salnamə Muzeyində "Çərçivədən kənar" adlı inklüziv incəsənət sərgisi açılıb.**




Tədbirdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Alena Əliyeva, Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin deputatları, mədəniyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Tədbir "SOCAR Midstream Gas Operations" şirkətinin təşəbbüsü və dəstəyi, "DADDI" sosial sahibkarlıq müəssisəsinin təşkilatçılığı, bp, "PAŞA Holdinq", Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, YARAT Müasir İncəsənət Mərkəzi və Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin tərəfdaşlığı ilə baş tutub.

Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi Şamil Əzizov, SOCAR MGO-nun icraçı direktoru Polad Rüstəmov, "PAŞA Holdinq"in baş icraçı direktorunun müavini Səidə Baxşıyeva, bp AGT-nin xarici əlaqələr şöbəsinin rəhbəri Günəş Əliyeva, "DADDI" sosial sahibkarlıq müəssisəsinin təsisçisi Məhbubə Əliyeva çıxış ediblər. Çıxışlar zamanı Daun sindromlu şəxslərin cəmiyyətə inteqrasiyasının əhəmiyyəti, onların yaradıcılıq potensialının dəstəklənməsinin vacibliyi və bu istiqamətdə müxtəlif qurumlar arasında əməkdaşlığın rolu vurğulanıb.

Tədbir çərçivəsində Daun sindromlu müəlliflərin rəsm əsərlərindən ibarət satış-sərgi təşkil olunub. Satış-sərgidən əldə olunan vəsait tam şəkildə müəlliflərə təqdim edilib. Tədbirin bədii hissəsində inklüzivlik mövzusunda məhz bu tədbir üçün bəstələnmiş mahnı gənc ifaçı Əmrah Musayev və Daun sindromlu şəxslərin birgə ifasında təqdim olunub. Bundan başqa, Daun sindromlu iştirakçıların təqdimatında rəqs və musiqi nömrələri nümayiş etdirilib.

Sərgidə təqdim olunan əsərlər tədbir ərəfəsində YARAT Müasir İncəsənət Mərkəzində keçirilən ikigünlük yaradıcılıq master-klasları çərçivəsində hazırlanıb.

# Baş prokuror yanında şuranın iclası




**Martın 17-də Azərbaycan Respublikasının Baş prokuroru yanında fəaliyyət göstərən Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.**

İclası Azərbaycan Respublikasının Baş prokuroru, Elmi-Məsləhət Şurasının sədri Kamran Əliyev açaraq ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi, eləcə də qanunvericiliyin təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq hüquq tətbiqi təcrübəsində aktual olan bir sıra məsələlər müzakirə edilib. Müzakirələr zamanı cinayət və inzibati qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlər, istintaq hərəkətlərinin həyata keçirilməsi zamanı qarşıya çıxan çətinliklər, eləcə də məhkəmə nəzarətinin həyata keçirilməsi prosesində yaranan problemlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Belə ki, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsi ilə müəyyən edilən və yol-nəqliyyat hadisəsi yerindən qaçmadan bəhs edən norma, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev ifadənin yerində yoxlanılması istintaq hərəkətinin sübutetmə prosesində əhəmiyyəti və bu istintaq hərəkətinin yerinə yetirilməsi zamanı qarşıya çıxan çətinliklər, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində korrupsiya xarakterli, lakin cinayət tərkibi yaratmayan əməllər üçün dəqiq normalar və sanksiyaların təsbit edilməsinə dair məsələlər, Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Mahir Abbasov məhkəmə nəzarətinin həyata keçirilməsi prosesində ortaya çıxan problemlər barədə çıxış edib.

İclas çərçivəsində gündəlikdə duran digər aktual məsələlər üzrə də fikir mübadiləsi aparılıb, Şura üzvləri tərəfindən bir sıra təkliflər irəli sürülüb.

*XQ*

# Ceyhun Bayramov Səudiyyə Ərəbistanına yola düşüb

**Xarici işlər naziri Ceyhun Bayramov martın 18-də Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərinə işgüzar səfərə yola düşüb.**




Səfər çərçivəsində Ceyhun Bayramovun bir sıra ölkələrin xarici işlər nazirlərinin regional təhlükəsizlik və sabitlik üzrə məşvərətçi iclasında iştirakı, habelə bəzi ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

*XQ*

# Zaur Mikayılov vətəndaşların müraciətlərini dinləyib



**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov martın 18-də Abşeron Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin inzibati binasında Abşeron, Zəngilan və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.**

Zaur Mikayılov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Müraciətlər əsasən içməli su təchizatı, kanalizasiya sistemlərinin yenidən qurulması, suvarma suyuna olan tələbatın ödənilməsi, işə qəbul və digər məsələlərlə bağlı olub.

# WUF13 Kiyevdə təqdim olunub



**Kiyevdə Bakı şəhərində təşkil olunacaq 13-cü Ümumdünya Şəhər Forumu (WUF13) ilə bağlı xüsusi təqdimat keçirilib.**

Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və BMT-Habitat Ofisinin dəstəyi ilə Ukrayna Diplomatik Akademiyasında keçirilən tədbirdə çıxış edən səfir Seymur Mərdəliyev bildirib ki, tədbirin əhəmiyyətindən danışıb. O bildirib ki, Azərbaycan gələcək nəsillərin ehtiyaclarını ödəyən şəhərlər formalaşdırmağa çalışır. Xüsusilə, Azərbaycanın azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində "ağıllı şəhərlər" və "ağıllı kəndlər"in inkişafı kimi iddialı təşəbbüslər təşviq edilir.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparatı rəhbərinin və Ümumdünya Şəhər Forumunun (WUF13) Milli Koordinatorunun müavini Gülşən Rzayeva onlayn təqdimatla çıxış edib.

Ukraynalı deputatlar Volodimir Kreydenko və Yelena Şulyak WUF13 tədbirinin dünya şəhərsalma probleminin həllinə verəcəyi töhfədən danışıblar.

Tədbir panel iclasla davam edib.

*XQ*

# Azərbaycan XXXIII Minsk Beynəlxalq Kitab Sərgisində təmsil olunur

**XXXIII Minsk Beynəlxalq Kitab Sərgisində Azərbaycan öz milli kitab stendi ilə iştirak edir. Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, sərgi çərçivəsində təşkil olunan təqdimat tədbirində M.Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan dili və Mədəniyyəti Mərkəzinin direktoru Fuad İbrahimov çıxış edərək ölkəmizin zəngin ədəbi irsi, mədəniyyəti və kitab sənayesinin inkişafı barədə məlumat verib.

Təqdimat zamanı Azərbaycan haqqında ətraflı videoçarx nümayiş olunub, həmçinin milli mədəniyyətimizi əks etdirən bir neçə rəqs nümunəsi təqdim edilib.

Sərgi martın 22-dək davam edəcək.

Qeyd edək ki, beynəlxalq sərgi müxtəlif ölkələrin nəşriyyatlarını, müəlliflərini və oxucularını bir araya gətirərək mədəni mübadiləyə və ədəbiyyatın təşviqinə mühüm töhfə verir.

# Beynəlxalq gərginlik və Cənubi Qafqazda sabitlik



**Azərbaycan Prezidenti İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında baş tutan telefon danışığı dəyişən beynəlxalq nizamın fonunda Cənubi Qafqazın yeni geosiyasi çəkisini və Azərbaycanın bu məkanda oynadığı rolu bir daha üzə çıxarır. Danışığın mərkəzində dayanan mövzular: Yaxın Şərqdə artan gərginlik, Azərbaycan–Ermənistan sülh prosesi, Almaniya və Avropa İttifaqı ilə münasibətlərin perspektivləri, əslində, eyni strateji xəttin müxtəlif təzahürləridir. Qlobal böhranların dərinləşdiyi bir dövrdə sabitlik istehsal edən aktorların dəyəri artır və Azərbaycan bu mənada artıq daha geniş geosiyasi kontekstdə etibarlı tərəfdaş kimi nəzərdən keçirilir.**

Tərəflər arasındakı telefon danışığı göstərdi ki, Cənubi Qafqaz bu gün Avrasiya təhlükəsizlik arxitekturasının həssas və strateji hissələrindən biridir. Yaxın Şərqdə, Şərqi Avropada və qlobal enerji bazarlarında baş verən hər bir dəyişiklik bu məkana birbaşa və ya dolayı təsir göstərir. Məhz bu səbəbdən Bakı ilə Berlin arasında aparılan fikir mübadiləsi daha böyük geosiyasi hesablama sisteminin tərkib hissəsi kimi oxunmalıdır.

## Yaxın Şərqdə gərginlik Cənubi Qafqazdan uzaqda deyil

Yaxın Şərqdə davam edən gərginliyin Cənubi Qafqaza mümkün təsirinin telefon danışığında xüsusi vurğulanması tamamilə məntiqlidir. Çünki müasir beynəlxalq münasibətlər sistemində böhranlar artıq coğrafi sərhədlərlə məhdudlaşmır. Bir regionda silahlı qarşıdurma, enerji marşrutlarına təzyiq, miqrasiya axınının artması, böyük güclərin rəqabətinin sərtləşməsi və təhlükəsizlik prioritetlərinin dəyişməsi başqa regionlarda da zəncirvari təsirlər yaradır. Cənubi Qafqaz məhz belə keçid zonalarından biridir. Cənubi Qafqaz regionunun geosiyasi həssaslığı onun yerləşdiyi məkandan qaynaqlanır. Bölgə Avropa ilə Asiya, Rusiya ilə Yaxın Şərq, Qara dəniz hövzəsi ilə Xəzər arasında strateji qovşaqdır.

Azərbaycan üçün məsələ daha da əhəmiyyətlidir. Çünki Bakı son illər özünü daha geniş regional sabitlik prizmasından təqdim etməyə çalışır. Azərbaycanın enerji ixracatçısı, nəqliyyat qovşağı və siyasi vasitəçilik imkanları olan dövlət kimi rolu bu gün Yaxın Şərqdəki gərginlik fonunda daha çox diqqət çəkir. Çünki qlobal aktorlar böhran vaxtı riskləri azaldan tərəfdaşlar axtarırlar. Burada mühüm məqam ondan ibarətdir ki, Yaxın Şərqdə gərginlik artdıqca, Cənubi Qafqazın sabit qalması Avropa üçün də daha böyük əhəmiyyət kəsb edir. Almaniyanın bu məsələyə həssas yanaşmasına gəldikdə isə, Berlin anlayır ki, Avropanın enerji təhlükəsizliyi, ticarət marşrutlarının şaxələndirilməsi və geosiyasi dayanıqlılığı üçün Cənubi Qafqazda yeni böhran ocağının yaranması arzuolunan deyil. Ona görə də Bakı ilə aparılan dialoq, əslində, regional sabitliyin qorunmasına yönəlmiş daha geniş Avropa maraqlarının ifadəsidir.

## Sülh bölgədə sabitliyin etibarlı qarantıdır

Fridrix Mertsin Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlaması da xüsusi vurğulanmalıdır.  Qeyd etməliyik ki, Cənubi Qafqazda uzunmüddətli sabitliyin yeganə real modeli sülh gündəliyidir. Alternativlər isə ya idarəolunan gərginlik, ya da təkrarlanan qarşıdurma ssenariləridir ki, bu da nə region dövlətlərinin, nə də xarici aktorların maraqlarına cavab verir.

Bugünkü mərhələdə sülh prosesi bütövlükdə regionun strateji gələcəyini müəyyən edir. Əgər sülh gündəliyi irəliləsə, Cənubi Qafqaz iqtisadi inteqrasiya, nəqliyyat əlaqələrinin genişlənməsi və təhlükəsizlik balansının möhkəmlənməsi istiqamətində yeni mərhələyə keçə bilər. Əks halda, region yenidən köhnə geosiyasi rəqabətlərin toqquşma meydanına çevrilər. Azərbaycan son dövrdə sülhü yeni regional nizamın əsası kimi təqdim edir. Rəsmi Bakının bu yanaşmasının arxasında aydın strateji məntiq dayanır: qalıcı sabitlik yalnız qarşılıqlı asılılıq yaradan siyasi və iqtisadi mexanizmlərlə mümkündür. Yəni sülh yeni regional oyunun qaydalarının formalaşdırılmasıdır.

Almaniyanın sülh prosesinə dəstəyi də bu konteksdə anlaşılmalıdır. Berlin üçün Cənubi Qafqazda sabitlik bir neçə səbəbə görə vacibdir: enerji təchizatının etibarlılığı, Orta Dəhlizin perspektivləri, Avropanın qonşuluq siyasətinin effektivliyi və ümumilikdə qitənin cənub-şərq perimetri boyunca risklərin azaldılması. Başqa sözlə, sülh bu regionda strateji zərurətdir.

Ən önəmli məsələ isə budur ki, sülh prosesi irəlilədikcə, Azərbaycanın beynəlxalq çəkisi də artır. Çünki münaqişədən sonrakı mərhələdə hansı dövlət yeni əməkdaşlıq platforması təklif edə bilirsə, o, regional sistemin qurucu aktoruna çevrilir. Bakı hazırda məhz bu mövqeyi möhkəmləndirməyə çalışır. Prezident İlham Əliyevlə Fridrix Merts arasındakı danışıq da göstərir ki, bu xətt artıq Avropanın aparıcı paytaxtlarında diqqətlə izlənilir və dəstəklənir.

## Azərbaycandan Avropaya yeni siyasi pəncərə

Telefon danışığının üçüncü mühüm xətti ikitərəfli münasibətlərin perspektivləri və Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı müzakirələr idi. Əslində, burada məsələ daha böyükdür–Avropanın dəyişən geosiyasi reallıq fonunda Azərbaycanla münasibətlərə yenidən baxması prosesidir.

Son illər Avropa İttifaqı üçün enerji təhlükəsizliyi, təchizat marşrutlarının diversifikasiyası, alternativ tranzit xətlərinin formalaşdırılması və yaxın qonşuluqda sabit tərəfdaşlarla işləmək prioritetə çevrilib. Belə şərtlər daxilində Azərbaycanın əhəmiyyəti obyektiv şəkildə artıb. Azərbaycan Avropa üçün Xəzər hövzəsi, Mərkəzi Asiya və Cənubi Qafqaz arasında əlaqələndirici mərkəzdir. Almaniya kimi Avropanın aparıcı iqtisadi və siyasi gücünün Bakı ilə dialoqa xüsusi önəm verməsi də məhz bu reallığın nəticəsidir. Burada xüsusi olaraq vurğulamaq lazımdır ki, Berlin Avropa İttifaqının siyasi qərarvermə prosesində xüsusi çəkiyə malik aktordur. Deməli, Azərbaycan–Almaniya xəttində dinamikanın artması dolayısı ilə Azərbaycan–Aİ münasibətlərinin də yeni mərhələyə keçməsi üçün əlavə imkanlar yarada bilər. Xüsusən o halda ki, tərəflər münasibətləri nəqliyyat, yaşıl keçid, sənaye əməkdaşlığı, təhlükəsizlik dialoqu və regional sabitlik məsələləri ilə zənginləşdirsinlər.

Bu kontekstdə Bakı üçün əsas üstünlük onun praqmatik və çoxvektorlu siyasətindədir. Azərbaycan müxtəlif güc mərkəzləri ilə münasibətləri balans və qarşılıqlı fayda üzərində qurmağa çalışır. Məhz bu xüsusiyyət onu Avropa üçün proqnozlaşdırılan tərəfdaşa çevirir. Almaniya da daxil olmaqla Aİ ölkələri üçün vacib olan məhz budur: qlobal qeyri-müəyyənlik dövründə siyasi iradəsi aydın, regional rolu konkret və əməkdaşlıq potensialı yüksək olan tərəfdaşlarla işləmək.

Bütün bunlar onu göstərir ki, Azərbaycan–Almaniya və Azərbaycan–Aİ münasibətləri qarşıdakı dövrdə daha geniş siyasi məzmun qazana bilər. Əgər əvvəlki mərhələlərdə əməkdaşlığın əsas ağırlıq mərkəzi enerji idisə, indi bu əlaqələr təhlükəsizlik, logistika, sülh quruculuğu və geosiyasi koordinasiya kimi sahələrə doğru genişlənir.



İlham Əliyevlə Fridrix Merts arasında telefon danışığı bir daha göstərdi ki, Cənubi Qafqaz qlobal gərginliklərin fonunda sabitliyin xüsusi dəyər qazandığı geosiyasi platformaya çevrilib. Yaxın Şərqdəki böhranların mümkün təsiri regionun həssaslığını artırırsa, Azərbaycan–Ermənistan sülh prosesi həmin həssaslığı idarəolunan sabitliyə çevirmək üçün əsas mexanizm kimi çıxış edir. Eyni zamanda, Almaniya və Avropa İttifaqı ilə münasibətlərin genişlənməsi Azərbaycanın bu yeni regional düzəndə nə qədər mühüm aktora çevrildiyini göstərir.

Son olaraq qeyd edək ki, mövcud şəraitdə sülh, əməkdaşlıq və geosiyasi çeviklik eyni strateji xəttin hissələridir. Azərbaycan da məhz bu xətt üzərində öz regional rolunu möhkəmləndirməyə çalışır. Berlinlə aparılan dialoq isə göstərir ki, bu cəhd artıq Avropanın aparıcı mərkəzləri tərəfindən də ciddi şəkildə nəzərə alınan siyasi reallıqdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Seulun regional maraqları Bakının mövqeyi ilə ortaqlaşır

## *Mərkəzi Asiya uğrunda qlobal rəqabətdə yeni mərhələ başlanır*

**Bu mərhələdə rəsmi Bakı Avrasiya qitəsinin mühüm güc mərkəzləri ilə strateji dialoqu davam etdirir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Tərəflər arasında aparılan danışıqlar bilavasitə siyasi konfiqurasiyaların, həmçinin beynəlxalq münasibətlər sistemində yaranan yeni təhlükəsizlik paradiqmalarının müzakirəsinə yönəlib.**



Asiya qitəsinin əsas dövlətlərindən sayılan Koreya Respublikası ilə münasibətlərin inkişaf dinamikası yalnız ikitərəfli formatla məhdudlaşmır, eyni zamanda, genişmiqyaslı regional proseslərin mərkəzinə nüfuz edir. Müzakirələrin mütləq əksəriyyəti Mərkəzi Asiya dövlətləri ilə qurulan çoxtərəfli əməkdaşlıq modelləri üzərində cəmlənib. Asiya qitəsində fəaliyyət göstərən strateji institutlar həmin dövlətlərlə iqtisadi-siyasi münasibətlərin dərinləşməsində rəsmi Bakının iştirakını zəruri sayır. Beləliklə, təşkil edilən diplomatik məsləhətləşmələr qlobal güc balansının Asiya qitəsinin şərqindən Xəzər sahillərinə qədər uzanan geniş coğrafiyada necə tənzimləndiyini göstərən əsas indikatorlardan hesab olunmalıdır. Nümayəndə heyətlərinin qarşılıqlı təmasları göstərir ki, Asiya dövlətlərinin regiona olan siyasi marağı ardıcıl xarakter daşıyır.

Koreya Respublikası Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa strateji prioritet qismində yanaşır. Həmin istiqamətdə tərəflər arasında C6 formatı çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri ətrafında fikir mübadiləsi aparılıb. C6 formatı beynəlxalq münasibətlər sistemində Mərkəzi Asiyanın respublikalarının xarici ölkələrlə dialoqunu təmin edən mühüm siyasi platformadır. Asiyanın aparıcı ölkəsi olan Koreya sözügedən format daxilində Mərkəzi Asiya respublikaları ilə siyasi, institusional əlaqələrini davamlı olaraq genişləndirir. Rəsmi Bakı isə həmin proseslərdə əsas təminatçı, habelə, regional tərəfdaş rolunu oynayır. C6 konfiqurasiyası daxilindəki proseslər yalnız Mərkəzi Asiya regionunu əhatə etmir, həm də Trans-Xəzər marşrutlarının təhlükəsizlik arxitekturasını müəyyənləşdirir. Koreya diplomatiyasının əsas hədəfləri sırasında Mərkəzi Asiyanın geosiyasi məkanında dayanıqlı mövqe tutmaq yer alır. Həmin məqsədlərə çatmaq üçün Xəzər dənizinin qərb sahilindəki siyasi sabitlik məkanına müraciət etmək məcburi xarakter daşıyır. Görüş əsnasında aparılan fikir mübadiləsi təsdiq edir ki, Mərkəzi Asiya regionunun gələcək siyasi dizaynı xarici qüvvələrin, xüsusilə də Uzaq Şərq dövlətlərinin fəal iştirakı vasitəsilə formalaşır.

Dünyanın qlobal rəqabət meydanına çevrildiyi dönəmdə fərqli regionlarda müşahidə edilən siyasi qütbləşmə prosesi təşkilatlanmış tərəfdaşlıq modellərinin aktuallığını dəfələrlə artırıb. Koreya diplomatiyasının C6 platformasına göstərdiyi maraq yalnız ticarət dövriyyəsinin artırılması istəyi ilə izah oluna bilməz. Əsas məqsəd Mərkəzi Asiyanın geosiyasi məkanında dayanıqlı, güclü, həmçinin uzunmüddətli əsaslara söykənən siyasi təsir dairəsi formalaşdırmaqdan ibarətdir. Məlum xarici siyasət strategiyasında Cənubi Qafqaz regionunun, xüsusən Azərbaycanın iştirakı, sadəcə, texniki zərurət kimi qəbul edilmir, tam əksinə, siyasi fundament olaraq qiymətləndirilir. Mərkəzi Asiya regionunun inkişaf perspektivləri nəqliyyat marşrutlarının, xarici bazarlara çıxış imkanlarının təhlükəsizlik səviyyəsindən asılıdır. Rəsmi Bakı Avrasiyanın mərkəzində sabitlik adası funksiyasını yerinə yetirməklə sözügedən imkanların real zəminə keçməsini təmin edir. Müzakirələrə cəlb edilən məsələlər siyasi sferada qəbul ediləcək qərarların Asiya ölkələri ilə Avropa arasında yaranacaq inteqrasiya proseslərinə necə güclü təsir edəcəyini göstərir. İqtisadi tərəfdaşlığın dərinləşdirilməsi, yüksək texnologiyalar, təhsil sahələrindəki əməkdaşlıqlar yekun nəticədə dövlətlərin qarşılıqlı etimad əsasında güclənməsinə xidmət edir. Tərəflər arasında yaranan etimad siyasi müttəfiqliyin təməl prinsipidir.

Dövlətlərarası münasibətlərin arxitekturasını gücləndirən əsas amillərdən digəri institusional mexanizmlərin mövcudluğudur. Danışıqlar zamanı Azərbaycan Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə müştərək komissiyanın, həmçinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin vacibliyi xüsusi qeyd olunub. Tərəflər arasında fəaliyyət göstərən idarəetmə orqanı dövlətlərarası sənədlərin, sazişlərin reallaşdırılmasına nəzarət edən ən ali icraçı institutdur. Hökumətlərarası formatda fəaliyyət göstərən belə təsisatlar ölkələrin qlobal siyasi arenadakı qarşılıqlı addımlarını koordinasiya edir. Qeyd olunan komissiyanın əhəmiyyəti iki dövlət arasındakı tərəfdaşlıq strategiyalarının vahid mərkəzdən idarə edilməsindədir. Xarici İşlər nazirlikləri səviyyəsindəki siyasi məsləhətləşmələr beynəlxalq təşkilatlar daxilində atılacaq addımların əvvəlcədən müəyyənləşdirilməsinə xidmət edir.

Dövlətlərarası münasibətlərin tarixi təsdiq edir ki, zaman amili siyasi əlaqələrin sınaqdan keçməsində həlledici meyardır. 2027-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 35 illiyi qeyd olunacaq. Bu dövr beynəlxalq hüquq subyektləri arasındakı təmasların tam yetkinləşməsi, strateji hədəflərin dərk edilməsi üçün yetərli zaman kəsiyi hesab edilir. Diplomatik əlaqələrin inkişaf xronologiyası onu deməyə əsas verir ki, rəsmi Bakı ilə Seul bütün qlobal kataklizmlərə baxmayaraq, qarşılıqlı hörmətə söykənən konstruktiv münasibətləri qorumağı bacarıb. Uzun illər ərzində tərəflər arasında imzalanan çoxsaylı beynəlxalq sənədlər iki qitə arasında yaranan etimad mühitinin hüquqi bazasını təşkil edir. Asiya dövlətlərinin beynəlxalq sistemə inteqrasiyası fonunda həmin dövr ərzində yaranan təcrübə çox vacibdir. Xarici İşlər nazirlikləri səviyyəsində həyata keçirilən davamlı təmaslar yubiley ərəfəsində siyasi tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.

Hökumətlərarası komissiyanın müzakirə etdiyi sahələrin böyük qismi uzunmüddətli strateji maraqları qorumaq məqsədi daşıyır. Qeyd olunan idarəetmə institutu, eyni zamanda, xarici siyasət qurumlarının ardıcıl təmasları qlobal miqyasda mühüm çəkiyə malik diplomatik məktəblərin mükəmməl dialoqudur. Bəhs edilən dialoq mühiti qlobal güc rəqabətinin kəskinləşdiyi dövrlərdə ölkələrin zərər çəkməməsi üçün qoruyucu siyasi alət kimi çıxış edir. Yaradılmış inam sistemi bütün regional riskləri müvəffəqiyyətlə dəf edərək davamlı olaraq möhkəmlənib. Gedişatlar göstərir ki, xarici siyasət xəttinin Asiya vektoru qlobal geosiyasi proseslərdə xüsusi dominant mövqe qazanır. Rəsmi Bakı regional dövlətləri müştərək platformaya cəlb etməklə qlobal dialoqun istiqamətini dəyişməyə müvəffəq olub. Regional siyasətin arxitekturasında baş verən dəyişiklikləri izləyərkən Mərkəzi Asiyanın yalnız Şərqlə Qərbi yox, həm də qlobal Şimalla qlobal Cənubu birləşdirən vacib əlaqə olduğu aşkara çıxır. Proseslər Asiya dövlətlərini regional təcriddən xilas edərək qlobal iqtisadi-siyasi münasibətlərin fəal tərkib hissəsinə çevirir. Koreya hökumətinin xüsusi diqqət ayırdığı əməkdaşlıq formatları da məhz sözügedən təcrid risklərinin neytrallaşdırılmasına xidmət edir. Görüşdə nümayiş etdirilən diplomatik məharət tərəflərin olduqca praqmatik yanaşma tərzi sərgilədiyini bütün aydınlığı ilə ortaya qoyur. Nəticə etibarı ilə Asiyanın müxtəlif qütblərində yerləşən güc mərkəzləri Avrasiyanın təhlükəsizlik, həmçinin inkişaf paradiqmalarını bilavasitə Xəzər dənizinin qərb sahilindən idarə etməyin effektivliyinə tam şəkildə əmindirlər. Qlobal əməkdaşlıq xəttinin davamlı xarakter alması, institutlararası təmasların dərinləşməsi beynəlxalq siyasətin ali məramına xidmət edən vacib amillərdir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ermənistanın taleyi tərəziyə qoyulub



(əvvəli 1-ci səhifədə)

Oxuculara xatırladaq ki, təxminən, iki həftə bundan əvvəl bu barədə danışan Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan onu da bildirmişdi ki, yeni Konstitusiyanın mətni hazırdır və dərc edildikdən sonra ictimai müzakirələr zamanı müəyyən dəyişikliklərin ediləcəyi istisna olunmur. O zaman bütün təklif və rəylərə açıq olduqlarını bəyan edən nazir rəsmi Bakı üçün ən əhəmiyyətli düzəlişin – baş qanunun preambula hissəsində Müstəqillik Bəyannaməsinə istinadın aradan qaldırılması ilə bağlı məsələnin tam həll olunmadığını da vurğulamışdı: "Hələlik Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı Müstəqillik Bəyannaməsinə istinadın Konstitusiyadan çıxarılması ilə bağlı son qərar qəbul olunmayıb".

Ermənistan ədliyyə nazirinin məlum məsələ barədə iki gün bundan əvvəlki açıqlamasından isə belə çıxdı ki, hökumət son qərarı hələ də qəbul etməyib. Onun məntiqindən belə çıxır ki, çox irəli getdiklərinə görə yarı yolda dayana bilməzlər. Bu ritorik ifadə nazir Srbuhi Qalyanın ölkəsinin yeni konstitusiya layihəsi ilə bağlı son bəyanatını olduqca dəqiq təsvir edir. "Konstitusiya İslahatı Şurası çox fəal işləyir" – deyən Qalyan Ermənistanın yeni konstitusiya layihəsinin mətninin artıq hazır olduğunu və onun hakim "Mülki müqavilə" partiyasının İdarə Heyətinin iclasında, eləcə də parlamentin eyniadlı fraksiyasında müzakirəsinin planlaşdırıldığını da vurğulayıb. Erməni mediasının yazdığına görə, o, bu açıqlamaları Ədliyyə Nazirliyi yanında İctimai Şuranın ilk iclasında bəyan edib.

*

Deməli, erməni nazirin bəyanatından da göründüyü kimi, Ermənistanda konstitusiya islahatları prosesi son mərhələyə yaxınlaşır və məntiqi sual yaranır: iki ölkə arasında yekun sülh müqaviləsinin imzalanması üçün Azərbaycana qarşı ərazi iddialarının yeni əsas qanunun mətnindən çıxarılması realdırmı? Sualın dəqiq cavabını qonşu ölkənin daxili siyasi mənzərəsini araşdırdıqdan sonra tapmaq olar. İlk növbədə, qeyd etməliyik ki, Paşinyan hökuməti Ermənistanın yeni konstitusiyasının mətnindən Müstəqillik Bəyannaməsinə istinadı çıxarmaq niyyətini nümayiş etdirir. Bu isə o deməkdir ki, "Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşməsi" arxivə göndərilir. Baş nazir Nikol Paşinyan bunu dəfələrlə bəyan edib. O, partiyasının nümayəndələri və Qafan sakinləri ilə görüşdə bunu xüsusi qeyd edib: "Bizim Müstəqillik Bəyannaməsi, əslində, heç də müstəqillik bəyannaməsi deyil. Bu, münaqişə bəyannaməsidir, çünki siz dövlət elan edirsinizsə, "mənim səninlə filan problemim var, səninlə filan problemim olacaq, səninlə də filan problemim var" demək müstəqillik deyil". Yəni baş nazir aydın şəkildə bildirib ki, təhlükəsiz və suveren dövlət qurmaq üçün münaqişəli məntiqə əsaslanmayan, Azərbaycan ərazilərinə iddiaları istisna edən yeni konstitusiya lazımdır. Nikol Paşinyan indiki şəraitdə ərazi iddiaları məsələsini birdəfəlik bağlamaq, "Qarabağ hərəkatı" adlandırılan siyasətə son nöqtəni qoymaq niyyətindədir. Bu barədə danışanda "hərəkatı davam etdirmək yeni müharibənin başlanması deməkdir" – deyərək bunun qəbuledilməz olduğunu vurğulayıb.

Bəli, Ermənistanın baş naziri dəfələrlə bəyan edib ki, yeni konstitusiyanın qəbulu referendum yolu ilə Ermənistan vətəndaşları tərəfindən həll olunacaq. Bu onu deməyə əsas verir ki, Paşinyan iqtidarı konstitusiya islahatını Bakının tələblərinin yerinə yetirilməsi kimi yox, dövlətin daxili modernləşdirilməsi kimi təqdim etməyə çalışır. Müxalifət və erməni kilsəsinin nümayəndələrindən ibarət "müharibə partiyası"nın ölkədə bu ilin iyununda keçiriləcək parlament seçkiləri fonunda artan fəallığını nəzərə alsaq, bu taktika tamamilə ağlabatandır. Eyni zamanda, müxalifət qüvvələri hakimiyyəti gözdən salmaq üçün ciddi bir iş görə bilmir. Bu düşərgə 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə edilmiş və sülh prosesinə yaşıl işıq yandıran bəyannamələri, eləcə də hökumətin bu istiqamətində atdığı addımları təhrif etmək, ictimai rəyi çaşdırmaqla məşğuldur. Bunu nəzərə alsaq, qarşıdan gələn konstitusiya referendumu parlament seçkiləri kimi Paşinyan komandası üçün çətin siyasi sınaq sayıla bilər.

## Ekspert rəyi



**İlqar VƏLİZADƏ,**
**politoloq**

Ötən yarım il, bəlkə də bir il ərzində Ermənistanda konstitusiya dəyişiklikləri ilə bağlı müxtəlif təkliflər, yaxud da fərziyyələr irəli sürülürdü. Rəsmi İrəvan sülh sazişini seçkilərdən öncə imzalana biləcəyinə də işarə vururdu. Bununla da Paşinyanın siyasi dayaqlarının möhkəmlənəcəyi güman edilirdi. Yəni seçkilərdə qalib gələn iqtidar partiyası sazişin ratifikasiyasını da çətinlik çəkmədən reallaşdıra bilərdi. Yeri gəlmişkən, bizim ekspertlərdən bəziləri bu cür fərziyə-proqnozları səsləndirirdilər. Amma bu məsələ ilə bağlı rəsmi mövqedə heç bir dəyişiklik baş verməyib. Azərbaycan Prezidentinin qəti mövqeyi ondan ibarətdir ki, Ermənistan tərəfi özünün konstitusiyasına zəruri dəyişiklikləri etməli və məhz bundan sonra Bakı sülh sazişini imzalaya bilər. Atılacaq addımların ardıcıllığı, alqoritm belə olmalıdır. Bunun başqa variantı yoxdur.

Azərbaycan sülh qarşılığında Ermənistana əsas tələbini ən müxtəlif səviyyələrdə dəfələrlə dilə gətirib və bundan heç bir halda vaz keçə bilməz. Bu gün də heç nə dəyişməyib. Doğrudur, Ermənistan daxilində vəziyyət son dərəcə gərginləşib. Paşinyana qarşı olan qüvvələr xeyli fəallaşıblar. Koçaryanın baş nazir postuna vahdi namizəd kimi irəli sürülməsi bizim üçün əhəmiyyət daşımır. Azərbaycan Prezidentinin dediyi kimi, əgər Ermənistanda hakimiyyət dəyişikliyi baş verərsə və revanşistlər hakimiyyətə gələrsə, bunu fakt olaraq qəbul edəcəyik. Amma öz addımlarımızı da bundan çıxış edərək atacağıq.

Əgər Ermənistan cəmiyyəti yeni müharibəyə sürüklənməsini istəmirsə, düzgün seçimi özləri etməlidir. Mənzərə, çox güman ki, seçkilərdən sonra aydınlaşacaq. Sadəcə, Bakının tələbi odur ki, konstitusiyanın preambulası dəyişilməli, Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır. Bunu Paşinyanın, ya qeyrisinin edəcəyi ikinci dərəcəli məsələdir. Madam ki, Ermənistan hökuməti bu istiqamətdə işləyir, konstitusiyanın yeni redaksiyası hazırlanır, bunu təqdir etmək lazımdır. Artıq bu məsələ rəsmi İrəvanın daxili işidir.

"Ermənistan" blokundan baş nazirliyə namizəd Robert Koçaryan kimi "alovlu" revanşistlər konstitusiya referendumunu hakimiyyətə etimadla bağlı əlavə siyasi təzyiq rıçağına çevirməyə cəhd edirlər ki, bu da siyasi böhrana təkan verə bilər. Beləliklə, bu gün baş nazirin əsas vəzifəsi Ermənistan cəmiyyətini inandırmaqdır ki, dövlətin yolunu məhz onun kritik seçimi müəyyən edir: dinc, işıqlı gələcəyə, yoxsa yeni müharibənin uçurumuna doğru?

Paşinyan və komandasının səylərinin uğurlu olub-olmayacağı hələ məlum deyil, amma qonşu ölkə vətəndaşları Hayastan dedikləri evlərində seçki havasının necə olacağına bu gündən qərar verməlidirlər ki, sonra tərəzinin gözü pozulmasın. Axı, indi tərəziyə, faktiki olaraq, sülh və Ermənistan dövlətinin mövcudluğu qoyulub.

***İmran BƏDİRXANLI***
***XQ***

# Məkrli kampaniyalar müəllifi regiona çürük düşmənçilik toxumu səpir

**Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru (2003-2012) Luis Moreno Okampo yenə öz ampluasındadır. Xaricdəki erməni diaspor və lobbisindən külli miqdarda pul aldığı heç kəsdə şübhə doğurmayan Okampo bunun əvəzini ödəmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır. Mayın 4-də İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin 8-ci sammiti argentinalı hüquqşunas üçün göydəndüşmə fürsət olub.**



O, ibtidai istintaq dövründə və Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə istintaqı zamanı ağır cinayətlər törətdikləri sübuta yetirilmiş və müvafiq müddətlərə azadlıqdan məhrum edilmiş Ermənistan vətəndaşlarının (Okampo onları girovlar adlandırır–S.H.) azad olunması, Ermənistanın müdafiəsi və "Qarabağ xalqı"na hörmət göstərilməsi tələbi ilə sosial şəbəkələrdə yeni kampaniyanın geniş vüsət aldığını (?) bildirib. Bu barədə özünün "Facebook" səhifəsində məlumat verən Okampo yazıb: "2026-cı il mayın 4-də Avropanın 40-çox milli lideri, o cümlədən Avropa İttifaqına daxil olmayan Böyük Britaniya, Norveç və İsveçrə kimi ölkələrin rəhbərləri İrəvanda bir araya gələrək Avropa Siyasi Birliyinin 8-ci sammitində iştirak edəcəklər. Sammitin məqsədi ümumi strateji çağırışlara qarşı fəaliyyətin əlaqələndirilməsidir. Növbəti gün isə Ermənistanın Avropa İttifaqına inteqrasiyasının daha da dərinləşdirilməsi məqsədilə Aİ institutlarının rəhbərlərinin iştirakı ilə ilk Ermənistan–Aİ sammiti keçiriləcək. Qarabağ (Okampo xislətinə sadiq qalaraq "Dağlıq" təyinini işlətməyi də unutmur–S.H) mövzusu görüşlərin gündəliyinə daxil deyil. Lakin bu məsələ istər-istəməz gündəmə gələcək. Avropa liderləri reallıqla üz-üzə qalmalı olacaqlar: "120 min insan öz tarixi vətənindən zorla köçürülüb" və hazırda İrəvanda və ya onun ətrafında yaşayır. Qarşıdakı həftələrdə hökumət başçılarının əməkdaşları öz mövqelərini hazırlayacaqlar. Məhz indi onlarla əlaqə yaratmaq, problemi izah, konkret addımlar atmağı tələb etmək və onlara aydın dəstək çağırışı ünvanlamaq üçün ən uyğun zamandır. Sosial şəbəkələrdə "girovların" azad olunması, Ermənistanın müdafiəsi və "Qarabağ xalqı"na hörmət göstərilməsi tələbi ilə yeni kampaniyaya start veriləcək".

Okampo daha sonra paylaşımlarda istifadə olunacaq heşteqlərin nədən ibarət olduğunu açıqlayıb: "Biz "EuropeanPoliticalCommunity", "FreeArmenianHostages" və "EUrespectEUCharter" heşteqləri ilə paylaşımlar etməklə və ya şərhlər yazmaqla "Qarabağ xalqı"nın hüquqlarının müdafiəsinə öz töhfəmizi verə bilərik". Azğınlaşmış və reallıq hissini itirmiş keçmiş prokuror 2023-cü ildə baş vermiş prosesləri "erməni soyqırımı" adlandırıb və bunun qarşılıqlı səylərlə bunun "inkarına son qoyulmasına" da öz töhfələrini verə biləcəklərini vurğulayıb. Sonda onun erməni "sevgisi" lap fontan vurub. Yazıb ki, "erməniləri müdafiə etmək sivilizasiyanı müdafiə etmək deməkdir".

*

Girişdə qeyd etdiyimiz kimi, Okamponun yenidən erməni diaspor və lobbisinin, eləcə də Ermənistan daxilindəki separatçı, daşnak, revanşist tör-töküntünün maraqlarına xidmət edən təbliğat kampaniyasında önə çıxması təsadüfi deyil. O, uzun müddətdir ki, bu dairələrin siyasi sifarişlərini beynəlxalq ictimaiyyətə "humanitar böhran" kimi təqdim etməyə çalışır. İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin 8-ci sammiti də Okampo üçün növbəti informasiya manipulyasiyası meydanına çevrilib. Məqsəd aydındır: sammit ərəfəsində emosional çağırışlar, uydurma ittihamlar və qərəzli tezislərlə Avropa liderlərinə təsir göstərmək, Azərbaycanın haqlı mövqeyinə kölgə salmaq və regionda formalaşan yeni siyasi reallıqları şübhə altına almaq. Aydındır ki, bu cəhd hüquqi arqument yox, siyasi spekulyasiyadır. Okamponun hüquqşünas olsa da, onun üslubunda, dəst-xəttində beynəlxalq hüququn əsas prinsiplərindən əsər-əlamət yoxdur. Keçmiş prokuror yenə də bitmiş məsələləri süni şəkildə gündəmə gətirmək, revanşist dairələrin maraqlarına xidmət etmək və İrəvandakı sammitdən siyasi xal qazanmaq üçün fəallıq nümayiş etdirir.

Əgər Okamponun irəli sürdüyü tezislər həqiqətən Ermənistan üçün siyasi baxımdan səmərəli, diplomatik baxımdan isə məqsədəuyğun olsaydı, bu mövzuları, ilk növbədə, elə Ermənistan hökumətinin özü rəsmi platformalarda qabardardı. Lakin rəsmi İrəvanın son dövrdə daha ehtiyatlı davranması göstərir ki, hakimiyyət beynəlxalq auditoriya qarşısında səsləndirilən radikal çağırışların ölkəyə yeni risklər yarada biləcəyini, kövrək sülhü təhlükə altına alacağını anlayır. Ermənistan rəhbərliyi yaxşı başa düşür ki, Avropa Siyasi Birliyi kimi platformalar emosional hay-küy üçün deyil, siyasi dialoq, regional sabitlik və praktik əməkdaşlıq gündəliyi üçün nəzərdə tutulub. Məhz buna görə də Okampo kimi fiqurların kənardan səsləndirdiyi qızışdırıcı və qərəzli çağırışlar daha çox diaspor çevrələrinin siyasi sifarişini xatırladır. Bu, bir tərəfdən Ermənistan hökumətinin rəsmi xətti ilə qeyri-rəsmi təbliğat arasında fərqi üzə çıxarır, digər tərəfdən isə göstərir ki, belə təşəbbüslər real diplomatiyadan yox, köhnə iddiaların informasiya müstəvisində yaşadılmasından qaynaqlanır.

Bu kimi fiqurların fəaliyyəti nə Ermənistan dövlətinin və xalqının maraqlarına, nə də regionda sabitliyin bərqərar olmasına xidmət edir. Əksinə, onlar sülh təşəbbüslərinə xələl gətirir, normallaşma imkanlarını zədələyir və onsuz da həssas olan prosesi yenidən qarşıdurma müstəvisinə çəkməyə çalışırlar. Ən diqqətçəkən məqam isə budur ki, bu şəxslər bəzən elə erməni siyasi dairələrinin özündən də irəli gedərək, "ermənidən daha artıq ermənilik" nümayiş etdirirlər. Onların danışıq tərzi rasional siyasətə deyil, təhrikedici hərəkətlərə və qərəzli təbliğata söykənir. Nəticədə, belə çağırışlar Ermənistanı irəli aparmır, əksinə, onu ziyanlı iddiaların və dalan siyasətinin girovuna çevirməyə xidmət edir. Okampo Qarabağda yaşamış erməni əhalini bu gün xüsusi canıyananlıqla "Qarabağ xalqı" adlandırır. Eybi yox, istədiyi termini işlədə bilər. Ad məsələsi burada əsas məqam deyil. Əsas məsələ ondan ibarətdir ki, o və onun kimilər illər boyu bölgədə gərginliyi körükləyən, reallığı təhrif edən, sülh imkanlarını baltalayan mövqe sərgiləyiblər. Məhz belə fitnəkar, təxribatçı və məsuliyyətsiz yanaşmalar Qarabağda yaşamış erməni sakinlərin 2023-cü ildə öz yaşadıqları yerləri tərk etməsi ilə nəticələnən kütləvi psixozun dərinləşməsində mühüm rol oynayıb. Onlar insanların təhlükəsiz yaşamaq inancını möhkəmləndirmək əvəzinə, qorxu, təşviş və qeyri-müəyyənlik mühiti formalaşdırdılar. Bu baxımdan Okamponun bu gün özünü "humanizm carçısı" kimi təqdim etməsi səmimi görünmür. Çünki həmin insanların taleyinə ən böyük zərbəni, əslində, elə onları yanlış istiqamətə sürükləyən, yalan vədlərlə aldadan, bölgədə qarşıdurma ruhunu diri saxlayan belə dairələr vurublar.

Onu da bildirək ki, Okampo bundan əvvəl də sosial şəbəkələrdə oxşar kampaniyalar keçirmişdi. Buna nümunə olaraq 2024-cü il noyabrın 11-22-də paytaxtımızda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində elan olunan kampaniyanı göstərmək olar. O, həmin vaxt bildirmişdi ki, COP29 Qarabağ ermənilərin hüquqlarının dəstəklənməsi baxımından beynəlxalq ictimaiyyət üçün ciddi sınaq olacaq. Başabəla hüquqşünas erməniləri COP29-a qədər səylərini birləşdirməyə, media və sosial şəbəkələrdə separatçıların həbsdə olan başçılarına dəstək kampaniyası başlatmağa çağırmışdı. Lakin həmin kampaniya nəticəsiz qaldığı kimi indiki cəhdin də aqibəti fərli olmayacaq. Çünki indi təkcə beynəlxalq ictimaiyyət deyil, Ermənistan rəhbərliyi özü də emosional şüarlarla yox, "Dəmir yumruğ"un regionda formalaşdırdığı hüquqi-siyasi reallıqlarla hesablaşır. Başqa sözlə, Okamponun növbəti təşəbbüsünün də çürük qoz qədər dəyəri olmayacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Melanşon yenidən siyasi səhnədə

(əvvəli 1-ci səhifədə)

**ARAYIŞ:** *Martın 15-də Fransada təxminən 35 min kommunanı əhatə edən bələdiyyə seçkiləri keçirildi. Seçkilərdə iştirak səviyyəsi aşağı oldu. Sənaye və sosial baxımdan həssas bölgələrdə radikal solçuların mövqeləri gücləndi və "Əyilməz Fransa" ciddi dəstək qazandı. Buna qarşılıq olaraq, ölkənin cənub və Aralıq dənizi sahillərinə yaxın ərazilərində ifrat sağçıların yüksək nəticələri müşahidə edildi və "Milli Birlik" bir sıra şəhərlərdə mövqelərini möhkəmləndirə bildi. Paris şəhərində isə mərkəz-solçu düşərgə formal olaraq üstün mövqeyini qorusa da, səs bölgüsü daxildə parçalanmanın davam etdiyini ortaya qoydu. Mərkəz-solun namizədi Emmanuel Qreqor təxminən 38 faiz səslə birinci olub, sağ düşərgənin namizədi Rachida Dati isə 25 faiz nəticə göstərib. Oxşar mənzərə ölkənin digər böyük şəhərlərində də müşahidə olunub.*

Bələdiyyə seçkiləri formal olaraq lokal xarakter daşısa da, Fransada onlar həmişə ümummilli siyasi tendensiyaların göstəricisi kimi qəbul olunub. Bu baxımdan son səsvermə ölkədə sol düşərgə daxilində dərin fikir ayrılıqlarının qalmaqda davam etdiyini nümayiş etdirdi. Melanşonun partiyasının uğur qazanması onun siyasi strategiyasının müəyyən auditoriya üçün hələ də cəlbedici olduğunu göstərdi. Radikal solun uğur qazandığı ərazilərin əsasən fəhlə sinfi, miqrantlar və sosial təminatı zəif olan qrupların yaşadığı bölgələr olması təsadüfi deyil. Son illər iqtisadi bərabərsizlik, inflyasiya, sosial təminat problemləri və miqrasiya ilə bağlı narahatlıqlar bu seçici qruplarını daha sərt ritorikaya malik siyasi qüvvələrə yaxınlaşdırıb. Görünür, Melanşon da bu narazılıqları siyasi mobilizasiya alətinə çevirməyi bacarıb. Amma onun ritorikası cəmiyyətin bir hissəsi tərəfindən kəskin tənqid olunsa da, digər hissəsi tərəfindən mövcud sistemə qarşı etirazın ifadəsi kimi qəbul edilir.

Bununla yanaşı, Melanşonun siyasi taktikasının mübahisəli tərəfləri də az deyil. Onun seçki kampaniyası zamanı verdiyi bəyanatlar, xüsusilə də ifrat sağ fəalın ölümü ilə bağlı sərt mövqeyi və daha sonra antisemitizm ittihamlarına səbəb olan açıqlamaları Fransada geniş müzakirələr doğurmuşdu. Məsələn, fevralda keçirilən mitinqlərdən birində o Epşteyn soyadının tələffüzü ilə bağlı istehza etmiş, "Epstein yox, Epstin deyək, daha rusca səslənir" kimi ifadələr işlətmişdi. Həmin ifadələrdən sonra o, antisemitizmə eyham vurmaqda ittiham olundu və siyasi müstəvidə ona qarşı ciddi tənqidlər başladı. Opponentləri hesab edirdilər ki, o, Epşteynin yəhudi mənşəyinə dolayısı ilə işarə edir. Melanşon isə ittihamları rədd edərək bildirib ki, o, heç bir dini və ya etnik məna nəzərdə tutmayıb və Epşteynin dini kimliyinin siyasətlə əlaqəsi yoxdur. Hadisələr bir daha göstərdi ki, onun siyasi üslubu kompromisdən daha çox qarşıdurmaya əsaslanır. Bu isə qısa müddətdə seçici səfərbərliyi yaratsa da, uzunmüddətli perspektivdə geniş elektoratın etimadını qazanmağı çətinləşdirir. Məhz bu səbəbdən onun yüksəlişi Fransanın mərkəzçi və mötədil sol qüvvələri üçün ciddi narahatlıq mənbəyinə çevrilib. Amma mövcud situasiyada "Əyilməz Fransa"nın üstünlüyünü gözardı etmək doğru olmaz. Radikal solun yüksəlişi uzun müddətdir hakimiyyətdən kənarda qalan Sosialist Partiyasının yenidən siyasi səhnəyə qayıtmasını da çətinləşdirir.

Ümumən Fransanın siyasi həyatında baş verən son dəyişikliklər yalnız sol düşərgə ilə məhdudlaşmır. Ölkədə ənənəvi partiya sisteminin zəifləməsi Emmanuel Makron dövründə daha da sürətlənib.



Makronun hakimiyyətə gəlişi klassik sağ-sol balansını pozub. Nəticədə, siyasi spektrin hər iki ucunda – həm ifrat sağda, həm də radikal solda yeni güclənmə müşahidə olunur. Paraleldə Makronun şəxsi nüfuzu da beynəlxalq arenada getdikcə azalır. Məsələn, ABŞ Prezidenti Donald Tramp ötən ilin fevralında Vaşinqtona səfəri zamanı Makronu Ağ Evin girişində qarşılamamış, az sonra demişdi ki, Emmanuel Makron tezliklə vəzifəsini tərk edəcək. Bu kimi faktlar və aparılan rəy sorğuları nəzərə alındıqda prezident seçkiləri keçirildiyi təqdirdə əsas üstünlüyün ifrat sağın lideri Marin Le Pen və onun siyasi düşərgəsinin yeni simalarından hesab olunan Cordan Bardellada olacağı ehtimalı yüksəkdir. Əlqərəz, Fransa siyasətində son onilliklərdə görünməmiş dərəcədə ciddi ideoloji qarşıdurma formalaşıb. Mövcud vəziyyətdə radikal solun güclənməsinin bəzi hallarda ifrat sağın mövqelərini daha da möhkəmləndirməsi də mümkündür. Çünki cəmiyyətin mötədil hissəsi iki radikal seçim arasında qalmaq istəmir və nəticədə, daha stabil görünən variantı seçə bilir.

Bəzi analitiklər hesab edirlər ki, Fransada seçki sistemi ikinci tur mexanizmi üzərində qurulduğundan, namizədlərin öz elektoratları ilə yanaşı, daha geniş seçici kütləsini cəlb etməsi vacibdir. Yəni Melanşonun sabit və sadiq tərəfdarları olsa da, onun elektoratı genişlənməkdə çətinlik çəkir. Bu isə onu prezident seçkilərinin həlledici mərhələsində zəif vəziyyətə sala bilər. Lakin sözügedən ehtimal onun prezident seçkilərində iştirak edə bilməyəcəyi anlamına da gəlmir. Makronun üçüncü dəfə namizəd ola bilməməsi müxtəlif siyasi qruplar arasında liderlik uğrunda rəqabəti daha da gücləndirib. Sağ və mərkəz-sağ düşərgədə də vahid namizədin olmaması seçki yarışını daha qeyri-müəyyən edir. Bu vəziyyət radikal qüvvələr üçün əlavə imkan yaradır, çünki parçalanmış siyasi mühitdə sabit elektorata malik namizədlər daha asan şəkildə ikinci tura çıxa bilir. Melanşonun strategiyası da məhz bu reallığa əsaslanır. O, geniş kompromis axtarmaqdan daha çox, öz seçici bazasını maksimum səfərbər etməyə çalışır. Fransız seçicisi ənənəvi olaraq ikinci turda daha ehtiyatlı seçim etməyə meyllidir və kəskin ideoloji mövqelər çox vaxt məğlubiyyətə səbəb olur.

Sonda bu nəticəyə gəlmək olar ki, Fransada qarşıdakı illər siyasi baxımdan son dərəcə gərgin keçəcək. Sol düşərgə daxilində birlik əldə olunmasa, ifrat sağın hakimiyyətə gəlməsi ehtimalı daha da artacaq. Ona görə də son bələdiyyə seçkiləri Fransada yeni siyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu mərhələdə ideoloji qarşıdurma daha açıq formaya keçir, kompromis imkanları azalır və seçicilər getdikcə daha sərt seçim qarşısında qalır. 2027-ci il prezident seçkiləri yalnız hakimiyyət uğrunda mübarizə deyil, həm də Fransanın hansı siyasi istiqamətdə inkişaf edəcəyini müəyyən edən çətin sınaq olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Bakının siyasi ucalığı və mənəvi alicənablığı

## *Azərbaycan regionda etibarlı dostluq, dar gün qonşuluğu sərgiləyir*



**Ekspert rəyi**



**Nəsib NƏSİBLİ,**
**Azərbaycanın İrandakı sabiq səfiri, siyasi ekspert**

Dara düşmüş insana və ya çətinliklə üzləşən topluma yardım əli uzatmaq ən ali bəşəri dəyər və təbii insani vəzifədir. Bu gün qonşu İranda mülki əhali məhz belə bir ağır sınaq qarşısında qalıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, yaxın qonşu və regional güc kimi bu çətin günlərdə İran əhalisinə humanitar yardım göstərilməsi tamamilə təbii bir addımdır ki, buna kimsə etiraz edə bilməz. Rəsmi Tehranla siyasi münasibətlərin xarakteri və ya mövcud diplomatik gərginliklər bu humanist missiyanın qarşısını əsla kəsə bilməz və kəsməməlidir.

Diplomatik təcrübəmə dayanaraq qətiyyətlə deyə bilərəm ki, dövlətlərarası ixtilaflar heç bir halda xalqların humanitar ehtiyaclarından üstün tutula bilməz. Çünki siyasi konyunktur keçici, qonşuluq və insanlıq prinsipləri isə daimidir. Rəsmi Bakı nə 2012-ci, nə 2020-ci ildə, nə də ən son humanitar addımlar zamanı İran tərəfindən hər hansı qarşılıq gözləməyib. Əksinə, diqqət yetirsək, görərik ki, bu yardımlar məhz iki ölkə arasındakı münasibətlərin ən mürəkkəb və siyasi böhranların kəskin olduğu dövrlərə təsadüf edir. Bu fakt Azərbaycanın siyasi ucalığının, mənəvi alicənablığının və sarsılmaz humanizminin bariz göstəricisidir. Hesab edirəm ki, bu cür addımlar həm də regionun gələcək sabitliyinə qoyulan mənəvi sərmayədir. Azərbaycanın nümayiş etdirdiyi bu prinsipial mövqe bir daha sübut etdi ki, rəsmi Bakı regional böhranlar zamanı yalnız dar çərçivəli maraqları deyil, ümumbəşəri sülh və humanizm dəyərlərini rəhbər tutur.

**Azərbaycan tarixən humanizm və xeyirxah qonşuluq prinsiplərinə söykənən xarici siyasət xətti ilə fərqlənib. Bunun əyani sübutu kimi vaxtilə düşmənçilik münasibətlərində olduğumuz Ermənistanla bağlı hadisəni göstərə bilərik. 1988-ci ildə Spitak şəhərində 7,2 ballıq zəlzələ baş verəndə Azərbaycan tərəddüd etmədən kömək əlini uzatmışdı. Bu addım münaqişənin körükləndiyi bir vaxtda atılmışdı. Azərbaycan xalqı ən çətin məqamlarda öz ali dəyərlərinə və sülhpərvər siyasətinə sadiq qalmağı bacarır, hətta qarşısındakı düşmən belə olsa...**



Bu gün həmin siyasi xətt uğurla davam etdirilir. Məlum olduğu kimi, fevralın 28-də ABŞ və İsrailin qonşu İrana hücumlarından sonra ölkə un və düyü kimi əsas qida məhsullarının kəskin çatışmazlığı, habelə, antibiotiklərin və təcili tibbi yardım vasitələrinin kritik qıtlığı ilə üzləşib. Məhz belə bir vəziyyətdə nümayiş etdirilən beynəlxalq reaksiya və operativ humanitar dəstək, əslində, ölkə daxilindəki gərginliyin daha da genişlənməsinin qarşısını almağa və böhranın fəsadlarını yumşaltmağa yardımçı oldu.

Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyev ilə iranlı həmkarı Məsud Pezeşkian arasında martın 8-də baş tutan telefon danışığı xüsusi əhəmiyyət kəsb edir. Danışıqlar zamanı qonşu İran xalqının mövcud ehtiyaclarının qarşılanması məsələsi müzakirə olunub və dərhal əməli addımların atılmasına qərar verilib. Həmin telefon danışığından iki gün sonra Azərbaycandan İrana ilk humanitar yardım karvanı yola salındı. Eyni zamanda, rəsmi Bakı digər dövlətlərin də qonşu ölkəyə yardım çatdıra bilməsi üçün öz ərazisindən humanitar dəhliz açdı. Nəticədə, martın 12-də Rusiya tərəfindən göndərilən 13 tonluq humanitar yardım Azərbaycan ərazisindən keçməklə birbaşa İrana çatdırıldı.

Ötən gün qonşu İran xalqının ehtiyaclarının təmin edilməsi məqsədilə növbəti humanitar yardım yola salındı. Göndərilən yardıma ümumi çəkisi 82 ton olan müxtəlif növ ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlar daxildir. Bu da əvvəlki yardımdan, təxminən, 2,5 dəfə çoxdur. Ümumilikdə, ABŞ, İsrail və İran arasındakı son gərginlikdən sonra rəsmi Bakı tərəfindən İrana 110 tondan çox humanitar yardım çatdırılıb. Qeyd edək ki, Azərbaycan bu çətin məqamda qonşu İrana yardım əlini uzadan ilk ölkə oldu. Bu, Azərbaycanın qonşu İrana etdiyi ilk belə yardım deyil. 2012-ci ilin avqustunda Şərqi Azərbaycan əyalətində baş vermiş dağıdıcı zəlzələ zamanı göstərilən dəstək idi. O vaxt Prezident İlham Əliyevin göstərişi ilə Fövqəladə Hallar Nazirliyi bölgəyə 25 yük maşınından ibarət yardım göndərmişdi. Bundan əlavə, Azərbaycan koronavirus pandemiyası ilə mübarizə dövründə də İrana 5 milyon dollar maliyyə yardımı və fərdi mühafizə vasitələri təqdim edərək öz dəstəyini nümayiş etdirib.

Budəfəki humanitar yardımı məqsəd və tərkibinə görə iki əsas mərhələyə bölmək olar. Birinci partiya humanitar böhranın qarşısının alınması üçün ərzaq və tibbi ləvazimatların təmin edilməsinə yönəldiyi halda, ikinci partiyada əlavə olaraq hər iki xalqın milli bayramı sayılan Novruz münasibətilə sovqatlar və bayram məhsulları göndərilib. Bu addım humanitar missiyaya mədəni-diplomatik çalar qazandırıb. Yardımın yolasalma mərasimində iştirak edən İranın Azərbaycandakı səfiri Müctəba Dəmirçilu rəsmi Bakının bu addımı yüksək qiymətləndirib. Səfir Prezident İlham Əliyevə təşəkkürünü bildirərək qeyd edib ki, Azərbaycanın belə bir həssas məqamda nümayiş etdirdiyi dəstək iki ölkə arasındakı dostluğun bariz nümunəsidir. Diplomatın sözlərinə görə, xüsusilə Novruz ərəfəsində edilən bu jest olduqca təqdirəlayiqdir və Azərbaycanın ilk reaksiya verən ölkələrdən biri olması İran üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın bu addımı regionda etibarlı dost, dar gündə köməyə yetən qonşu obrazını bir daha təsdiqləyir. Humanitar yardımları dövlət siyasətinin bir parçasına çevirmək ölkəyə həm siyasi nüfuz, həm də böyük mənəvi hörmət qazandırır. Xüsusilə qonşu xalqlarla münasibətdə göstərilən bu cür həssas davranış qarşılıqlı inamı artırır, bölgədə sülhün və sabitliyin təməlini möhkəmləndirir. Bu təmənnasız yardımlar son illər müxtəlif coğrafiyalara yayılıb. Türkiyədəki zəlzələ, Pakistandakı sel fəlakəti, Ukraynadakı enerji böhranı zamanı uzadılan yardım əli Azərbaycanda xeyirxahlıq ənənəsinin artıq həyat tərzinə çevrildiyini göstərir. İranla bağlı atılan bu addım isə bölgədəki mürəkkəb vəziyyət fonunda öz xüsusi çəkisi ilə seçilir. Bu, Bakının humanitar dəyərləri hər şeydən üstün tutduğunun, ən çətin məqamlarda təmkinli davrandığının bariz nümunəsidir.

***Tacir SADIQOV***
***XQ***

# II İlyanın irsi və Gürcüstanın sabahı

## O, gürcülərin mənəvi sütunu, regional sülhün dəstəkçisi idi

**Bütün Gürcüstanın Katolikos-Patriarxı II İlyanın vəfatı Cənubi Qafqaz regionunda hüznlə qarşılanıb. Səhiyyə qurumlarının məlumatına görə, onun ölümü böyrək, ağ ciyər və ürək çatışmazlığı səbəbindən baş verib. 49 il davam edən patriarxlığı ilə o, Gürcüstan Pravoslav Kilsəsinin tarixində ən uzunmüddətli dini lider kimi yadda qaldı. II İlyanın rolu təkcə din çərçivəsində məhdudlaşmırdı. O, Gürcüstan cəmiyyətində sabitliyin, milli kimliyin və mənəvi dəyərlərin dayaqlarından sayılırdı.**



Onun vəfatı ilə bağlı yayılan reaksiyalar göstərdi ki, II İlya yalnız Gürcüstanda deyil, bütövlükdə, regionda mühüm fiqur kimi qəbul olunurdu. Gürcü ictimai fikrində II İlya “millətin mənəvi sütunu” kimi xarakterizə edilir. Beynəlxalq media onu postsovet məkanında böyük nüfuz sahibi olan dini liderlərdən biri kimi təqdim edir. Xüsusilə siyasi və sosial gərginlik dövrlərində cəmiyyətin birləşməsində oynadığı rolu ön plana çəkilir. Bu qiymətləndirmələr təsadüfi deyil. Onun fəaliyyəti sovet dövrünün son illərindən müstəqillik mərhələsinə qədər mürəkkəb tarixi dövrü əhatə edirdi.

II İlyanın şəxsiyyəti və fəaliyyəti Azərbaycan–Gürcüstan münasibətlərinin inkişafı kontekstində də xüsusi əhəmiyyət daşıyırdı. Onun çıxışlarında və təşəbbüslərində regional sabitlik, qarşılıqlı hörmət və dinlərarası dialoq ideyaları daim ön planda yer alırdı. O, açıq şəkildə bildirirdi ki, Qafqazda davamlı sülh yalnız ədalət və dövlətlərin ərazi bütövlüyü prinsipləri əsasında mümkündür. Bu baxımdan, onun Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstək regionun siyasi reallıqları ilə səsləşən mühüm mesaj idi.

Azərbaycan ictimaiyyəti və siyasi rəhbərliyi də II İlyanın vəfatını dərin ehtiramla qarşıladı. Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə ünvanladığı başsağlığı məktubunda Patriarxın Qafqazda sülhün, həmrəyliyin və dinlərarası anlaşmanın möhkəmləndirilməsindəki rolu xüsusi vurğulandı. Bu yanaşma iki ölkə arasında münasibətlərin yalnız siyasi və iqtisadi deyil, həm də mənəvi və humanitar əsaslar üzərində qurulduğunu göstərir.

II İlyanın Azərbaycanla bağlı mövqeyi ardıcıl və prinsipial idi. O, çıxışlarında Azərbaycan xalqına hörmətini ifadə edir, iki xalq arasında tarixi və mədəni bağlılıqların qorunmasının vacibliyini vurğulayırdı. Onun fikrincə, qarşılıqlı hörmət və tolerantlıq Cənubi Qafqaz kimi çoxmillətli və çoxkonfessiyalı region üçün sabitliyin əsas amillərindəndir. Bu yanaşma həm Gürcüstandakı azərbaycanlı icmaya münasibətdə, həm də ümumilikdə regiondakı dinlərarası əlaqələrdə aydın şəkildə özünü göstərirdi.

Bunun əsasları II İlyanın (dünyəvi adı İrakli Quduşauri-Şiolaşvili) uşaqlıq illərində formalaşmışdı. 1933-cü ildə Vladiqafqazda (o vaxtkı Orconikidze) doğulan gələcək Patriarx dini təqiblərin şiddətli olduğu bir dövrdə böyümüşdü. Onun ailəsinin yaxın çevrəsində müsəlmanların da olması bu baxışların formalaşmasına təsir göstərmişdi. II İlya bunu belə xatırlayırdı: “Onlar gələndə valideynlərim namaz qılmaları üçün evin ən yaxşı otağına xalçalar sərərdilər. Biz isə digər otaqda ikonalar qarşısında dua edirdik. Sonra hamı birlikdə nahar süfrəsinə əyləşirdi”.

Məhz erkən təcrübələr II İlyanı sonralar Azərbaycan xalqına və İslam dünyasına qarşı dərin hörmət bəsləyən dini liderə çevirmişdi. Onun fəaliyyəti dövründə Gürcüstanda azərbaycanlı icmanın dini və mədəni hüquqlarına diqqətin artması, ibadət azadlığının genişlənməsi və tolerant mühitin möhkəmlənməsi müşahidə olunurdu. Bunlar Azərbaycan–Gürcüstan münasibətlərinin dərinləşməsində mühüm rol oynayan humanitar amillər kimi qiymətləndirilə bilər. İki ölkə arasında strateji tərəfdaşlıq əsasən enerji layihələri üzərində qurulsa da, münasibətlərin dayanıqlılığı məhz cəmiyyətlərarası etimad və qarşılıqlı anlayışla təmin olunur.

Şübhəsiz, iki ölkə arasındakı münasibətlərin mənəvi dərinliyini göstərən ən bariz nümunələrdən biri də II İlyanın rəhbərliyi dövründə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə qurulan unikal tərəfdaşlıq idi. Bu əməkdaşlıq çərçivəsində Gürcüstanda fəaliyyət göstərən 650-dən çox kilsə və monastırın qaz təminatının Azərbaycan tərəfindən qarşılanması regionda dini tolerantlığın və mehriban qonşuluq siyasətinin ən uğurlu humanitar layihələrindən biri hesab olunur.

Gürcüstan Patriarxlığı ilə “SOCAR Energy Georgia” arasında əməkdaşlıq haqqında memorandumun imzalanması tərəflər arasında əlaqələrin möhkəmləndiyini göstərir. Bu cür əməkdaşlıq formatları Azərbaycan–Gürcüstan münasibətlərinin yalnız dövlətlərarası deyil, həm də cəmiyyətlərarası və dini müstəvidə inkişaf etdiyini aydın şəkildə nümayiş etdirir.



II İlya bu etimadın formalaşmasında mühüm “yumşaq güc” elementi kimi çıxış edirdi. Onun dinlərarası dialoqa verdiyi önəm, xristian və müsəlman icmaları arasında körpü rolunu oynaması regionda potensial qarşıdurmaların qarşısının alınmasına xidmət edirdi. O, dəfələrlə vurğulamışdı ki, dini müxtəliflik təhlükə deyil, əksinə, əməkdaşlıq və qarşılıqlı zənginləşmə üçün imkan yaradır. Bu yanaşma həm yerli, həm də beynəlxalq analitiklər tərəfindən sabitləşdirici amil kimi qiymətləndirilirdi.

Onun ictimai nüfuzu təkcə dini sahə ilə məhdudlaşmırdı. II İlya Gürcüstan tarixinin kritik məqamlarında, xüsusilə 1989-cu ilin 9 aprel hadisələri kimi dönüş nöqtələrində xalqla birgə mövqe sərgiləyən lider kimi yadda qalıb. Sonrakı illərdə dövlət və kilsə münasibətlərinin formalaşmasında, milli kimliyin qorunmasında və ənənəvi dəyərlərin təşviqində də onun rolu həlledici olub.

II İlya yalnız dini lider deyil, həm də Cənubi Qafqazda sabitlik və əməkdaşlıq arxitekturasının formalaşmasına təsir edən ictimai fiqur idi. Onun vəfatı ilə Gürcüstanda bir dövr başa çatsa da, formalaşdırdığı dəyərlər və yanaşmalar region üçün aktuallığını qoruyur. Bu gün Azərbaycan–Gürcüstan münasibətlərinin yüksək səviyyədə inkişafında siyasi və iqtisadi amillərlə yanaşı, məhz mənəvi körpülərin rolu da danılmazdır. II İlya bu körpülərin inşasında və qorunmasında xüsusi xidmətləri olan simalardan biri kimi tarixdə qalacaq. Onun irsi iki xalq arasında dostluğun, qarşılıqlı hörmətin və əməkdaşlığın gələcəkdə də davam etməsi üçün mənəvi bünövrədir.

Sonda onu da qeyd edək ki, Bütün Gürcüstanın Katolikos-Patriarxı II İliya Tbilisidəki Müqəddəs Üçlük Kafedralında (Sameba) dəfn olunacaq. Bu barədə məlumatı Gürcüstanın “Birinci kanalı” yayıb. Bldirilib ki, bu kilsə II İliya dövründə tikilib və Gürcüstanın ən böyük dini abidəsidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Prezidentinin tapşırığı ilə İrana növbəti humanitar yardım yola salınıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, İran İslam Respublikasına növbəti humanitar yardım yola salınıb.**

Yardım prezidentlər İlham Əliyev və Məsud Pezeşkian arasında 2026-cı il martın 8-də baş tutmuş telefon danışığına uyğun olaraq həyata keçirilib. Məqsəd qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək göstərməkdir.

Göndərilən budəfəki humanitar yardımın ümumi həcmi 82 ton təşkil edir. Yardıma 76 ton ərzaq və qida məhsulları, 4 ton dərman vasitələri, həmçinin 2 ton tibbi ləvazimatlar daxildir.

Humanitar yük 5 yük avtomobili (TIR) vasitəsilə yola salınıb.

Eyni zamanda, Novruz bayramı ərəfəsi nəzərə alınaraq, yardım karvanına bayram sovqatı və müxtəlif Novruz məhsulları da əlavə edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası tərəfindən göndərilən növbəti humanitar yardımın müşayiət olunması və qarşı tərəfə təqdim edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının, Xarici İşlər Nazirliyinin, Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin rəsmi şəxsləri İran İslam Respublikasına səfərə yola düşüblər.

*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, İran İslam Respublikasına göndərilən növbəti humanitar yardımı daşıyan yük maşınları dünən 14:00-da "Cənub-Astara" dövlət sərhədindən buraxılış məntəqəsindən keçərək qonşu ölkəyə yola salınıb.

*XQ*

# Yaxın Şərqdə savaş... Kentin istefası

## *Yaxud dövlətlər və dövlət içində dövlət barədə qeydlər*

**İranla İsrail və ABŞ arasındakı müharibə həddinə çatmış hərbi münaqişə davam etdikcə ortaya müxtəlif məqamlar çıxır. Yazıda həmin məqamları təhlil edəcək və nəticəyə gələcəyik. Əlbəttə, qarşıdurma tərəflərinin daxilinə və onlarla əlaqəli müxtəlif nüanslara nəzər salmağı da düşünürük.**

Başlayaq Birləşmiş Ştatların Terrorla Mübarizə Milli Mərkəzinin direktoru Co Kentin vəzifəsindən istefa verməsindən. O, bu barədə özünün "X" platformasındakı hesabında bildirib və deyib ki, İranla müharibəni vicdanla dəstəkləyə bilmir. Çünki İslam Respublikası tərəfindən ABŞ-a qarşı qaçılmaz təhlükə mövcud olmayıb. Həmçinin keçmiş direktorun sözlərinə görə, müharibə İsrailin təzyiqinin nəticəsidir.

"Aydın oldu ki, biz bu müharibəni İsrail və onun Amerikadakı güclü lobbisinin təzyiqi altında başlamışıq", - deyən Kent onu da bildirib ki, tutduğu vəzifədə xidmət aparmaq onun üçün şərəf işi olub, lakin hərbi əməliyyatları dəstəkləyə bilməyəcəyi üçün istefa qərarına gəlib.

Əslində, cənab Kent bu mövqeyi ilə heç də ilkə imza atmır. Qeyd edək ki, ABŞ siyasətində vurğulayırlar. Onlar bildirirlər ki, fikir ayrılığını gücləndirən olay Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricaninin ölümüdür. Yəni Pezeşkian hesab edir ki, yüksək vəzifəli məmurun təhlükəsizliyini təmin edə bilməmək, SEPAH-ın səhlənkarlığı yox, siyasi rəqibin xarici qüvvələrin əli ilə fiziki aradan götürülməsinə yönəlmiş qəsdən atılmış addımdır. Mənbələr Laricani ilə yanaşı, onun qardaşının zərərsizləşdirilməsi məsələsinə də toxunurlar. Onlar iddia edirlər ki, SEPAH təhlükəsizliyi təmin etməməklə, nüfuzlu Laricani ailəsinin siyasi təsirini tamamilə aradan qaldırmaq planı qurubmuş. Görəsən niyə?

*

Soyuq yanaşma ortaya bir neçə mühüm nəticəni çıxarır. Nəticələrdən biri İranın hərbi idarəetmə modelinə keçididir. Əslində, bu, mü-



Corc Uolden Boll (1909-1994-cü illərdə yaşayıb) adlı məşhur diplomat olub. O, ABŞ-ın Vyetnama qarşı 1955-1975-ci illərdəki müharibəsini dəstəkləməyərək, tutduğu dövlət katibinin müavini postundan istefa vermişdi. Boll hesab etmişdi ki, ölkəsinin Vyetnama hərbi müdaxiləsi kökündən səhvdir. ABŞ-da sonralar da oxşar yolu tutanlara rast gəlinib. Məsələn, Birləşmiş Ştatların Dövlət Departamentinin nümayəndəsi Mattev Hoy 2009-cu ildə ölkəsinin Əfqanıstandakı hərbi kampaniyasını "strateji səhv" adlandıraraq istefa ərizəsi yazmışdı.

ABŞ-ın timsalında Qərbin İraqa qarşı hərbi intervensiyası da bir sıra vəzifəli şəxslərin tutduqları postlarla könüllü vidalaşmaları reallığını doğurmuşdu. Birləşmiş Ştatlarda bu baxımdan Ann Rayt fərqlənir. Diplomat və ehtiyatda olan polkovnik Rayt 2003-cü ildə müharibəyə nümayişkəranə şəkildə etiraz edərək, Dövlət Departamentini tərk etmiş, sülh aktivistinə çevrilmiş və beynəlxalq humanitar təşəbbüslərə qoşulmuşdu.

Yeri gəlmişkən, İraq müharibəsi Böyük Britaniyada da səs-küylü istefalar doğurmuşdu ki, bu baxımdan 1997-2001-ci illərdə xarici işlər naziri postunu tutmuş, dövrünün tanınmış intellektuallarından sayılan Robin Kukun məşhur parlament çıxışından sonra partiya sıralarından ayrılmasını, habelə, Elizabet Vilmşurtsun İraqa hərbi müdaxilənin beynəlxalq hüquqa zidd olduğunu, heç nə ilə əsaslandırılmadığını vurğulayaraq, XİN-də tutduğu vəzifədən getməsini yada salmaq mümkündür.

Əlbəttə, əlahəzrət tarix belə istefalara az şahidlik etməyib. Yəni başqa misallar da var. Amma onları diqqətə çatdırmağa lüzum görmürük. Keçək İrana.

*

Deməli, SSRİ-ni ölkənin "KQB" adlandırılan Dövlət Təhlükəsizliyi Komitəsinin dağıtmasına dair klişeləşmiş deyim var. Sovetlər Birliyinin ən qorxunc strukturu sayılan bu qurumun daxildəki sabitliyə zərbə vuran müxtəlif hadisə və proseslərin gerçəkləşməsində bilavasitə əli olub. Məsələn, Sumqayıt hadisələrini götürək. Həmin vaxt "KQB"çilər erməni millərçiləri ilə əl-ələ verib şəhər ermənilərini qanlarına-qəltan etmişdilər. Məqsəd Qarabağ avantürası üçün zəmin hazırlamaq idi. O avantüra ki, ölkədəki nizamın pozulmasının ilk göstəricisi olmuşdu. SSRİ-nin müxtəlif yerlərində də "KQB" tərəfindən oxşar əməllər törədilmişdi ki, bunlar nəticə etibarilə nəhəng imperiyanı iflasa sürüklədi. İflas nəticəsində isə müttəfiq respublikalar öz müstəqilliklərini elan etdilər.

İranda müharibənin ilk günlərindən diqqətçəkən mənzərə var. Sanki SEPAH adlanan İran İslam İnqilabı Keşikçiləri Korpusu dövlət içində dövlətdir. Qurumun təmsilçilərinin və onlara yaxın şəxslərin bəyanatlarının ölkə rəsmilərinin fikirləri ilə tərs mütənasibliyi diqqətdən yayınmır. İstər-istəməz, yada sovet "KQB"si düşür. Əlbəttə, biz arzulamırıq ki, İran Sovetlər Birliyinin aqibətini yaşasın. Sadəcə, hadisə və proseslər arasında müəyyən oxşarlıq görürük və bu görüntü Cənub qonşumuzda daxili böhran ehtimalının mövcudluğuna dair şübhələr yaradır. Ona görə İran hakimiyyətinin əsas fiqurlarının aradan götürülməsi fonunda İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın SEPAH-ın ünvanına sərt tənqidlərlə çıxış etməsi üzərində dayanaq. Məlum olduğu kimi, cənab Pezeşkian güc strukturlarının hərəkətini "ağılsızlıq" adlandırıb və bu, son dərəcə ciddi siqnaldır.

Durum həm də ona görə ciddidir ki, ölkə Prezidentinin istefa verəcəyinə dair fikirlər dolaşır. Belə ki, ayrı-ayrı mənbələr dövlət başçısının güc strukturlarının hərəkətlərindən qəzəbli olduğunu

haribə şəraitindəki ölkə üçün məqbul sayılsa da, idarəetmədəki hərbi təmayüllü radikallaşma labüd kimi görünən transformasiya prosesinin kortəbiiliyi barədə təsəvvür formalaşdırır. Axı lap əvvəldə də bildirdik ki, SEPAH dövlət içində dövlətdir və bu, idarəçilik baxımından mənfi tendensiyadır. Elə bir tendensiya ki, cəmiyyətin xarici amillərə qarşı konsolidasiya və konsentrasiyasını pozur. Ortaya suallar çıxır: SEPAH-ın indiki, belə demək mümkünsə, fövqəlgörüntü ampluası qurumun gerçək missiyasına uyğundurmu? Sürətli radikallaşma nə üçündür? Dövləti qorumaq və qalib gəlməyəmi görə? Bəs mülki idarəçilik və onun hərbi elita ilə koordinasiyalı hərəkəti? Əslində, suallar çoxdur və İranda onları doğuran amillər görünür, daha əvvəldən olub. Sadəcə, Ali Dini Lider Ayətullah Əli Xamaneinin varlığı bir çox mətləbləri ört-basdır edirmiş. Müvafiq olaraq, onun zərərsizləşdirilməsinin problemləri üzə çıxardığını da söyləyə bilərik.

İkinci üzərində dayanacağımız məqam da birincinin davamı kimi nəzərdən keçirilə bilər. Məlum olduğu kimi, Ayətullah Əli Xamanenin ölümündən sonra onun yerinə oğlu Müctəba Xamanei Ali Dini Lider postunu tutdu. Yəni, bir növ, varislik xətti götürüldü və ilk baxışdan burada təəccüblü nə isə yoxdur. Amma mövcud konfiqurasiyada M.Xamaneinin SEPAH-a yaxınlığı məsələsi ön plana çıxdı. Bu xüsusda isə onu sözügedən orqanın generallarının əlində "marionet" fiqur qismində qiymətləndirilən baxışlar var ki, həmin baxışların heç də hamısı birmənalı qarşılana bilməz.

Nəzərə alaq ki, İranda Ali Dini Liderlik institutu mahiyyətcə mülki hakimiyyət, dini və hərbi elita arasında tənzimləyici missiya daşıyır. Əgər bu missiyanı yerinə yetirən şəxs, göründüyü qədərilə, hadisə və proseslərin episentrində deyilsə, mərkəzdə dayanmırsa, deməli, konfliktli durumun yaranacağı ehtimalı üzərində düşünməyə dəyər. Siyasi ekspertlər də bu qənaətdədirlər və hesab edirlər ki, hazırda İranda güc strukturları, yəni SEPAH, faktiki olaraq, mülki hakimiyyət institutlarını nəzərə almadan təkhakimiyyətliliyi ələ keçirib. Mövcud durum müharibə aparan ölkə üçün nə dərəcədə məqbuldur?

*

Sonda ümumiləşdirmə apararaq bildirək ki, müharibə iştirakçıları olan tərəflərin daxilində savaş nəticəsində yaranmış vəziyyət fərqlidir. ABŞ-da qlobal qarşıdurma xüsusundakı etiraz tonu fərdi mahiyyət daşımaqla, sistemin böhranı kazusunu şərtləndirmir. Tarixdən gətirdiyimiz ayrı-ayrı istefa misalları da ümumi mənzərəni dəyişməmişdi. Digər tərəfdən, hazırda İsraildə də müharibənin doğurduğu şərait fonunda hansısa ikitirəlik ab-havası müşahidə edilmir. Deməli, İranda vəziyyətin məxsusiliyi var və qeyd etdiklərimiz qənaətimizin təsdiqi kimi qiymətləndirilə bilər.

Əlbəttə, ABŞ və İsraildən fərqli olaraq, İran müdafiə olunan tərəf statusundadır. Yəni ölkənin, müəyyən mənada, zəiflik görüntüsü var. Hərçənd, tarix müdafiə olunan ölkədə siyasi və mənəvi konsolidasiyanın getdiyinə dair örnəklərə şahiddir və hazırkı İranı bu baxımdan nümunə saymaq olmaz. Belə bir şəraitdə Tehranda vəziyyət son dərəcə qeyri-sabit təəssüratı yaradır.

Deməli, Prezident Pezeşkianın haqqında söz açdığımız istefası İranın mövcud siyasi sistemi üçün dönüşü olmayan nöqtəyə çevrilə bilər. Hər halda, dövlət başçısı ilə hərbi elitanın konfrontasiyasının detalları ilə bağlı fikirləri diqqətə çatdırdıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Sosial şəbəkə cinayəti**

# Qazdıqları quyuya özləri düşdülər

## *Yaxud "Amber Lulu"nun hesabına milyonlar "qazanmaq" istəyənlərin son aqibəti*




**Bəri başdan onu deyək ki, yazımızın "qəhrəman"ı detektiv filmlərə o qədər aludə olub ki, axırda özünü kinoda deyil, real həyatda, misal üçün, Artur Konan Doylun obrazlarından birinə çevirmək xəyalına düşüb. Finalı "qəhrəman"ın acı aqibətindən bəhs edən bu "kəskin süjetli" tragikomediyanın son səhnəsini yerli telekanalların birində izləyəndə personajların gerizəkalılığına və bəsitliyinə təəccüblənməmək mümkün deyildi.**

Amma həmin telesüjetdə söhbət heç də ssenari müəllifinin təxəyyülünün məhsulu olan əhvalatdan deyil, Dövlət Təhlükəsizliyi Xidmətinin ölkə başçısının gəlini Alena Əliyevaya qarşı şantaj düzənləyən Azərbaycan vətəndaşının ifşasından və həbsindən gedir. Düşündüyü "oyun"un başlanğıcında o, əlindəki "kompromat"ları sosial şəbəkədə yayması üçün 10 milyon avro tələb edirmiş. Amma indi müstəntiqlərə verdiyi izahatında göstərdiyi kimi, məsələni "tezbazar" həll etmək üçün 5 milyon avroya razılaşıbmış.

İş materiallarında adı F.S. kimi keçən saxlanılan şəxs (onun şəxsiyyəti məhkəmənin son qərarına qədər gizli saxlanılacaq) ifadə verib. Şantaj "əməliyyat"ını bütün detalları ilə təsvir edən F.S. cari il fevralın 11-də "Sancaq" media orqanının "Facebook" səhifəsində Mehman Hüseynova mesaj göndərərək ondan "məlum qadının şəxsi həyatı ilə bağlı" foto və videoları göndərməsini xahiş edib. Saxlanılan şəxsin sözlərinə görə, tələb olunan materialları ona Hüseynov və Qabil Məmmədovun yaxın çevrəsindəki adamlar – Elman Əliyev və Məmmədzəki Səlimov göndərib. E.Əliyevin "hətta iki video da əlavə etdiyi materiallar"ını alan F.S. şantaj əməliyyatının "start" düyməsini basır. O, elə həmin gün, Mehriban Əliyeva, Arzu Əliyeva və Leyla Əliyevanın "Facebook" səhifələrinə mesajlar göndərərək, "əlində Alena xanımın şəxsi həyatından müəyyən materialların olduğunu" bildirib və açıq mətnlə onunla əlaqə saxlanılmasını istəyib.

Cavabın ləngidiyini görən detektiv "qəhrəman"ı fevralın 15-də Heydər Əliyev Fondunun internet saytının "Müraciətlər" bölməsi vasitəsilə ikinci dəfə cəhd edib. Belə bir mesaj da göndərib: "onların adamları" messencer vasitəsilə onlarla əlaqə saxlamasalar, materiallar "bütün dünyaya — xəbər agentliklərinə, səfirliklərə və parlamentlərə göndəriləcək".

Bu "nömrə" də işə yarımayanda fevralın 18-də şantajçı F.S. "Telegram" kanalı vasitəsilə Cavid Qurbanovla əlaqə saxlayıb və tələb etdiyi məbləği bir daha açıqlayıb: 5 milyon avro. Amma burada süjetdə qırılma baş verib və "əməliyyat planı" iflasa uğrayıb.

* *

Bilirsiniz, bütün bu hekayənin ən gülməli elementi nədir? Cinayət elementinin – "qəhrəmanımız"ın şantaj məhsulunun saxta olduğunun üzə çıxması. F.S.-nin telefonunda tapılan videogörüntülərin təhlili zamanı məlum olub ki, Alena Əliyevaya qarşı "ifşaedici sübutlar" olduğu iddia edilən videolar müxtəlif saytlardan götürülmüş parçalardır. Şantajçı şəbəkə bu cür saytlarda "Amber Lulu" ləqəbi ilə tanınan, əsl adı və ünvanı artıq istintaq tərəfindən müəyyən olunmuş qadının təsvirlərindən istifadə edib. O da məlum olub ki, bu adamın sosial media hesablarında "şantaja yararlı" kifayət qədər videogrüntüləri, fotoşəkillər var və bu "Amber Lulu"nun Alena Əliyeva ilə heç bir əlaqəsi olmadığı gün kimi aydındır. Sən demə, Prezidentin gəlininə qarşı aparılan ucuz və çirkli kampaniya uydurma "kompromat" üzərində qurulubmuş.

Məsələnin ironiya doğuran digər tərəfi ondan ibarətdir ki, şantajçı blogerlərin özləri də feyk-məlumat yaydıqlarını çox yaxşı bilirdilər. Telekanalın reportajında qeyd edildiyi kimi, Mehman Hüseynov "bomba effektli" illüziya yaratmaq, eyni zamanda, tamaşaçıların gördüklərini təsdiq etməsinə mane olmaq üçün videonun – bir neçə saniyəlik fraqmentini efirdə nümayiş etdirib. Buna klassik informasiya manipulyasiya texnikası deyilir: görüntünü tamaşaçıların təxəyyülünün yarımçıq qalan hissəsini özlərinin doldurmasına imkan verəcək qədər nümayiş etdirmək. İşin yerdə qalan hissəsini isə "Telegram" kanalları, repostlar, fraqmentləşdirilmiş "insayder" hesabatları görəcəkdi.

Cinayət işinin ən heyrətamiz tərəfi isə şantaj arifmetikası və ya "Amber Lulu"nun portretinin bənzədilməsi deyil, saxlanılan şəxsin telefonunda tapılan səs yazısıdır. Məmmədzəki Səlimovun F.S.-a dediyi "kütlənin müstəqilliyi" və "vətəndaş mövqeyi" ilə bağlı sərsəmləmələrini hələ də özündə saxlayaraq onu hər kəsə çatdırılmağa "layiq bilməsidir". Səlimov oyunun qaydalarını həmsöhbətinə heyrətamiz səmimiyyətlə izah edir: "Düymənin harada və nə vaxt basıldığını anlamaq lazımdır. Yəni nə dərəcədə icazə verilir". Daha sonra deyir: "İcazə verildi ki, bu məsələ qaldırılsın, Mehman gündəmə gətirilsin. Bizə də icazə verildi ki, məsələni bir az partladaq, o dərəcədə yayaq".

Axı şantaj şəbəkəsinin üzvləri yaxşı bilirdilər ki, kimsə həddi aşsa, onunla məşğul olacaqlar. Bu, sxem iştirakçısının öz telefonuna yazılan birbaşa mesajdır. Amma məsələ bununla da bitmir. Səlimov bir az da irəli gedir, siyasi şantaja əl atır: "Bu rejimdə artıq yuxarıdan düymə basılıb ki, bu rejim dəyişməlidir".

*

Utanmaq hissi ilə yanaşı, vicdanını da itirmiş bir adam şaquli əmr zəncirini təsvir edir ki, burada hər kəsin öz rolu və hər rolun öz sərhədləri var. Kimin nəyi etməyə icazə verildiyi ilə bağlı qərarlar haradasa "yuxarıda" verilir. Bəs bu "zirvədə" kim oturur? Azərbaycandan kənarda hansı qüvvə suveren dövlətdə hakimiyyət dəyişikliyi məsələlərini həll etmək hüququnu lovğalıqla öz boyuna biçir? Belə bir qüvvə varmı? Bu, artıq blogerlərin şantaj oyunu deyil, ayrıca araşdırma mövzusudur.

2026-cı ilin əvvəlindən böhtan atmaqda təqsirli bilinən bloger, öz cinayətlərinə şərik etdiklərinə vəsiqə hazırlayan Mehman Hüseynov və onun qardaşı "Jurnalistlərin Azadlıq və Təhlükəsizlik İnstitutu"nun təsisçisi Emin xaricdə məskunlaşıb. Almaniyada yaşayan əqli cəhətdən qüsurlu Qabil Məmmədov, dələduzluqdan tutmuş terrorizmə çağırışlara qədər müxtəlif cinayət işləri ilə üzləşərək, tanımadıqları şəxsin foto və videolarından "sübut" kimi istifadə edərək Alena Əliyevaya qarşı əlaqələndirilmiş qarayaxma kampaniyasına başlayıblar.

Yayım bir qayda olaraq "YouTube" və sosial media vasitəsilə həyata keçirilib. Bununla yanaşı, materiallar şantaj üçün kənar "podratçılar"a göndərilib. Bütün bu məzhəkənin üstündə kimə və hansı məhdudiyyətlər daxilində fəaliyyət göstərməyə "icazə verildiyini" müəyyən edən xarici "düymə" var. Bu mənzərə rolların dəqiq bölünməsi ilə planlaşdırılmış bir əməliyyatdır: məzmun istehsalçıları, distribütorlar, şantajçı pul qazanan və hardasa yuxarıda bir yerdə əyləşmiş marionet. Bu cinayətkar "çete"ni birləşdirən, əlbəttə ki, siyasi platforma və ya müxalifət ideologiyası deyil.

Təbii ki, bütün bu dələduzluq halları tamhüquqlu dezinformasiya kampaniyasına başlamaq üçün smartfonun, sosial media hesabının və mənəvi natəmizliyin kifayət etdiyi bir dövrün məhsuludur. Bu məqamda Səlimovun səs yazısına və onun "yuxarıdan düymə" ilə bağlı açıqlamasına qayıdırıq. Şübhəsiz ki, Azərbaycan Prezidentinin ailəsinə qarşı aparılan kampaniya ölkəmizə informasiya təzyiqinin daha geniş kontekstində cəmləşib. İndi isə başqa bir sualın verilməsinin vaxtıdır: "Bir vaxtlar Mehman Hüseynovun həbsi ilə bağlı qlobal səs-küyə səbəb olan beynəlxalq hüquq müdafiə təşkilatları indi haradadırlar?" Onun azad edilməsi üçün onlarla ölkədən insan haqları müdafiəçiləri və beynəlxalq fəallar mübarizə aparıb. Fərz edək ki, bu, onların işidir. Amma həmin Hüseynov azadlıqda olduğu halda, sistemli şəkildə böhtanlar hazırlayıb yayır, şantaj üçün uydurma materiallar ötürür, ətrafdakılardan biri isə audioyazıda suveren dövlətdə hakimiyyəti dəyişmək üçün "yuxarıdan" basılan "düymə"dən danışır.

*

Bu "fəalların" şantaj və böhtan zənciri ilə bir-birinə bağlanması, hədəfin yeganə "günahı" müəyyən ailədən olan qadına çevrilməsi ilə onların hüququnun ən kiçik pozuntusunu görməyə mahir olan strukturlar birdən-birə kar və kor olurlar.

Bu ikiüzlülük artıq sistemli hal alıb və çoxdan kimsəni təəccübləndirmir. Böhtan, uydurma dəlillər, şəxsi həyata təcavüz. Uydurma materiallardan istifadə etməklə məqsədyönlü qarayaxma kampaniyası Cinayət Məcəlləsinin konkret maddələrində nəzərdə tutulmuş cinayətdir. Amma qurban "avtoritar dövlət"ə, saxta xəbərlərin tədarükçüsü isə "azadlıq mücahidi"nə çevriləndə cinayət sayılmır.

İndi bütün bunlardan hansı nəticələr çıxır? Birincisi, cəmiyyətimiz son dərəcə ayıq olmalıdır. İnformasiya gigiyenası – mənbələrin yoxlanılması, sosial mediadan "eksklüzivlərə" sağlam skeptisizm və "bu, kimə sərfəlidir?" sual-məntiqi unudulmamalıdır. İkincisi, dezinformasiyaya qarşı mübarizə sistemli yanaşma tələb edir. Yəni qanunvericiliyin, sintetik məzmunun tanınması üçün alətlərin və operativ reaksiya mexanizmlərinin hazırlanması vacibdir.

Artıq gizlinlərin aşkara çıxarılacağı məqam yetişib. Azərbaycan təkcə döyüş meydanında qalib gəlməyi deyil, həm də böhtanla müharibə aparmağa çalışanları vurmağı öyrənmiş ölkədir.

***XQ-nin analitik qrupu***

# Beynəlxalq tədbirlərə dəstək standartı




**Dünən Bakıda "AZS ISO 20121:2026 – Tədbir davamlılığının idarəetmə sistemləri" üzrə dövlət standartının təqdimatı keçirilib. Yeni standartı Ümumdünya Şəhərsalma Forumunun (WUF13) Azərbaycan Əməliyyat Şirkətinin koordinasiya üzrə baş inzibatçısı Əfqan Mehdiyev təqdim edib.**

O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən və ölkənin milli standartlaşdırma qurumu olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən "Tədbir davamlılığının idarəetmə sistemləri–Tələblər və istifadə üçün təlimat" dövlət standartının qəbul edilməsi mühüm addımdır: "Beynəlxalq standart əsasında hazırlanmış və WUF13 Azərbaycan Əməliyyat Şirkəti ilə birgə əməkdaşlıq nəticəsində qəbul edilmiş yeni standart ölkəmizdə tədbirlərin planlaşdırılması, təşkili və idarə olunması proseslərində davamlılıq prinsiplərinin sistemli şəkildə tətbiqinə xidmət etməklə yanaşı, təşkilatlara tədbirlərin bütün mərhələlərində, yəni planlaşdırmadan icraya və nəticələrin qiymətləndirilməsinədək davamlı idarəetmə yanaşmasını tətbiq etməyə imkan yaradır".

Mərasimdə çıxış edən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov bildirib ki, son illər ölkəmizdə standartlaşdırma sahəsində həyata keçirilən təşəbbüslər dövlət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılmasını şərtləndirir. Onun sözlərinə görə, dünya iqtisadiyyatının qloballaşması ilə ölkələr arasında ticarət daha da intensivləşir ki, bu da məhsul və xidmətlərin müxtəlif bazarlarda qəbul edilməsini və bir-biri ilə uyğunluğunu təmin etmək məqsədilə beynəlxalq standartların qəbulunu zəruri edir.

Standartlaşdırmanın yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsi olduğunu diqqətə çatdırılan agentlik rəhbəri deyib ki, müasir tələblərə cavab verən malların və xidmətlərin istehsalı, onların keyfiyyətinin təmin edilməsi, rəqabətədavamlılığının artırılması, habelə, dünya bazarına çıxışının təmini üçün keyfiyyət infrastrukturunun əsasını təşkil edən standartlaşdırma sisteminin təkmilləşdirilməsi dövlətin və iqtisadiyyatın inkişafında xüsusi rol oynayır.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nın və "2026-2028-ci illər üçün milli standartlaşdırma proqramı"nın təsdiq olunduğunu xatırladan E.Bağırov bildirib ki, sözügedən sənədlər çərçivəsində texniki tənzimləmə sisteminin formalaşdırılması, istehlakçı hüquqlarının daha etibarlı qorunması və ticarətdə texniki maneələrin aradan qaldırılması, eləcə də iqtisadiyyatın bütün sferalarında müasir texnologiyaların və həllərin tətbiqinə nail olan, təhlükəsiz və keyfiyyətli, rəqabətqabiliyyətli mal və xidmətlərin istehsalını təmin edən yeni standartların işlənib hazırlanması məqsədilə istiqamətində mühüm addımlar atılıb.

İqtisadiyyat Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin müdiri İnarə Mustafayeva isə bildirib ki, davamlı tədbir idarəetməsi inklüziv iqtisadi inkişafı dəstəkləyir. Onun sözlərinə görə, tədbir davamlılığının idarəetmə sistemləri kimi standartların tətbiqi yerli şirkətlərə daha sistemli işləməyə, resurslardan səmərəli istifadə etməyə, eləcə də xidmət keyfiyyətini artırmağa imkan yaradır. Bu isə onların beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsinə və rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxarır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev deyib ki, təqdim olunan AZS ISO 20121 "Tədbirlərin dayanıqlılığının idarə edilməsi sistemi" dövlət standartının qəbul edilməsi ölkəmizdə tədbirlərin təşkili və idarə olunması prosesində dayanıqlılıq prinsiplərinin sistemli tətbiqini təşviq edən mühüm bir təşəbbüsdür.

Urbanizasiyanın sürətlə artdığı dövrdə resurslardan səmərəli və məsuliyyətli istifadə xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayan komitə sədrinin sözlərinə görə, dayanıqlılıq konsepsiyası AZS ISO 20121 standartının milli standartlaşdırma fonduna daxil edilməsi Azərbaycanda məsuliyyətli və dayanıqlı tədbir idarəetməsi yanaşmasının inkişafına, həmçinin bu sahədə beynəlxalq qabaqcıl təcrübələrin tətbiq edilməsinə yeni imkanlar yaradır.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası üzrə Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov qeyd edib ki, ölkəmiz tədbir təşkilatçılığı sahəsində ev sahibliyi olmaqla yanaşı, həm də təcrübə ixrac edən dövlətlərdən birinə çevrilib. Onun sözlərinə görə, ISO 20121:2024 standartı yalnız texniki sənəd deyil, ölkəmizdə tədbirlərin daha sistemli, daha dayanıqlı və beynəlxalq tələblərə uyğun şəkildə təşkil olunması istiqamətində atılmış növbəti addımdır: "Əminliklə deyə bilərəm ki, sözügedən standartın tətbiqi gələcəkdə Azərbaycanda keçiriləcək beynəlxalq tədbirlərin təşkilinə öz töhfəsini verəcək və yerli mütəxəssislərin fəaliyyətini vahid yanaşmada formalaşdırmasına xidmət edəcək".

Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu baş direktorunun müavini Kəmalə Məmmədzadə bildirib ki, müasir şəhər mühitinin formalaşdırılması, dayanıqlı nəqliyyat sistemlərinin qurulması və rəqəmsal yanaşmaların tətbiqi bu gün ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindəndir. Onun sözlərinə görə, bu gün Azərbaycan dünyada sürətlə modernləşən, eyni zamanda, öz qədim irsini qoruyan ölkələrdən biridir. Qeyd olunub ki, "Şəhərsalma və Memarlıq ili" çərçivəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də şəhərsalma istiqamətində milli standartların beynəlxalq tələblərə uyğunlaşdırılmasıdır.

2025-ci ildə Azərbaycanda qəbul olunmuş yeni dövlət standartlarının sayının 2021-ci illə müqayisədə, təxminən, 10 dəfədən çox olduğunu xatırladan baş direktor müavini deyib ki, təkcə bu ilin yanvar-fevral aylarında ölkədə 36 yeni dövlət standartı qəbul edilib, yaxın 3 ildə isə daha 3 minə yaxın yeni dövlət standartının işlənib hazırlanması nəzərdə tutulur.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# AİB-in rəqəmsal dəhlizlər layihəsi

ADB
ASIAN DEVELOPMENT BANK

**Asiya İnkişaf Bankı (AİB) Azərbaycanın da iştirak etdiyi daha bir regional təşəbbüsü – CORRIDOR layihəsini nəzərdən keçirir. Xüsusi Texniki Yardım Fondunun 1 milyon ABŞ dolları məbləğində dəstəklədiyi bu layihə Asiya və Sakit okean regionu ölkələrində iqtisadi artımın sürətləndirilməsi, dayanıqlığın və rəqabət qabiliyyətinin artırılması məqsədilə regional rəqəmsal dəhlizlərin inkişafına yönəlib.**

Azərbaycanla yanaşı, təşəbbüs Banqladeş, Gürcüstan, Hindistan, İndoneziya, Qazaxıstan, Monqolustan, Pakistan, Filippin, Çin, Şri-Lanka, Tailand, Türkmənistan, Özbəkistan və Vyetnam da daxil olmaqla çox sayda ölkələri əhatə edir. "CORRIDOR" proqramı digər subregional platformalar çərçivəsində təhlükəsiz, inklüziv və uyğunlaşdırılmış sərhədlərarası rəqəmsal transformasiyanın təşviqinə yönəlib. Təşəbbüs "Asia-Pacific Digital Highway" və "Connect Asia-Pacific" layihələrinin həyata keçirilməsi üçün ilkin layihələndirmə və tənzimləyici hazırlıq işlərini təmin edən əməliyyat mexanizmi kimi təqdim olunur.

Layihənin əsas istiqamətlərinə 5 prioritet üzrə biliklərin yaradılması, potensialın artırılması və tərəfdaşlıqların inkişafı daxildir: regional əlaqəliliyin və ümumi rəqəmsal infrastrukturun inkişafı, o cümlədən fiberoptik şəbəkələri, data mərkəzləri, bulud xidmətləri və rəqəmsal ictimai infrastruktur; ticarətin rəqəmsallaşdırılması və təchizat zəncirlərinin səmərəliliyini artırmaq üçün "ağıllı sərhəd sistemləri"nin tətbiqi; regional rəqəmsal ictimai faydaların, "yaşıl data infrastrukturu"nun və süni intellekt əsaslı sistemlərin uyğunlaşdırılması; texnoloji sahibkarlığın və innovativ ekosistemlərin dəstəklənməsi üçün regional investisiya mexanizmlərinin formalaşdırılması; kibertəhlükəsizlik, məlumatların idarə olunması və rəqəmsal ictimai infrastruktur sahələrində model qanunlar və tənzimləyici "sandbox"lar vasitəsilə rəqəmsal siyasət və tənzimləmələrin harmonizasiyası.

*XQ*

# Ölkəmiz 4 milyon ton Qazaxıstan nefti nəql edib

**Martın 12-də "Prezident Heydər Əliyev" tankeri ilə Aktau limanından yola salınan Qazaxıstan neftinin 427-ci partiyası bir gün sonra "Azərtrans" Səngəçal terminalına çatıb. Bununla da, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "KazMunayQaz" şirkəti Qazaxıstan neftinin ölkəmizin ərazisi ilə daşınması layihəsi çərçivəsində tranzit həcmini 4 milyon tona çatdırıblar. İndiyədək tranzit edilən xam neftin 3,8 milyon tonu "Tengiz", 200 min tonu isə "Kaşağan" yatağının payına düşür.**

Qazaxıstan neftinin Azərbaycan üzərindən reallaşdırılan tranziti layihəsi çərçivəsində indiyədək ümumi daşımaların 2 milyon 85 min 729,243 tonu "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tanker donanmasına məxsus gəmilərlə həyata keçirilib. Həmin həcmin 1 milyon 962 min 983,243 tonu "Tengiz", 122 min 746 tonu isə "Kaşağan" yatağından olan neftin payına düşür.

"Tengiz" neftinin ilk partiyası 2023-cü il martın 23-də, "Kaşağan" neftinin ilk partiyası isə 2025-ci il yanvarın 27-də Aktaudan Bakıya çatdırılıb. Qeyd edək ki, Aktau limanından Səngəçal terminalına tədarük edilən Qazaxıstan nefti sonradan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Ceyhan limanına nəql edilir, oradan isə dünya bazarlarına göndərilir. Layihədə Azərbaycan tərəfini Dövlət Neft Şirkətinin törəmə müəssisəsi olan "SOCAR Midstream Operations" MMC təmsil edir.

Xatırladaq ki, 2022-ci ilin noyabrında SOCAR və "KazMunayQaz" Aktau–Ceyhan marşrutu üzrə BTC vasitəsilə ildə 1,5 milyon ton "Tengiz" neftinin tranziti ilə bağlı Çərçivə Sazişi imzalayıblar. 2024-cü ilin mart ayında SOCAR və "KazMunayQaz" illik tranzit həcmlərinin artırılması, eləcə də Qazaxıstan neftinin alqı-satqısı üzrə Strateji Əməkdaşlıq Memorandumuna imza atıblar. Ötən il yanvarın 15-də isə iki qurum arasında "Tengiz" həcmlərinə əlavə olaraq ildə 240 min ton "Kaşağan" neftinin tranzitini nəzərdə tutan Çərçivə Sazişi imzalanıb.

Məlumat üçün bildiririk ki, BTC vasitəsilə Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı, eləcə də digər mənbələrdən xam neft və kondensat həcmləri nəql olunur. BTC-nin hazırkı ötürmə gücü gündə 1,2 milyon barel və ya ildə 50 milyon ton təşkil edir. 2006-cı ilin iyun ayında istismara verilən 1768 kilometrlik BTC kəməri ilə 2025-ci ilin sonunadək, ümumilikdə, təqribən 619 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edilərək Ceyhan limanından 6 min 145 tankerlə dünya bazarlarına yola salınıb.

*XQ*

# Meyvə-tərəvəz ixracı artır

**2026-cı ilin yanvar-fevral aylarında Azərbaycandan 144 milyon 390 min ABŞ dolları dəyərində 105 min 291 ton meyvə-tərəvəz ixrac edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 35,4 milyon dollar və ya 32,5 faiz, həcmi isə 4,9 min ton 4,9 faiz artıb.**



Xatırladaq ki, 2025-ci ilin yanvar-fevral aylarında Azərbaycan 108 milyon 999 min dollar dəyərində 100,4 min ton meyvə-tərəvəz ixrac edib. Hesabat dövründə ixrac olunan əsas meyvə-tərəvəz məhsulları 57,7 milyon dollar dəyərində meşə fındığı (4,5 min ton), 30,9 milyon dollar dəyərində xurma (3,6 min ton), 26.5 milyon dollar dəyərində pomidor (22,3 min ton), 17,6 milyon dollar dəyərində alma (22,6 min ton), 2,7 milyon dollar dəyərində nar (3,1 min ton), 189,7 min dollar dəyərində kartof (189,4 ton) olub.

İlin ilk 2 ayında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 3,94 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 29,86 faizə bərabər olub.

*XQ*

# Azərbaycanın səmada liderliyi

## *Ölkəmizin hava məkanı da logistik dəhlizə çevrilir*

**Son illərin geosiyasi mənzərəsi dünya nəqliyyat xəritəsini yenidən cızır. Müxtəlif regionlarda alovlanan münaqişələr, artan təhlükəsizlik riskləri və dəyişən güc balansı beynəlxalq daşımaların istiqamətini köklü şəkildə dəyişdirib. Bu dəyişikliklər alternativ marşrutların əhəmiyyətini ön plana çıxarır, strateji mövqeyə malik ölkələri isə qlobal tranzit sisteminin aparıcı dövlətlərinə çevirir. Məhz bu kontekstdə Azərbaycan coğrafiyası qitələri birləşdirən mühüm körpü kimi daha qabarıq görünməyə başlayır.**




Bu transformasiya ən aydın şəkildə hava nəqliyyatı sahəsində hiss olunur. 2021-ci ildən sonra regionda baş verən hadisələr fonunda hava dəhlizlərinə maraq kəskin şəkildə artıb. Rəqəmlər də bunu təsdiqləyir: son illərdə hava marşrutlarından istifadə təxminən 4 dəfəyə yaxın yüksəlib. Əgər bir müddət əvvəl Azərbaycan üzərindən gündəlik orta hesabla 900-ə yaxın uçuş həyata keçirilirdisə, indi bəzi günlərdə təkcə tranzit reyslərin sayı minə yaxınlaşır. Bu artım regionda baş verən hərbi-siyasi gərginliyin alternativ hava yollarına yaratdığı tələbin birbaşa nəticəsidir.

Oxşar tendensiya quru və dəniz nəqliyyatında da özünü göstərir. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhliz üzrə yük axınında müşahidə olunan artım diqqətdən yayınmır. Bu marşrut artıq sadəcə alternativ deyil, getdikcə əsas logistik arteriyalardan birinə çevrilir. Bu yüksəliş isə infrastrukturun sürətli inkişafını zəruri edir. Xəzər hövzəsində limanların genişləndirilməsi, naviqasiya imkanlarının artırılması, gəmilərin manevr sahələrinin dərinləşdirilməsi və yük donanmasının gücləndirilməsi bu strategiyanın əsas sütunlarını təşkil edir.

Bu istiqamətdə atılan addımların ən bariz nümunələrindən biri Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. İstifadəyə verildiyi ilk illərdə müəyyən həcmlərlə fəaliyyət göstərən bu liman bu gün artan tələbatın diktəsi ilə yeni mərhələyə qədəm qoyur. Konteyner qəbul imkanlarının genişləndirilməsi artıq reallığa çevrilib, yaxın illərdə isə bu potensialın daha da artırılması planlaşdırılır. Uzunmüddətli perspektivdə limanın regionun ən iri logistika mərkəzlərindən birinə çevrilməsi hədəflənir.

Bununla yanaşı, müasir dövrdə rəqabət yalnız fiziki infrastrukturla ölçülmür. Rəqəmsal texnologiyalar logistikanın yeni "damar sisteminə" çevrilib. Gömrük prosedurlarının sadələşdirilməsi, elektron sənəd dövriyyəsinin tətbiqi və daşımaların rəqəmsal idarə olunması Orta Dəhlizin sürətini və cəlbediciliyini əhəmiyyətli dərəcədə artıracaq. Bu isə marşrutun qlobal ticarətdəki rolunu daha da gücləndirəcək.

Eyni zamanda, Mərkəzi Asiyadan gələn yük axınlarının aktivləşməsi gözlənilir. Xüsusilə Özbəkistan və Türkmənistan istiqamətindən Türkmənbaşı limanı vasitəsilə Azərbaycana yönələn daşımaların artması regional əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir. Bu proses isə ölkələr arasında daha sıx koordinasiya və inteqrasiyanı tələb edir.

Qeyd edək ki, hər bir dövlətin səma üzərində suverenliyi yalnız siyasi anlayış deyil, həm də iqtisadi mexanizmdir. Bu məkan üzərindən keçən hər bir təyyarə, əslində, həmin ölkənin hava "yollarından" istifadə edir və bu istifadənin qarşılığında müəyyən ödənişlər həyata keçirilir. Aviasiya sənayesində bu, beynəlxalq qaydalarla tənzimlənən və dövlətlər üçün mühüm gəlir mənbələrindən biri sayılan praktikadır.

Hava məkanından istifadə haqları təsadüfi müəyyən edilmir. Bu ödənişlərin hesablanması zamanı uçuşun qət etdiyi məsafə, təyyarənin texniki göstəriciləri, xüsusilə çəkisi əsas rol oynayır. Sadə dillə desək, daha ağır və daha uzun məsafə qət edən hava gəmisi daha yüksək ödəniş edir. Müxtəlif hesablamalara əsasən, təxminən 100 kilometrlik məsafə üçün bu məbləğ orta hesabla 40 ABŞ dolları, yəni təqribən 68 manat civarında dəyişə bilər.

Lakin bu rəqəmlər universal norma kimi qəbul olunmur. Hər ölkə öz tarif siyasətini müstəqil şəkildə formalaşdırır və buna görə də qiymətlər coğrafiyadan-coğrafiyaya fərqlənir. Üstəlik, bu sahə dinamikdir: iqtisadi şərait, yanacaq bazarındakı dəyişikliklər, ekoloji tələblər və beynəlxalq aviasiya standartları zaman-zaman tariflərin yenilənməsini qaçılmaz edir. Nəticədə, hava məkanı təkcə uçuşların keçdiyi boşluq deyil, həm də qlobal iqtisadiyyatın görünməyən, lakin gəlir gətirən mühüm seqmentlərindən birinə çevrilir.

Orta Dəhlizin bütün potensialının üzə çıxması üçün kompleks yanaşma vacibdir. Xəzərdə gəmi parkının genişləndirilməsi, limanların modernləşdirilməsi, dəmir yolu infrastrukturunun yenilənməsi və logistika zəncirində vahid koordinasiyanın təmin olunması əsas prioritetlər sırasındadır. Mövcud proqnozlar göstərir ki, yaxın illərdə bu dəhliz vasitəsilə daşınan yüklərin həcmi milyonlarla ton artacaq, konteyner daşımaları isə yüz minlərlə TEU səviyyəsinə yüksələcək.

Azərbaycanın hava məkanı ilə hərəkət edən beynəlxalq reyslər də müəyyən edilmiş ödəniş mexanizminə daxil edilir. Bu vəsaitlər ölkənin aviasiya sisteminin dayanıqlılığını təmin edən əsas maliyyə axınlarından biridir. Toplanan ödənişlər hava hərəkətinin idarə olunması, müasir infrastrukturun saxlanılması və uçuş təhlükəsizliyinin yüksək səviyyədə qorunması kimi həyati sahələrə yönəldilir.

Bu sistem isə yalnız milli qaydalarla məhdudlaşmır. Qlobal aviasiya məkanı vahid prinsiplər əsasında idarə olunur və burada Beynəlxalq Mülki Aviasiya Təşkilatı xüsusi rol oynayır. Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu kimi ICAO üzv dövlətlər arasında koordinasiyanı təmin edir, təhlükəsizlik standartlarını müəyyənləşdirir və aviasiya sahəsində səmərəliliyin artırılmasına yönəlmiş ümumi çərçivə yaradır. Eyni zamanda, ekoloji tələblərin tətbiqi və beynəlxalq uçuşların optimallaşdırılması da bu qurumun prioritetləri sırasındadır.

Hava məkanından istifadə ilə bağlı ödənişlər də məhz bu qlobal sistemin tərkib hissəsi kimi formalaşır. Bu səbəbdən konkret tariflər sabit rəqəmlərlə ifadə olunmur; onlar müxtəlif amillərin təsiri ilə dəyişir. İqtisadi mühit, beynəlxalq aviasiya siyasəti, texnoloji yeniliklər və ekoloji yanaşmalar bu sahədə qiymətlərin davamlı şəkildə yenilənməsinə səbəb olur. Beləliklə, hava məkanı yalnız strateji üstünlük deyil, həm də çoxşaxəli və dinamik iqtisadi mexanizm kimi çıxış edir.

Bütün bu proseslər bir həqiqəti aydın şəkildə ortaya qoyur: qlobal dəyişikliklər fonunda Azərbaycan yalnız müşahidəçi deyil, yeni nəqliyyat reallığının formalaşmasında fəal iştirak edən strateji mərkəzdir. Buradan keçən yollar artıq sadəcə yük daşımır – onlar regionun gələcəyini, iqtisadi dinamikanı və geosiyasi çəkini müəyyənləşdirir.

Qeyd edək ki, yükdaşımalar çərçivəsində də hava məkanı ilə bağlı ciddi layihələr mövcuddur. Belə ki, Ələt Azad İqtisadi Zonasında yük daşımalarına xidmət edəcək yeni hava limanının rəsmi istifadəyə verilməsi 2027-ci ilin ilk aylarına nəzərdə tutulur. Bu barədə "Silk Way West Airlines" şirkətinin prezidenti Volfqanq Mayer Bakıda təşkil olunan I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda çıxışı zamanı məlumat vermişdi. Şirkət rəhbərinin sözlərinə görə, "Silkway" qrupunun strategiyası hava və yerüstü daşımaları vahid sistemdə birləşdirməkdir.

Bu yanaşma qədim İpək yolu boyunca yalnız hava marşrutlarının deyil, eyni zamanda, multimodal nəqliyyat xətlərinin də inkişafına imkan yaradacaq. Məhz bu məqsədlə yeni yük hava limanının tikintisinə start verilib. Layihənin icrasına 2023-cü ilin sonlarında başlanılıb, tikinti işlərinin isə gələn ilin sonuna qədər tamamlanması planlaşdırılır. Açılış mərasiminin 2027-ci ilin birinci rübündə keçirilməsi gözlənilir.

"Silk Way" prezidentinin sözlərinə görə, layihə müasir ekoloji tələblər əsasında hazırlanır. Aeroportun dam örtüyündə günəş panelləri quraşdırılacaq, daxili nəqliyyat sistemi isə elektrik və alternativ enerji mənbələri ilə işləyən vasitələrdən ibarət olacaq. Bu yanaşma yeni hava limanını təkcə logistika mərkəzinə deyil, həm də ətraf mühitə həssas, innovativ yük habına çevirəcək.

*Nurlu ABDALOV*
*XQ*

*Biz deməsək...*

**Son illər paytaxtın yaşayış binalarında baş verən yanğınların sayının nəzərəçarpacaq dərəcədə artması ciddi narahatlıq doğurur. Bu, müxtəlif səbəblərlə, əsasən də köhnə tikililərdə mövcud elektrik təsərrüfatlarının istismar müddətinin başa çatması ilə izah edilir. Bu günlərdə Xətai rayonunda yeni hündürmərtəbəli binada təhlükə yaradan yanğın hadisəsi haqqında danışan sakinlər isə bildirirlər ki, bunun səbəbi bəzi şəxslərin avtomobillərini mənzillərindən çəkdikləri elektrik naqili ilə şarj etmələri və nəticədə, xətlərin həddsiz dərəcədə yüklənməsi ilə bağlıdır.**

# İşıqlar sönür, mənzillər alova bürünür...

## Elektrik şəbəkələrində yüklənmə tez-tez kütləvi yanğın törədir



*Ekspert rəyi*



**Elmar NURƏLİYEV,**
**təhlükəsizlik üzrə ekspert**

Yanğının baş verməsi üçün üç element – istilik, yanan material və oksigen əsas şərtdir. Evdə olan hər bir əşyanın, avadanlığın yanma təhlükəsi var. İstilik də olduqda mütləq yanğın təhlükəsi baş verir. İstər fərdi evlərdə, istərsə də çoxmənzilli yaşayış binalarında yanğınların böyük əksəriyyəti elektrik təsərrüfatında yaranan qızma, qısaqapanma və alışma səbəbləri ilə əlaqədardır. Buna görə də mənzillərdə elektrik təsərrüfatının daim saz vəziyyətdə olmasına diqqət etmək lazımdır. Ticarət müəssisələrindən alınan elektrik cihazlarının və avadanlıqların sertifikatlığına diqqət yetirilməli, onların keyfiyyətliyinə mühüm önəm verilməlidir.

Həmin elektrik cihazlarının və avadanlıqların istifadəsi zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl etmək zəruridir. Evi tərk etdikdə elektrik cihazlarını xətdən ayırmaq vacibdir. Elektrik şəbəkəsi tam normativ standartlara uyğun olaraq istismar edilməlidir. Elektrik şəbəkəsində baş verə biləcək yanğınların qarşısını almaq üçün keyfiyyətli məhsuldan istifadə də əsas şərtlərdən biridir. Yanğınların statistikasında ən böyük pay elektrik təsərrüfatında baş verən hadisələrlə aiddir. Elektrik təsərrüfatı saz vəziyyətdə olmazsa, normadan artıq yüklənmə baş verərsə, eləcə də eyni anda bir neçə elektrik cihazı fəaliyyət göstərərsə və mənzilin elektrik tutumu da buna uyğun olmazsa, yaxud hər hansı bir izolyasiya pozulması nəzərə çarparsa, bu, qızma, qısaqapanma, alışma və yanğına gətirib çıxara bilər.

Binalarda yanğın təhlükəsizliyi sisteminin istismarı diqqətdə saxlanılmalı və qaydalara əməl olunmalıdır. Yaranan təhlükənin qarşısının vaxtında alınması və insanların oradan təhlükəsiz təxliyə olunması, təhlükəsiz toplanış yerinin, ehtiyat su çəninin, yanğın xəbərdaredici siqnalizasiya vasitələrinin olması, həmçinin yanğın dolablarının, hidrantların mövcudluğu vacibdir. Bunlara əməl edildikdə insanların təhlükəsiz çıxarılması da mümkün olur. Ancaq təxliyə yolları, toplanış yerləri, ehtiyat su çəni təyinatı üzrə istifadə olunmursa, yaxud nasaz vəziyyətdədirsə, bu da yanğının qısa zamanda genişlənməsinə gətirib çıxarır. Bu sistemlər hadisə baş verdikdə daha tez qarşısının alınması və yayılmaması üçündür.

Bu məsələdə ən vacib məqam insanların məlumatlandırılması və xəbərdar edilməsidir. Yanğın təhlükəsizliyi məsələsinə binanı idarə edən MTK ciddi yanaşmalıdır. Sakinlər özləri də bunu tələb etməlidirlər. Elektrik şəbəkələrində ildə bir dəfə ixtisaslaşmış müəssisə ilə MTK tərəfindən yoxlamalar həyata keçirilməlidir. Sakinlərə çoxmənzilli binalarda yanğın baş verdikdə necə davranmaq lazım gəldiyi, hansı təxliyə yolları ilə təhlükəsiz əraziyə keçid edilməli olduğu haqqında məlumatlar verilmədir.

**Ekspert Vidadi Hüseynov** qeyd edir ki, bu yanğın hadisəsi ilə əlaqədar səsləndirilən iddianın, yəni avtomobillərin binanın enerji şəbəkəsindən şarj olunmasının müəyyən əsasları var. Lakin digər yanğın hadisələrini də bununla əlaqələndirmək düzgün sayılmır. Məsələyə texniki baxımdan diqqət yetirilsə, müasir elektromobillərin şarjı yüksək güclə (adətən, 3,5 kVt – 7 kVt və daha çox) hesablanır. Köhnə və ya məişət istifadəsi üçün hesablanan elektrik xətləri belə davamlı yüklənmə üçün nəzərdə tutulmur. Əgər şarj prosesi qeyri-standart uzadıcılarla, torpaqlama olmadan qoruyucu avtomatlar və diferensial relelərsiz həyata keçirilirsə, bu zaman naqillərin qızması, izolyasiyanın əriməsi və qısaqapanma ehtimalı ciddi şəkildə artır. Xüsusilə həyətlərdə, zirzəmilərdə və ya qaraj tipli yerlərdə "improvizə olunmuş" şarj xətləri çəkilirsə, bu, artıq yanğın üçün real risk amili hesab edilir.

Ekspertin sözlərinə görə, avtomobillərin binanın elektrik şəbəkəsindən nəzarətsiz və texniki normalara uyğun olmayan şəkildə şarj edilməsi yanğına səbəb ola bilər. Amma bu, bütün bu kimi hadisələrin baş verməsinin əsas səbəbi deyil, sadəcə, son illərdə yaranan yeni təhlükə ehtimallarından biridir.

### Köhnə naqillər də qapanma mənbəyidir

Paytaxtımızda baş verən yanğınların artması təsadüfi deyil. Bu, təkcə ayrı-ayrı texniki nasazlıqların yox, bütövlükdə, köhnəlmiş infrastrukturun məntiqi nəticəsidir. Sovet dövründə tikilmiş beşmərtəbəli "xruşşovka" tipli binalarda bu cür yanğınlar artıq adi xəbər kimi diqqət çəkir. Xilasetmə xidmətlərinin mütəmadi müdaxiləsi, insanların əmlak və həyat itkisi fonunda əsas sual dəyişmir: problem yalnız naqillərdədir, yoxsa daha dərin səbəblər mövcuddur?

Bu sualla bağlı ekspertlər bildirirlər ki, 1950-1970-ci illərdə tikilən binalarda elektrik sistemi minimum yüklə işləmək üçün layihələndirilib. O dövrdə bir mənzildə bir soyuducu, bir televizor, bir neçə işıq mənbəyi olurdu. Bu gün isə eyni mənzil demək olar ki, kondisioner, paltaryuyan və qabyuyan maşınlar, elektrik sobası, qızdırıcılar, kompüter və digər elektronikanın istifadə edildiyi kiçik bir "enerji mərkəzi"nə çevrilib.

Bu kəskin enerji artımı isə köhnə alüminium naqillərin imkanlarını, necə deyərlər, aşır. Belə ki, köhnəlmiş naqillərin yaratdığı təhlükə, ilk növbədə, illər keçdikcə izolyasiyanın kövrəkləşməsi, birləşmə nöqtələrinin boşalması və naqillərdə müqavimətin yüksəlməsi ilə bağlı olur. Bu isə qızma və qısaqapanma ilə nəticələnir. Statistik hesablatlara görə, yaşayış binalarındakı yanğınların ən geniş yayılmış səbəbi də məhz bununla bağlıdır. Belə bir məsələdə daha təhlükəli məqam isə odur ki, sakinlər çox vaxt yalnız mənzil daxilində təmir aparır, amma giriş xətləri, şaxta kabelləri, zirzəmi paylayıcı qutuları illərlə dəyişdirilmir.

**Elektroenergetika üzrə ekspert Namiq Ramazanovun** fikrincə, yaşayış binasında baş verən yanğınların əksəriyyəti elektrik şəbəkəsinin yüklənməsi ilə bağlı olur. İnsanların böyük bir hissəsi yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı elektrotexniki norma və qaydaların tələblərini pozur. Bir çox hallarda evlərdə düzgün elektrik açarları (avtomat) qoyulmur və belə işlər peşəkar elektriklərə həvalə olunmur. Mənzilin elektrik enerjisi şəbəkəsi qurulan zaman elektrik xətlərinin yanmağa meyilli konstruksiyalar üzərindən çəkilməsi, qoruyucu və elektrik açarlarının düzgün olmayan yerlərə bərkidilməsi xətlərdə qəzaya gətirib çıxarır ki, bu da yanğınla nəticələnir.

N.Ramazanov bildirir ki, mənzillərin elektrik sistemi qurularkən yanmayan kabeldən istifadə edilmədir. Amma çox vaxt insanlar buna əhəmiyyət vermir. Ya sayğaclarda, ya da evin paylayıcı avtomatlarında naqillər müəyyən vaxtdan sonra yüklənərək qızır. Nəticədə, naqillər birləşən hissələrdə boşluqlar yaranır. Bu zaman gərginlik artır və alışma baş verir. Mənzillərdə kabellərin çəkilişi zamanı suvaqaltı xüsusi yanmayan borulardan istifadə edilməsi məsləhətdir. Bu zaman kabel o borunun içində olur, elektrik şəbəkəsi qızdıqda isə orada soyuma yaranır və problemin qarşısı alınır.

Hazırda müasir texnologiyalar diferensial elektrik açarlarından istifadəyə imkan yaradır. Yüksək həssaslığa malik bu avtomatlardan isə daha çox körpə və uşaqların olduğu evlərdə istifadəyə üstünlük verilir. Bu tip elektrik açarlarının həssaslığı o dərəcədə yüksəkdir ki, hətta insan hansısa səbəbdən gərginlik olduğu yerə toxunduqda ümumi şəbəkədən ayrılma baş verir.

### Həddsiz enerji sərfi və "gizli yüklər"

Mütəxəssislərin fikrincə, daha çox qış aylarında elektrik qızdırıcılarından kütləvi istifadə şəbəkəni pik həddə çatdırır. Üstəlik, qeyri-qanuni qoşulmalar, əlavə kabel çəkilişi, texniki normativlərə əməl olunmaması mövcud təhlükə ehtimalını daha da artırır. Belə hallarda bir neçə mənzildə eyni vaxtda yüksək güc tələb edən cihazların işləməsi ümumi xəttin qızmasına və nəticədə yanğına gətirib çıxarır.

Bu zaman qaz və məişət təhlükəsi də ciddi narahatlıq doğurur. Belə ki, yanğınların bir hissəsi qaz təsərrüfatı ilə bağlıdır. Yəni qaz sızmaları, standartlara uyğun olmayan avadanlıqların istifadəsi, ventilyasiyanın işləməməsi kimi hallar partlayış və alovlanma ehtimalını yüksəldir.

Bəs yeni tikililərdə niyə yanğın olur? Paradoksal görünsə də, yeni binalar da sözügedən təhlükədən sığortalanmayıb. Səbəblər isə fərqlidir. Bu, ilk növbədə, layihədə nəzərdə tutulmayan əlavə yüklənmə (məsələn, yazının əvvəlində xatırlatdığımız elektromobil şarjı), binanın inşası zamanı keyfiyyətsiz tikinti materiallarından istifadə olunması, məsələn, tikintidə yanğına davamlı olmayan üzləmə panellərinin işlədilməsi və texniki nəzarətin zəifliyində özünü qabarıq göstərir. Bəzi hallarda isə tikintidə nəzərdə tutulmayan fasad üzlüklərin istifadəsi də alovun sürətlə mərtəbələr üzrə yayılmasına gətirib çıxarır.

Problemin sistemli xarakteri almasından danışan ekspertlər rəsmi məlumatlara əsaslanaraq bildirirlər ki, ölkədə baş verən yanğınların böyük hissəsi yaşayış sektorunun payına düşür. Bu isə məsələnin fərdi səhlənkarlıqdan daha çox köhnə infrastruktur, zəif texniki nəzarət, koordinasiyasız idarəetmə kimi sistemli çətinliklərlə bağlı olduğunu göstərir. Köhnə binaların sökülməsi və yenilənməsi isə illər tələb edir. Pilot layihələr həyata keçirilsə də, minlərlə bina hələ də istifadə olunur. Bu səbəbdən əsas çıxış yolu mövcud şəbəkələrin modernləşdirilməsi, qoruyucu sistemlərin quraşdırılması, risklərin operativ aradan qaldırılmasıdır.

### Kimdir müqəssir?

Bu sahədə mövcud çətinliklərin aradan qaldırılması barədə danışan mütəxəssislərin fikrincə, mənzil daxilindəki naqillərin yenilənməsi ilə bağlı vətəndaş məsuliyyət daşıyır, ümumi xətlərin təzələnməsi isə idarəedici qurumların öhdəliyi hesab edilir. Amma praktikada bu sərhəd çox vaxt "boşluq zonası"na çevrilir və problemlər illərlə həll olunmur. Bunun belə, təhlükəni artıran əlavə amillərin aradan qaldırılması da unudulur. Məsələn, zirzəmilərdə yığılan tullantıların vaxtlı-vaxtında daşınması, işləməyən yanğınsöndürmə vasitələrinin yenilənməsi, bloklanmış çıxış yollarının açılması kimi hallara laqeyd yanaşılması da yanğın zamanı daha ağır nəticələrlə müşayiət olunur.

Bütün bunları nəzərə alan mütəxəssislər tövsiyələri kifayət qədər aydındır. Belə ki, köhnə naqillərin yenilənməsi, güclü enerji tələb edən cihazların eyni vaxtda istifadəsinin məhdudlaşdırılması, keyfiyyətsiz uzadıcıların istifadəsindən imtina olunması, qaz avadanlıqlarının mütəmadi yoxlanması və nəhayət, şübhəli qızma və qoxu zamanı dərhal müdaxilə edilməsi ilə yanğın təhlükəsinin qarşısının alınması mümkündür.

Beləliklə, yaşayış binalarında baş verən yanğınlar təkcə texniki nasazlıq deyil, bu, həm də illərlə üst-üstə qalaqlanan problemlərin məntiqi nəticəsidir. Köhnə naqillər, artan enerji tələbatı, yeni risklər (o cümlədən elektromobil şarjı), zəif nəzarət və gecikən yenidənqurma prosesi bütövlükdə ciddi təhlükə yaradır. Bu gün əsas məsələ yanğınların niyə baş verdiyini anlamaqdan daha çox, onların qarşısını almaq üçün konkret və sistemli addımların atılmasıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

# Hörmüz boğazı "coğrafi silah"a çevrilib

**Fevralın 28-dən başlayaraq, İsrail və ABŞ tərəfindən İrana qarşı həyata keçirilən hərbi eskalasiyaya cavab olaraq, rəsmi Tehran İsrailə raket və dron hücumları təşkil edib. İran, eyni zamanda, həm də Körfəz ərəb ölkələrinə oxşar əməliyyatlara başlayıb. Münaqişənin alovlandığı gündən etibarən İranın cavabları yalnız bundan ibarət olmayıb. İslam Respublikası əlindəki ən böyük rıçaqlarından birini işə salıb.**



SEPAH komandanlarının əmri ilə Hörmüz boğazı üzərindən gəmilərin keçidi faktiki olaraq dayandırılıb. Bu addım dünya enerji bazarlarında dərhal qiymət artımı yaradıb və neft treyderləri, ixracatçılar üçün qeyri-müəyyənliyi artırıb.

"Brent" markalı xam neftin bir barreli ilin əvvəlindən bəri təxminən 70 dollar bahalaşaraq 100 dollara çatıb. Martın 18-nə olan məlumata görə, "Light" neftinin bir bareli isə 92 dollar olub və son iki ilin ən yüksək səviyyəsinə çatıb. İlin əvvəlində bu qiymətlər müvafiq olaraq 55 və 60 dollar civarında idi. Yuxarıda qeyd olunduğu kimi, bu artımın əsas səbəbi ABŞ və İsrailin əməliyyatları və Hörmüz boğazında gəmilərin hərəkətinin məhdudlaşdırılmasıdır.

Qeyd edək ki, İran yalnız məhdud sayda gəminin keçidinə icazə verir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və İraq kimi ölkələr İranın təhdidləri ucbatından enerji ixracını tam olaraq həyata keçirə bilmirlər. Məhz bu səbəbdən OPEC-ə üzv ölkələrin neft istehsalı hazırda gündəlik 1,4 milyon barelə düşüb, bu da boğazın bağlanmasından əvvəlki göstəricinin təxminən üçdəbirinə bərabərdir.

Enerji bazarındakı qeyri-müəyyənlik fonunda neft məhsullarının qiymətləri də yüksəlir. ABŞ-da dizel yanacağı 1 qallon üçün 5 dollardan yuxarı qalxıb, Avropada benzin fyuçersləri artıb, Asiya bazarlarında isə yanacaq qiymətləri münaqişə başlanandan bəri iki dəfədən çox bahalaşıb.

Yeri gəlmişkən, Hörmüz ətrafında gərginlik davam etdikcə, ABŞ boğazın açılması üçün koalisiya yaratmağa çalışır, lakin bir çox müttəfiqləri bu çağırışı qəbul etmir. NATO üzvləri soyuq yanaşaraq koalisiya əməliyyatına qoşulmaq istəmədiklərini açıqlayıb. Fransa, Almaniya və digər Avropa ölkələri hərbi iştirakdan imtina edərək diplomatik həlli üstün tuturlar. Yaponiya, Avstraliya və Cənubi Koreya da koalisiyaya qatılmaq niyyətində olmadıqlarını bildiriblər.

*

Bütün bunlar fonunda beynəlxalq media qurumları, iqtisadi təhlilçilər və tarixçilər Hörmüz boğazı ətrafında baş verən hadisələri diqqətlə izləyir. "Bloomberg"in məlumatına görə, İran boğazda gəmiçilik üzərində faktiki nəzarət qurub və gəmilərin keçidi üçün icazə sistemi planlaşdırıb. "JPMorgan Chase" analitikləri qeyd edirlər ki, gəmilərin Larak və Keşm adaları arasındakı marşrutdan keçməsi üçün siyasi razılaşmalara əsaslanan icazə prosesi başlayıb. Bu sistem neft treyderlərinə müəyyən ümid versə də, sığortaçılar və banklar üçün riskləri artırır.

Cornell Universitetində professor kimi fəaliyyət göstərən, beynəlxalq sanksiyalar, müasir müharibələr və iqtisadi siyasət mövzularında tədqiqatlar aparan Nikolas Mulder yazdığı məqalədə bildirir ki, iqtisadi müharibələrdə ABŞ-ın dominantlıq dövrü sona çatmaq üzrədir. Onun sözlərinə görə, İranın Fars körfəzində gəmiçiliyə qarşı təhdidləri ABŞ və İsrailə qarşı assimetrik cavab kimi qiymətləndirilir, lakin əslində Tehran ABŞ-ın uzun illər tətbiq etdiyi sanksiya siyasətini təkrarlayır. Strateji boğaz rəqibləri deeskalasiyaya məcbur etmək üçün iqtisadi silaha çevrilib.

Mulder qeyd edir ki, Donald Tramp administrasiyasının rəqiblərin iqtisadi alətlərlə cavab verməsi nəticəsində üzləşdiyi ilk hal bu deyil. D.Tramp hakimiyyətə qayıtdıqdan sonra həm müttəfiqlərə, həm də rəqiblərə yüksək tariflər tətbiq edib. Bəzi müttəfiqlər Vaşinqtonla münasibətləri qorumaq üçün razılaşmalar imzalayıb, amma Çin mövqeyini qoruyub və əks-hücum başladıb. 2025-ci ilin sonlarında ABŞ yeni ixrac məhdudiyyətləri tətbiq etdikdə, Pekin nadir torpaq elementlərinin ixracına nəzarəti sərtləşdirib.

"Soyuq müharibə"dən sonra ABŞ iqtisadi sanksiyalar sahəsində faktiki monopoliya sahibi olub, lakin bu vəziyyət artıq dəyişib. İran və Çin göstərir ki, ABŞ-ın dominantlıq dövrü sona çatır. Çinin kritik minerallar üzərindən tətbiq etdiyi təzyiq ABŞ-ın müdafiə, aerokosmik və avtomobil sənayesində istehsal gecikmələrinə səbəb olub.

Professor vurğulayır ki, ABŞ-ın Yaxın Şərqdə yeni müharibəyə başlaması əlavə risklər yaradır: "Maksimum təzyiq" sanksiyalarından açıq müharibəyə keçid Tehranın iqtisadi silahını işə salmasına gətirib çıxarıb. Hörmüz boğazı üzərindən dünya neft və qaz axınlarının 20 faizi, qlobal gübrə ticarətinin üçdəbiri keçir, boğazın bağlanması qlobal enerji bazarlarında qiymət artımına və qeyri-müəyyənliyə səbəb olub".

Dünyaca məşhur ABŞ-lı investor və iqtisadçı Ray Dalio mövzu ilə bağlı yazdığı məqalədə bir cümlə xüsusilə diqqət çəkib. O vurğulayıb ki, Hörmüz boğazı üzərində nəzarətin itirilməsi ABŞ üçün 1956-cı ildə Süveyş kanalının Böyük Britaniya üçün ifadə etdiyi mənaya bənzəyir.

Xatırladaq ki, Böyük Britaniya XIX və XX əsrin əvvəllərində uzun müddət dünya səhnəsində dominant güc olaraq tanınırdı. Sterlinq qlobal ticarətdə geniş istifadə olunurdu, Krallıq okeanlarda üstünlük quraraq ticarət yollarını qoruyurdu. Onun strateji güc mərkəzlərindən biri Süveyş kanalı idi. Kanalın nəzarəti dünya ticarətinin böyük hissəsinə təsir göstərirdi.

Lakin 1956-cı ildə Misir Prezidenti Camal Əbdül Nəsir Süveyş kanalını milliləşdirdi və Böyük Britaniya uzun illər qoruduğu strateji üstünlüyünü itirdi. ABŞ və Sovet İttifaqının təzyiqi nəticəsində İngiltərə və Fransa hərbi müdaxilədən geri çəkilməli oldular. Bu hadisə göstərdi ki, Böyük Britaniya artıq təkbaşına qlobal liderlik edə bilməz və onun dünya səhnəsindəki hegemon mövqeyi ciddi şəkildə zəiflədi.

Dalio qeyd edir ki, bu hadisə beynəlxalq sistemdə dönüş nöqtəsi oldu. Britaniyanın gücü artıq əvvəlki səviyyədə qiymətləndirilmədi. Sterlinqə etimad azaldı, müttəfiqlər uzaqlaşdı, müstəmləkələr müstəqillik qazandı və kapital ölkədən çıxmağa başladı.

Hörmüz boğazının strateji əhəmiyyəti bu gün analoji təsir göstərir. Marşrut uzun müddətlik bağlansa, neft qiymətləri kəskin artar, qlobal iqtisadiyyat zərbə alar, Avropada enerji böhranı dərinləşər, Asiyada istehsal zəncirləri pozular. Dalionun fikirləri onu deməyə əsas verir ki, böyük güclərin yüksəlişi və tənəzzülü oxşar sxem üzrə baş verir: nəzarət bərpa olunmasa etimad azalır, kapital axını yönünü dəyişir, müttəfiqlər mövqelərini yenidən qiymətləndirir və maliyyə böhranı baş verir.

Buna görə də Hörmüz boğazı və strateji enerji marşrutlarının taleyi ABŞ-ın qlobal mövqeyinə bir imtahan rolunu oynayır. Tarixin yenidən təkrarlanması mümkündür, amma hər dövr öz iqtisadi və geosiyasi kontekstindən asılı olaraq fərqlənir.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 61** **2 mart 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 880 (Cild I); 2024, № 4, maddə 468) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın 1-ci hissəsinin yeddinci abzasında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605, № 10, maddələr 967, 976, 982, № 11, maddə 1101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 dekabr tarixli 403 nömrəli və 2026-cı il 21 yanvar tarixli 21 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1.5-ci yarımbəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598, № 10, maddə 982) ilə təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın 2.1.3-cü yarımbəndində, 3.1-ci, 3.2-ci bəndlərində və 4.7-ci bəndinin birinci cümləsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I); 2024, № 4, maddə 454; 2025, № 6, maddə 598, № 10, maddə 982) ilə təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2.1-ci yarımbənddə "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

4.2. 9.3-cü bənddə "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

5. "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 199 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 65** **5 mart 2026-cı il, Bakı şəhəri**

**"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 215-VIIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 iyul tarixli 447 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; 2025, № 7, maddə 713, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 16 yanvar tarixli 18 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları" üzrə:

1.1. 2.3.1-ci yarımbəndə "ləğv edilməsi" sözlərindən sonra ", iflas prosesində olması" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 3.1.10-2-ci yarımbənd əlavə edilsin:

"3.1.10-2. qurumun iflas prosesində olması;";

1.3. 4.10-cu bəndə "LP) qurumun ləğvetmə prosesində olması barədə məlumat;" yarımbəndindən sonra "İP) qurumun iflas prosesində olması barədə məlumat;" yarımbəndi əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestr kitabı"nın və "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı"nın I hissələrinin 2-ci sütunlarında "LP)" yarımbəndindən sonra aşağıdakı məzmunda "İP)" yarımbəndi əlavə edilsin:

"İP) qurumun iflas prosesində olması barədə məlumat".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 63** **4 mart 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 590 (Cild I); 2025, № 9, maddə 879) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulada "2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi haqqında Əsasnamə"nin" sözləri "2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin" sözləri ilə əvəz edilsin.

2. 1-ci hissənin "Kollegiyanın üzvləri" bölməsinə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi" sözlərindən sonra "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Aparatının rəhbəri." sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 68** **6 mart 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild l); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasına "Fasiləsiz iş şəraitində işləyən müəssisələrin avtomobilləri," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin nəqliyyat vasitələri," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 64** **4 mart 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli və "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasının, qrant məbləğinin müəyyən edilməsi meyarlarının və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddinin təsdiq edilməsi haqqında" 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 27 dekabr tarixli 272 nömrəli və "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2025-ci il 4 avqust tarixli 463 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1558 (Cild 1) aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci hissə 1-ci hissə hesab olunsun və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası" üzrə:

1.2.1. 2.3-cü bəndə ikinci halda "qurumlarına" sözündən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin;

1.2.2. 5-ci hissə ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasının, qrant məbləğinin müəyyən edilməsi meyarlarının və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1348 (Cild I); 2024, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi Qaydası"nın 4.1.3-cü, 5.1.3-cü və 7.5.9-cu yarımbəndlərinə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 70** **6 mart 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-cı il 30 dekabr tarixli 572 nömrəli Fərmanının 4.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinə aşağıdakı məzmunda 39-1-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 39-1. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi | 4 | 4 | - | - |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 67** **6 mart 2026-cı il, Bakı şəhəri**

**"Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi təhlükəsi ilə əlaqədar həyata keçiriləcək profilaktika və təhlükəsizlik tədbirləri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi ilə əlaqədar yarana biləcək təhlükənin qarşısının alınması məqsədilə əhalinin mühafizəsi, habelə profilaktika və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 oktyabr tarixli 744 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Nüvə və digər kütləvi qırğın silahının mümkün tətbiqi təhlükəsi ilə əlaqədar həyata keçiriləcək profilaktika və təhlükəsizlik tədbirləri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 71** **6 mart 2026-cı il, Bakı şəhəri**

**"Gəncə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Gəncə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Seyran Səxavət – 80*

# Sözünün və özünün dəyərini uca tutan bir qələm

**Ədəbi-mədəni ictimaiyyət tanınmış yazıçı-dramaturq, şair-publisist və şərqşünas-tərcüməçi Seyran Səxavətin anadan olmasının 80 illik yubileyini sevgi-sayğı ilə qeyd edir. İstedadlı və məhsuldar yazarın 60 ildən artıq davam edən çoxşaxəli yaradıcılığı Azərbaycan bədii-sənədli ədəbiyyatına üslub yeniliyi, gerçəklik miqyası, mövzu genişliyi və məna dərinliyi gətirib.**



Seyran Səxavət 1946-cı il martın 23-də Füzuli rayonunun Yağlıvənd kəndində anadan olub. Həmin kəndin orta məktəbini və BDU-nun şərqşünaslıq fakültəsini bitirib. Bədii yaradıcılığa yeniyetməlik illərindən başlayıb. SSRİ Müdafiə Nazirliyində və İranda tərcüməçi, "Ədəbiyyat və incəsənət" qəzetində xüsusi müxbir, "Ulduz" jurnalında şöbə müdiri işləyib. Hazırda Azərbaycan Yazıçılar Birliyində çalışır.

Yubilyarın əsərləri xarici dillərdə çap olunub. Fars dilindən seçmə tərcümələrin müəllifidir. Pyesləri Milli Dram Teatrında və Lənkəran səhnəsində tamaşaya qoyulub. Nüfuzlu yaradıcılıq mükafatlarına layiq görülüb.

Ötən əsrin 60-70-ci illərindən başlayaraq yaşıdları Nüsrət Kəsəmənli, Vaqif İbrahim, Məmməd İsmayıl, Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı, Siyavuş Sərxanlı ilə eyni ədəbi taleni paylaşsa da, Seyran Səxavətin özü də, sözü də bənzərsizliyi ilə tanınıb, məşhurlaşıb.

Sevgi şeirləri ona daha çox populyarlıq qazandırıb. Sevgi şəfəqləri saçan misralar yanğısı və şirinliyi ilə gəncliyin qəlbində ümidli əks-səda yaradıb. Seyran müəllim 80 yaşın zirvəsinə həm də səmimi publisist, yetkin nasir və həyatı səhnəyə yaxınlaşdıran dramaturq, mahir tərcüməçi kimi yetişib.

Onunla geniş müsahibəmiz bütün bu deyilənlərə əyanilik gətirməklə zəngin və mənalı ömür yoluna da işıq saldı.

**– Seyran müəllim, söhbətimizə belə başlayaq: "Şair Seyran" kim idi – dövrün gənclərinin qəlbini fəth edən o gənc şair hansı duyğuların içində doğulmuşdu?**

– Mən 6 yaşımda məktəbə getdim – əslində, gərək 7 yaşım tamam olaydı. Amma, elə bil, içimdə bir tələskənlik vardı. Birinci sinifdən sonra çox keçmədi ki, ikinci, üçüncü sinifdə oxuya-oxuya şeirlər, kiçik hekayələr yazmağa başladım. Yazdığım kimi də, mürəkkəbi hələ qurumamış götürüb göndərirdim "Azərbaycan gəncləri" qəzetinə, "Azərbaycan" jurnalına.

Ordan gələn cavablar isə hamısı eyni olurdu: "Şeirləriniz bədii cəhətdən zəif olduğuna görə çap edə bilmədik". Açığı, o vaxt mən heç başa düşmürdüm ki, bu "bədii cəhət" nə deməkdir. Mən yazırdım, ürəyimdən keçəni deyirdim – bəs niyə zəif idi, onu anlamırdım.

O məktubların başqa bir tərəfi də vardı. Yağlıvənd kəndinə, mənim ünvanıma gələn o zərflər kənd camaatının diqqətini çəkirdi. Xüsusilə də üstündə iri hərflərlə "Yazıçılar İttifaqı" yazılan konvertlər... Camaat baxırdı ki, bu sarışın, balaca uşaq var ha, ona haralardan məktub gəlir! Mənə bir az qibtə ilə yanaşırdılar. O məktubların çölü başqalarını yandırırdı, içi isə məni...

Mən də, düzü, çox vaxt özümü bilməzliyə vururdum. Məktubun içində yazılanları açıb demirdim, elə kənd camaatı kimi özümü yekə aparırdım. Beləcə, Yağlıvəndlə Bakı arasında saysız-hesabsız məktublar gedib-gəldi, amma heç bir nəticə olmadı. Sonra üz tutdum rayon mərkəzinə – "Qızıl Araz" qəzetinin redaksiyasına. İki-üç il də oranın qapısını döydüm. Amma orada da eyni sözləri eşidirdim.

Mənə elə gəlirdi ki, bakıdakılarla bunlar bir-birinin ağzına baxır, eyni cümlələri təkrar edirlər. Sanki başqa söz bilmirdilər. Hər dəfə o sözləri eşidəndə necə sarsılırdımsa, üç-dörd gün heç nə yaza bilmirdim. Nəhayət, bir gün mənim də bəxtimə günəş doğdu. 1960-cı ildə, 14 yaşım olanda "Qızıl Araz" qəzeti mənim ilk şeirimi çap etdi. Altında da yazmışdılar: "Seyran Xanlarov, Yağlıvənd kənd orta məktəbinin 8-ci sinif şagirdi". O günü heç vaxt unuda bilmərəm. Mənim üçün təkcə bir şeirin çapı deyildi – o, bütün o illərin, o məktubların, o gözləntilərin cavabı idi.

**– Orta məktəbdən sonra ali təhsil, ədəbi mühit, mətbuat və tərcüməçilik… Geriyə baxanda bu uzun yol sizə daha çox nələri xatırladır?**

– Orta məktəbi qurtardım, 2 il istehsalatda işlədim. O illər mənim üçün başqa bir məktəb oldu – həyat məktəbi. Sonra daxil oldum Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə, fars dili mütərcimi ixtisasına. Tələbəlik illərində artıq yaradıcılığa ciddi yanaşmağa başladım.

Yazmaq mənim üçün, sadəcə, həvəs deyildi, bir növ, daxili ehtiyaca çevrilmişdi. Ara-sıra mərkəzi mətbuatda çap olunurdum. O vaxtlar Qasım Qasımzadə mənim haqqımda "Uğur olsun" adlı yazı yazdı və şeirlərimi "Azərbaycan gəncləri" qəzetində çap etdirdi. Bu, mənim üçün böyük yolun başlanğıcı oldu.

Radioda, televiziyada şeirlərimlə çıxış edirdim. Hələ tələbə ikən ilk kitabım – "Adalar" çap olundu. Artıq Yağlıvənd kənd orta məktəbinin o sarışın uşağı yox, respublikada tanınan Seyran Səxavət idim. Xüsusilə məhəbbət haqqında yazdıqlarım və o vaxtın dili ilə desək, "antipartiya" şeirlərim gənclər arasında əzbər deyilməyə başladı. Mən hiss edirdim ki, sözüm oxucuya çatır.

1970-ci ildə zabit kimi hərbi xidmətə yollandım. Frunzedə – indiki Bişkekdə oldum. O illərdə mətbuatdan yoxa çıxdım. Bu yoxluq hiss olunmuşdu. Böyük şairimiz Məmməd Araz "Ulduz" jurnalında yazmışdı ki, "Seyran Səxavət hanı, niyə ədəbiyyatdan qaçaq düşüb?". Əsgərlikdən qayıdandan sonra "Ədəbiyyat və incəsənət" qəzetində işləməyə başladım.

Bir il sonra, 1974-cü ildə tərcüməçi kimi İrana – İsfahan şəhərinə ezam olundum. O vaxt mən beş il idi ki, qələmə toxunmurdum. Düz 5 il heç nə yazmadım. Özüm də belə düşünürdüm: yaza bilməyəndə gərək yazmayasan.

Nəhayət, 1975-ci ildə İranda olanda, bu uzun fasilədən sonra "Hamı elə bilirdi ki..." adlı ilk hekayəmi yazdım. Bakıya göndərdim. Hekayə Üzeyir Hacıbəyova həsr olunmuş yubiley nömrəsində çap olundu və dərhal diqqət çəkdi. Əkrəm Əylisli, Ramiz Rövşən bu hekayəyə yüksək qiymət verdilər və mənə məktub da yazdılar. İndi arxivimdə də qalır, hətta məni Folknerlə müqayisə etdilər. O vaxt mən heç bilmirdim ki, Folkner kimdir… Sonralar sevimli yazıçım oldu.

**– Oxucuların şair kimi sevdiyi Seyran Səxavət necə nasir oldu? Həyatın zənginliyi, yaşanmış talelər bəlkə də şeirin çərçivələrinə sığmadı və sizi nəsrə gətirdi?**

– Mənə bu sualı çox verirlər: şeirlə tanınan Seyran Səxavət necə oldu nasirə çevrildi? Hətta Ramiz Rövşən bir dəfə çıxış edəndə dedi ki, "Ədəbiyyata təzə gələndə biz cavan şairlərin gözünü qorxudan Seyran Səxavət idi. Azərbaycan şairlərinin xoşbəxtliyindən, Azərbaycan nasirlərinin bədbəxtliyindən Seyran poeziyadan nəsrə keçdi". Amma işin içində həqiqət də var, zarafat da.

Düzünü deyim, mən bunu elə bir "çevrilmə" kimi qəbul etmirəm. Hara getsəm də, söz məni aparırdı. Şeirdə də, nəsrdə də eyni yükü daşıyırdım. Sadəcə, bir gün gördüm ki, söz məndən daha geniş meydan istəyir… Mənim üçün söz birdir – istər şeir olsun, istər nəsr. Sadəcə, onun ifadə forması dəyişir. Bəli, bir vaxt gördüm ki, içimdə yığılanlar şeirin çərçivəsinə sığmır. Şeir daha çox sıxılmış fikirdir, yığcamdır, bir növ partlayış kimidir. Amma həyat… həyat o qədər geniş, o qədər çoxqatlıdır ki, onu bəzən bir neçə misraya yerləşdirmək olmur.

Mənim gördüklərim, yaşadıqlarım, insanların taleləri, kəndin, şəhərin, zamanın özü – bunlar artıq başqa bir nəfəs istəyirdi. O nəfəsi mən nəsrdə tapdım. Amma şeiri də içimdən çıxarmadım. Bu yaxınlarda "525-ci qəzet" bir səhifə şeirlərimi vermişdi. Mənim nəsrimdə də şeir var – ritm var, ahəng var, sözə münasibət var. Ona görə deyərdim ki, mən şeirdən nəsrə keçmədim. Sadəcə, söz məni harada daha rahat danışdırdısa, mən də ora getdim.

**– Deyəsən, bu barədə müsahibələrinizin birində də danışmışdınız, hətta bir nəsr əsərinizdən sitat da gətirmişdiniz.**

– Bəli, elə məqamlar olub. Bir tədbirdə kimsə dedi ki, mənim nəsrim də şeir kimidir. Mən də fikirləşdim ki, doğrudan da, elədir. Çünki mən sözə heç vaxt sərhəd qoymamışam – şeir deyəndə də, nəsr deyəndə də, mənim üçün əsas olan onun nəfəsidir. Mənim yaddaşım da qəribədir – Allah vergisidir. Elə bil yazdıqlarım məndən çıxmır, içimdə qalır. Bəzən özüm də təəccüblənirəm ki, necə olur, illər keçsə də, yazdıqlarımı az qala əzbər bilirəm.

Siz nəsrdən danışırsınız, mən də bir nümunə deyim. "Nekroloq" romanımın ilk abzası belədir: "Aralıdan baxanda Yer kürəsi çürük toxuma oxşayırdı, yaxından baxanda isə oxşamırdı – eləcə çürük idi". İndi deyin, bu şeirdir, ya deyil? Məncə, məsələ bunda deyil. Söz yerini tapanda, cümlə nəfəs alanda, fikir insanın içindən keçib gələndə – o artıq janr tanımır. İstəsən şeir de, istəsən nəsr. Əgər oxucunun içində nəsə tərpədə bilirsə, deməli, söz öz işini görüb.

**– Yəqin buna görədir ki, Seyran Səxavətin əsərləri həmişə oxunaqlığı ilə seçilib. "Daş evlər", "Qızıl teşt", "Nekroloq" və digər əsərlər ədəbiyyat tarixində öz layiqli yerini qoruyub saxlayacaqdır. Yaxud başqa cür deyim: müasir Azərbaycan nəsrində sizin özünəməxsus bir ədəbi "məkanınız", bədii dünyanız formalaşıb. Bunun bir sirri varmı?**

– Mən yazmağın nə olduğunu sonralar başa düşdüm. Uşaqlıq, gənclik vaxtı yazanda mən bunları yəqin ki, duymamışam. Əksini desəm də, sizi aldatmış olaram. İndi başa düşürəm ki, mənim üçün yazmaq nədi. Uşaq vaxtı arzulayırdım ki, velosipedim olsun. O velosiped alınana qədər mən çox narahat idim. Elə bilirdim, içimdə böyük bir yük var. Elə bilirdim ki, arzum köçüb yurdu qalıb. Əlbəttə, mən bunu indiki ağlımla deyirəm.

Amma nəhayət, uzun mübarizələrdən, çəkişmələrdən sonra mənə velosiped aldılar. Ondan sonra rahat oldum. Bax yazmağı da o hissə bənzədirəm. Necə ki, velosiped alandan sonra rahat oldum, hər bir yazını yazandan sonra da o rahatlığı hiss edirəm. Mənim üçün yazmaq, sadəcə, cümlə qurmaq deyil.

Mən sözə söykənirəm – onun gücünə, qüdrətinə. Bəzən elə olur ki, bir rəssamın çəkə bilmədiyi mənzərəni sözlə qururam, oxucunun gözünün qabağına gətirirəm. Oxucu da istəmədən o mətnin içində qalır, sanki ondan çıxa bilmir.

Mənim yazdıqlarımda Azərbaycan dilinin zənginliyi var – onun musiqisi, səsi, hətta ətri var. Mən dili, sadəcə, vasitə kimi yox, canlı bir varlıq kimi görürəm. Onu qorumaq, yaşatmaq, yerində işlətmək mənim üçün borcdur. Düzünü desəm, mən özümə təkcə yazıçı kimi baxmıram. Mən bir az da sözün rəssamıyam, bir az onun bələdçisi, bir az da keşikçisiyəm. Hətta deyərdim ki, sözün sahibiyəm – ona görə yox ki, söz mənə məxsusdur, ona görə ki, mən ona sahib çıxıram.

Əgər hansısa ciddi qələm adamı sözü yerində işlətmirsə, cümlənin xətrinə dəyirsə, qoy bilsin ki, mən bunu hiss edirəm. Mənim üçün sözün haqqı var – onu qorumaq lazımdır.

**– Yaradıcılıq yolunuz sonralar sizi dramaturgiyaya gətirdi. Səhnəyə üz tutmağınızın arxasında hansı daxili ehtiyac və ya yaradıcılıq çağırışı dayanırdı?**

– Etiraf edim ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnələşdirilən "Qızıl teşt" mənim yaradıcılığımda, eləcə də Azərbaycan teatrının tarixində xüsusi bir mərhələ oldu. Bu əsəri 1986-cı ildə yazdım. Bir il sonra çap olundu. 1988-ci ildə teatrın repertuarının müzakirəsi gedirmiş. Orada bizim çılğın şairimiz Tofiq Bayram da iştirak edirmiş. O, repertuarı ciddi şəkildə tənqid edib. Teatrın ovaxtkı rəhbəri Həsən Turabov da deyib ki, "ay Tofiq, biz aktyoruq, siz nə gətirirsinizsə, onu, oynayırıq, bəs hansı əsəri təklif edirsiniz?" Tofiq Bayram da mənim "Qızıl teşt"imi təklif edib.

Düzü, mən xasiyyətcə mülayim adamam, hamı ilə yola gedənəm. Məndən çək-çevir yaradan olmaz. Həmişə çalışmışam ki, yola gedim, məni də yola versinlər. Amma dramaturgiya başqa şeydir – dramaturgiya konflikt deməkdir.

Bir gün Həsən Turabov məni çağırdı. Orada o vaxt gənc rejissor olan Bəhrəm Osmanov da var idi. Məni inandırdılar ki, bu əsəri pyesə çevirə bilərəm. Mən də oradan çıxıb getdim bağa və cəmi 15 günə "Qızıl teşt"i pyes kimi yazdım. O vaxt tamaşa haqqında çox yazdılar. Əsərdə kommunist rejiminə qarşı fikirlər vardı. Hətta Moskva mətbuatında da iki jurnalist məni müdafiə edirdi. Əsər yuxarılara o qədər də sərf etmirdi. Tamaşa səhnəyə qoyulana qədər məni, az qala, hər gün Mərkəzi Komitəyə çağırırdılar ki, buranı kəs, oranı dəyiş.

Mən də axırda dedim ki, əgər bu qədər müdaxilə olacaqsa, onda əsəri repertuardan çıxarın – heç nə dəyişməyəcək. Düzdür, sonradan bu əsərdən siyasi məqsədlər üçün istifadə edənlər də tapıldı. Amma mənim niyyətim başqa idi. "Qızıl teşt" əslində o rejimə – sonradan Xocalı soyqırımını, 20 Yanvar hadisələrini doğuran sistemə qarşı yazılmış bir etiraz idi.

**– Qarabağ mövzusuna qayıdaq. İllər əvvəl həm özünüzə, həm də ərkiniz keçən dostlara Qarabağ haqqında yazmağı niyə qadağan etdiniz?**

– Demişdim ki, Qarabağ işğaldan azad olunana qədər mən kişilikdən danışmağa istefa vermişəm. Bu, sadəcə, söz deyildi, mənim içimdəki ağrının, etirazın ifadəsi idi. Hətta yaxın dostlarıma da demişdim ki, Qarabağ haqqında yazmayın. Onlar əvvəl təəccübləndilər də. Amma mən başqa cür düşünürdüm. Mənə elə gəlirdi ki, o dərdin ən doğru çarəsini səngərdə olan adam verməlidir, qərar verən adam deməlidir.

Deyirdim ki, Qarabağ haqqında ən böyük əsəri Ali Baş Komandan yazmalıdır, ən gözəl romanı Müdafiə Nazirliyindən gözləyirəm – yəni Qarabağı geri qaytarılmasının məsuliyyətini daşıyanlar. Zaman keçdi və mən gördüm ki, o əsər, doğrudan da, yazıldı. Amma kağızda yox – torpağın üstündə, tarixdə, qanın və qürurun içində yazıldı.

**– Əsərlərinizin ekran dili ilə danışması – kino və ya televiziyada səslənməsi barədə düşünmüsünüzmü?**

– Mənim əsərlərimdən beş-altısı ekranlaşdırılıb. Düzünü desəm, hamısının adını indi bir-bir xatırlamıram, amma yadımda qalanlar var – "Paravozsürən", "Gün ağladılar", "Bir kisə kartof"... Amma burda bir söz deməsəm, ürəyimdə qalar. Bizim kino da, dilimiz kimi reanimasiyadadır. Hərəsi bir palatada yatır. Bu, mənim gəldiyim acı nəticədir.

İndi baxırsan ki, bir az texnikanı bilən hər yazıçı ssenari yaza bilir. Amma ssenari yazanların çoxu yazıçı ola bilmir. Fərq də burdan başlayır. Ədəbiyyata söykənməyən kino mənim üçün bic uşaq kimidir – kökü yoxdur, yaddaşı yoxdur. Belə kino böyüsə də, adam olmur. Ona görə də son otuz ildə çəkilən filmlərin çoxuna baxanda adam çaşır – nə demək istəyirlər, kimə deyirlər, niyə deyirlər... Sanki söz də yoxdur, nəfəs də yoxdur. Elə-belə, çəkilib... və unudulub.

**– Dil məsələsindən danışdınız. Dilin çızdağını çıxaranlara həmişə barışmaz olmusunuz...**

– Səmimi deyim, mən bu məsələyə çox ağrıyla baxıram. 44 günlük savaşda dövlət başçısı təkcə bir düşmənlə yox, bütün dünya ilə üz-üzə qaldı. Bu gün də dil uğrunda vuruşur. Bu qədər dilçi, bu qədər söz adamı var, bəs haradadır onların səsi? Təşkilatlar var, adlarını saysan, bitməz. Amma işə gələndə hamı kənarda dayanır, sanki prezident deməlidir ki, sonra hərəkətə gəlsinlər...

Çox yüksək tribunadan deyilir ki, dili daxili imkanlar hesabına zənginləşdirməliyik. Elə danışırlar ki, guya dil kolxozdur – daxili imkanlarla plan doldurmaq lazımdır. Amma bir həqiqət də var: dilin yiyəsi xalqdır. Onu yaşadan da xalqdır, öldürən də.

Mən həmişə demişəm – cümlə qurmaq dövlət qurmaq kimi çətindir. Söz yerində olmayanda fikir dağılır, dövlət də elə. Mənim yaddaşımda minlərlə – 30 min belə "səhv" var – dilə basdırılmış mina kimi. Harada partlayacağı bilinmir. Bu gün dilin ən böyük zərbəni aldığı yer televiziya məkanlarıdır. Açıq deyim, bəlkə də 95 faiz problem oradan gəlir. Qalanı mətbuatın, sosial şəbəkələrin payıdır.

Yolunu da demişəm: dili qorumaq üçün hamı öz yerində məsuliyyət daşımalıdır. Bu iş tək bir adamın işi deyil. Xalqın ən böyük silahı dildir. Gözləmək yox… sahib çıxmaq vaxtıdır.

**– Sizi çox vaxt ədəbiyyatda "altmışıncılar" nəsli ilə əlaqələndirirlər. Yaradıcılığınız bu nəslin hansı cəhətləri ilə səsləşir, hansı məqamlarda isə onlardan ayrılır?**

– Düzünü deyim, mən ədəbiyyatı illərə, onilliklərə bölənlərdən deyiləm. Mənim üçün ədəbiyyat təqvimlə ölçülmür. Ədəbiyyatda tarix yox, əsər var. Bu gün də yazılır, dünən də yazılıb. Amma hamısı ədəbiyyat deyil. Əsər varsa – o yaşayır, yoxdursa, istədiyin qədər tarix yaz, xeyri yoxdur.

Əsəri rəqəmlə ölçmək olmaz. Onu ya hiss edirsən, ya da yox. Ədəbiyyat mənim üçün statistika yox, nəfəsdir. Nəfəsi olmayan mətnin isə yaşı da olmur.

**– "Nekroloq" romanınızı Yazıçılar Birliyinin ilin ən yaxşı romanı kimi qiymətləndirməsi sizə hansı impulsları verdi?**

– Mən "Nekroloq"u yazanda bir kəndi yox, dünyanı yazmaq istəyirdim. Çünki sosial bərabərsizlik, insanların bir-birindən uçurum kimi fərqlənən həyatı, müharibələr – bunlar tək bir yerin dərdi deyil. Bu, insanlığın dərdidir. Müharibə isə bu dərdi daha çılpaq göstərir. Mən gördüm ki, bir kənddə ayağı yer tutan bircə başıpapaqlı qalıb – o da çolaq bədən tərbiyəsi müəllimi. O uşaqları hər gün kəndin yollarında o baş-bu başa yeridir ki, yollar itməsin, cığırlar bağlanmasın, kənd xəritədən silinməsin. Amma içində başqa bir ağrı var – kənddə kişi qalmayıb. Sabah bir adam ölsə, onu da qadınlar basdıracaq.

Bax, faciə budur. Milli dərd də elə burdan başlayır. Mən o kəndi yazanda əslində bir kəndi yox, bütün dünyanı yazırdım. Bu ağrı təkcə bizim deyil – bu, insanlığın içindən keçən ağrıdır.

Amma "Nekroloq" Azərbaycan Yazıçılar Birliyinin Yusif Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatını alanda, açığı, içimdə qəribə bir hiss vardı. Sevinc də idi, amma təkcə sevinc deyildi. Getdim Yusif müəllimin qəbrini ziyarət elədim. Dayandım qarşısında, sağ adamla danışırmış kimi halallıq istədim. Mənim üçün bu mükafatdan da vacib olan o halallıq idi. Elə bil, o da özünə xas aristokrat sakitliyi ilə dedi: "Halaldır... Mən Anara demişdim, bu mükafatı sən almalısan". Mən də içimdə bir rahatlıq tapdım. Ruhu şad olsun.

**– Bugünkü gənc yazarlara və oxuculara, xüsusilə yeni ədəbi nəsilə nə demək istərdiniz?**

– Mən onları çox istəyirəm. Ona görə də onları həmişə müdafiə etmişəm. Amma bir həqiqəti deyim: bizim ədəbiyyatda çox güclü söz xanımları yetişib. Məsələn, Tərənə Turan. Elmlər doktorudur, amma elmi ilə yox, sözün ağrısı ilə danışır. Deyir: "Mən elə susdum ki, daş bilib divara hördülər məni" – bax, bu susqunluğun içindən qopan səsdir.

Arzu Nehrəmli var – bir misra ilə adamı silkələyir: "Bir gecəlik yuxu kimi, görməmiş yozmuşam səni..." Bir də Ülkər Nicatlı... Sevgi haqqında deyir ki, "Sənin ürəyində doğan misranın, mənim ürəyimdə qafiyəsi var". Bu, artıq sözün içində yaşayan adamın misrasıdır. Ağrıdan yazanda da saxtalaşmır: "Tufanlar içində boğulan qayıq, uzaqdan əl edən ölüm kimidir..." – belə misraları görüb keçmək olmur, adam "bəh-bəh" deməyə məcbur qalır.

Yaxud Qulu Ağsəs – analoqu yoxdur. Öz səsi var, öz nəfəsi var. Niyə biz deməyək bunu? Niyə gərək başqası desin ki, biz də tanıyaq? Təranə Vahid var – mən də nasirəm, amma açıq deyirəm, bu qız tamam başqa yerdə dayanır. Demirəm hamıdan böyükdür, amma onun yazdığı kimi yazan yoxdur. Nəsrdə də elə cümlə qurur ki, adi söz birdən-birə dirilir: "Kəndin yuxarı başında Ağahəsən kişi asqıranda bu biri başında Məmmədhəsən kişi deyirdi ki, öz başını yesin..." – bax, bu, sadə cümlə deyil, bu, həyatın özüdür.

Bir də Əfşan Yusifqızı və başqaları... Mən bunları oxuyuram. Soruşa bilərsiz ki, vaxtı haradan tapırsan? Deyirəm, söz adamı vaxt tapmır, vaxt yaradır. Bəzilərini bir dəfə oxuyuram kifayət edir. Bəziləri var – dönədönə oxuyursan, çünki o söz səni buraxmır…

**– Bir daha əmin olduq ki, hamı ilə yolagedən adam, çox maraqlı həmsöhbətsiniz. Söz sözü çəkir, sualdan sual doğur. Ardını saxlayaq 90-a. Hələlik isə 80 illik yubileyinizi təbrik edir, yeni əsərlərinizi gözləyirik.**

*Namiq QƏDİMOĞLU,*
*Əməkdar jurnalist, fəlsəfə doktoru*
*XQ*

---

# Araz üstündən körpü salan muğam ustası

## *Təbrizin küçələri dolanbadolan...*

**Azərbaycan Milli Konservatoriyasının muğam müəllimi, xanəndə və Əməkdar müəllim Qəzənfər Abbasov tanınmış muğam ustadlarındandır. Bir müddət əvvəl Qəzənfər müəllim "Muğam müsabiqəsi – 2007"nin qaliblərindən biri olan təbrizli məşhur xanəndə Nasir Ətapurun dəvəti ilə Cənubi Azərbaycanın müxtəlif şəhərlərində ustad dərsləri keçdi.**

Təbrizə səfərindən danışan Qəzənfər Abbasov uzun müddətdir İran xanəndələrini muğam müsabiqələrinə hazırladığını, onlarla ustad dərsləri keçdiyini və məsləhətləşdiyini dedi:

– Mən tez-tez Tehrana, Təbrizə və Cənubi Azərbaycanın digər şəhərlərinə səfər edirəm. 2012-ci ildən bəri sərhədin o tayındakı gənc Azərbaycan xanəndələri ilə işləyirəm. Ustad dərsləri klassik Azərbaycan muğamının öyrədilməsinə və qorunub saxlanılmasına yönəlib.

Xanəndə Nasir Ətapur Azərbaycan Milli Konservatoriyasında Xalq artisti Arif Babayevin, həmçinin mənim sinfimdə təhsil alıb. O, həm Cənubi, həm də Şimali Azərbaycanda əruz, klassik Azərbaycan və Şərq poeziyası haqqında parlaq biliyə malik xanəndədir. Bütün muğamları, rəngləri, təsnif və dəstgahları mənimsəyib. Bundan əlavə, Nasir gözəl qəzəllər yazan şair, bacarıqlı xəttat və Azərbaycan muğamının sirlərini və incəliklərini tələbələri ilə səxavətlə bölüşən müdrik müəllimdir. O, özünü daim inkişaf etdirir, konsertlərdə fəal iştirak edir, pedaqoji və ictimai fəaliyyətlərlə məşğul olur.

Bakıda keçirilən muğam müsabiqəsində qalib gəldikdən sonra Nasir Ətapur Təbrizdə muğam məktəbi təsis etdi. Tələbələri bu qədim milli mədəniyyət incisinin dərinliklərini və fəlsəfəsini öyrənir, festival və müsabiqələrdə iştirak edirlər.

Nasir Ətapurun muğam məktəbi ilkdir. Burada muğam, milli Azərbaycan musiqisi və milli alətlər üzrə akademik təhsil verilir. Bakıda muğam müsabiqəsində iştirak edən iranlı tələbələr vətənə qayıtdıqdan sonra Cənubi Azərbaycanın müxtəlif şəhərlərində muğam məktəbləri və ya sinifləri açaraq əldə etdikləri bilikləri həmvətənlərinə ötürürlər. Bununla da onlar xalq arasında Azərbaycan muğamını təbliğ edirlər.

Əbdülhəsənxan İqbal Azər Sultanın rəhbərlik etdiyi Təbriz Muğam Məktəbi korifey Seyid Şuşinskini yetişdirib. Şuşinskinin yaratdığı muğam tədris planı bu gün də Şimali və Cənubi Azərbaycanda musiqi və muğam məktəblərində, eləcə də Milli Konservatoriyada istifadə olunur. Böyük Üzeyir bəy 1925-ci ildə "Azərbaycan xalq musiqisinin əsasları" adlı möhtəşəm əsərini yazdıqdan sonra muğamımız elmi cəhətdən sistemləşdirilib, elmi və fundamental formatda tədris olunur. Hazırda bütün yeni proqramlar Seyid Şuşinskinin proqramına əsaslanır.

Dərslərdə əsasən Nasir Ətapur məktəbinin tələbələri iştirak edirdi, lakin Azərbaycan şəhərlərindən – Sərab, Ərdəbil, Zəncan və digərlərindən də iştirakçılar var idi. Onların müstəsna hazırlığını, gözəl səslərini, muğam və klassik poeziya haqqında dərin biliklərini qeyd etməliyəm. Mən təklif etdim ki, Nasir Ətapur muğam məktəbi tələbə-müəllim mübadiləsini, məqalələri, tədqiqat işləri və dissertasiyaları asanlaşdırmaq üçün Milli Konservatoriyamızla əməkdaşlıq etsin. Əlbəttə ki, bu məsələ dövlət səviyyəsində həll edilməli və Azərbaycan muğamının daha əhatəli və elmi cəhətdən vahid inkişafına və təbliğinə nail olunmalıdır.

Qəzənfər müəllim Təbriz və Urmiyada Nasir Ətapurun tələbəsi, muğam müsabiqəsinin iştirakçısı Əli Rəşidinin iştirakı ilə keçirilən konsertlər haqqında böyük ilham və sevgi ilə danışdı:

– Konsertlər yüksək səviyyədə keçirildi və gözlənilmədən Nasir müəllim ustadını səhnəyə dəvət etdi. Tamaşaçılar məni ayaq üstə alqışladılar, onların muğam sevgisi inanılmaz dərəcədə idi. Nasir Ətapurun iştirakı ilə Təbriz və Cənubi Azərbaycan şairlərinin poeziya gecəsi də təşkil edildi. Cənubi Azərbaycanın bir çox şəhərində ustad dərsləri keçmişəm və təşəkkürnamələr almışam. Bu, İran–Azərbaycan gənclərinin muğam və xalq mahnılarını öyrənməyə böyük marağını göstərir.

Nasir Ətapur istisna olmaqla Bakıda keçirilən müsabiqədə Cənubi Azərbaycandan gələn güclü müğənni iştirak etməyib. Onlar həm nəzəri, həm də vokal baxımından geri qaldıqları üçün ən yüksək mükafatları qazana bilmədilər. Budəfəki müsabiqənin iştirakçısı olan Əli Rəşidi sona doğru çıxışını bir qədər yaxşılaşdırdı,



daha təsirli ifa təqdim etdi və yüksək bal qazandı. Lakin müsabiqənin şərtləri dəyişdirildi və qaliblərə yalnız 3 yer verildi. Amma yerlər də ədalətli şəkildə bölünmədi, qaydalara görə, qaliblər ümumi xallara əsasən müəyyən edilməli idi, lakin hakimlər qalibləri şəxsi mülahizələrinə görə seçdilər. Lakin Nasir Ətapurdan sonra ən hazırlıqlı və istedadlı olan Əli Rəşidi idi ki, o, ümumi xallara əsasən ikinci yerə iddiaçı idi.

Fürsətdən istifadə edərək Təbriz, Urmiya, Zəncan, Meşkin, Sərab və Cənubi Azərbaycanın digər şəhərlərindəki bütün dostlarıma və tələbələrimə, xüsusən də Nasir Ətapura səmimi salamlarımı və ən xoş arzularımı çatdırıram.

*Afət İSLAM*

*31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür*

# Daşnak cəlladların Novruz xəyanəti

*108 il əvvəl erməni quldurları xalqımıza qarşı dəhşətli zorakılıqlar törədiblər*

**Azərbaycan xalqı şanlı, şərəfli tarixi yol keçib. Təəssüf ki, millətimizin taleyinə bir çox ağır faciələr və soyqırımları da yaşamaq nəsib olub. 1918-ci ilin mart soyqırımları zamanı xalqımız xüsusilə ağır zorakılıqlarla üzləşib. Qaniçənlərin ideoloqları şovinist Şaumyan və onun "bolşevik silahdaşları", qətliamların icraçıları başkəsən daşnak quldurları olublar.**




Qeyd etmək lazımdır ki, 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə bəşər tarixinin ən qanlı faciələrdən biridir. Belə ki, erməni cəlladları o günlərdə etnik zəmində uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetiriblər. On minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış millətinə mənsub insanlar süngüdən keçirilib, diri-diri yandırılıb.

Sovet hökuməti 70 il ərzində bu qanlı cinayətləri ört-basdır etməyə çalışsa da, əsl həqiqəti xalqdan gizlətmək mümkün olmayıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yaranıb. Uzun illər gizli saxlanılan acı həqiqətlər üzə çıxarılaraq beynəlxalq ictimaiyyətə çatdırılıb.

Ulu öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərman imzalayıb. Bu mühüm sənəd soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi istiqamətində araşdırma səylərinin artırılmasına təkan verib. Beləliklə, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

**Bakı Dövlət Universitetinin professoru Atamoğlan Məmmədli** bizimlə söhbət zamanı dedi ki, azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilib. O ağır günlərdə daşnakların törətdikləri ağlasığmaz zorakılıqlar bu günün özündə də qəddarlığı ilə bəşəriyyəti dəhşətə gətirir.

BDU-nun professoru, həmçinin bildirdi ki, 1918-ci ilin mart qırğınlarının baş verdiyi dövrdə Bakı Sovetində hakimiyyət qatı şovinist Stepan Şaumyanın əlində idi. Məhz bu bolşevik cəlladının təşəbbüsü və göstərişi ilə silahlı cinayətkar dəstələr müsəlmanların qanına susamış erməni daşnakları ilə birlikdə Bakı əhalisinə qarşı kütləvi qətliamlar törədiblər.

Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər". Erməni qaniçənləri o qədər quduzlaşmışdılar ki, onların amansız hücumlarından sığınmağa çalışan 2 min nəfərin yerləşdiyi şəhər xəstəxanası yandırılmış, gənc qadınlar diri-diri divara mıxlanmışdılar.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı alim Leonard Ramsden Hartvillin qələmə aldığı "İnsanlar belə imişlər" adlı kitabda göstərilir ki, ermənilərin təkcə Bakıda mart qırğınları zamanı 25 min azərbaycanlını vəhşicəsinə öldürmüşlər.

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və ya uçurulmuşdur. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadın, uşaq və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək qətlə yetirilmişdir.

Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3 min 257 kişi, 2 min 276 qadın və 2 min 196 uşağı öldürmüşdülər. Bütövlükdə, bu qəza üzrə 10 min 68 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50 min azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı soyqırıma məruz qalmış, kəndlər isə yerlə-yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir.

...2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən 1918-ci ilin may ayında erməni quldur dəstələri tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutuna çevrilən kütləvi məzarlıq aşkar edilmişdir. Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılması haqqında sərəncam imzalayıb.

2013-cü il sentyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Quba Soyqırımı Memorial Kompleksinin açılışını ediblər. Dövlətimizin başçısı mərasimdə demişdir: "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir".

Memorial Kompleks 2012-2013-cü illərdə Quba şəhərində Qudyalçayın sol sahilində, keçmiş stadion ərazisində inşa edilmiş və 2013-cü il sentyabrın 18-də açılmışdır. Kompleksin ümumi sahəsi 3,5 hektardır və 5 hissədən ibarətdir. Memorial Kompleksi on minlərlə insan ziyarət etmişdir. İndiyədək Quba Soyqırımı Memorial Kompleksini 60-dan çox ölkədən gələn turist və nümayəndə heyətləri ziyarət edib. Ziyarətçilər arasında ölkə vətəndaşları ilə yanaşı, xarici vətəndaşlar da çoxdur.

Qeyd etmək lazımdır ki, Qubada daşnak-erməni işğalçılarına qarşı döyüşlərdə yerli vətəndaşlar Qafqaz-İslam Ordusu ilə birgə vuruşaraq ciddi müqavimət göstəriblər. **Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov** dedi ki, o ağır günlərdə yerli sakinlərlə bərabər, qardaş türk əsgərləri də qəhrəmancasına həlak olublar. Hazırda Qubanın İqriq kəndində 2, Susay kəndində 1 naməlum türk əsgərinin məzarı var. Onların abidəsi həmişə sakinlər və rayona gələn turistlər tərəfindən ziyarət olunur.

İldırım Məmmədov sonra dedi ki, 1918-ci ildə bolşevik-daşnak quldur dəstələrinin xalqımıza qarşı törətdiyi ağır zorakılıqları heç vaxt unutmaq olmaz. Bu, bir həqiqətdir ki, tarix ondan ibrət dərsi çıxarmayanları daha ağır sınaqlarla qarşılaşdırır. Azərbaycan xalqı amansız mart qırğınları qurbanlarının əziz xatirəsini daim yad edərək bu qanlı cinayəti törədənləri qətiyyətlə lənətləyir.

Bu gün müstəqil Azərbaycanın hər bir vətəndaşının, bütün ziyalılarımızın qarşısında duran əsas vəzifələrindən biri 1918-ci ilin Mart qırğınları zamanı şovinist erməni millətçilərinin, onların cinayətkar dəstələrinin xalqımızın başına gətirdiyi müsibətləri dünya ictimaiyyətinin nəzərinə çatdırmaqdır. Dünya məkrli və qəddar erməni xislətindən xəbərdar olmalıdır ki, bəşəriyyət əleyhinə yönəldilmiş belə ağır cinayətlər bir daha təkrarlanmasın.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Qərbi Azərbaycana qayıdış uzaqda deyil



**Qərbi Azərbaycandan deportasiya olunmuş insanların hüquqlarının qorunması və onların doğma ata-baba yurdlarına qayıdışı məsələsinə uzun illər ərzində laqeyd yanaşılması diqqətçəkən məqamlardan biridir. Halbuki tarixi reallıq ondan ibarətdir ki, həmin ərazilərdə əsrlər boyu azərbaycanlılar yaşamış, zəngin maddi və mənəvi irs formalaşdırmışlar.**

Ağır və keşməkeşli taleyin canlı şahidlərindən biri – 5 fevral 1949-cu ildə Qərbi Azərbaycanın Əştərək rayonunun Cadqıran kəndində dünyaya gəlmiş **Mehtiyev Həmid Musa oğlu** yaşadıqları faciəni dərin kədər hissi ilə xatırlayır. Onun sözlərinə görə, valideynləri, qohumları və həmkəndliləri heç bir əsas göstərilmədən doğma torpaqlarından köçürülmüşdür.

Cadqıran kəndi İrəvan şəhərindən, təxminən, 10 kilometr məsafədə yerləşirdi. Kənd Axta, Gümüş və Zəngibasar rayonları ilə yanaşı, İrəvan ərazisindən keçərək axan, nəğməli səsi ilə yaddaqalan Zəngi çayının yaxınlığında salınmışdı. Sonralar bu çayın adı dəyişdirilərək Razdan adlandırılmışdır. Ərazinin relyefi əsasən dağətəyi zonadan ibarət idi, saf və sərin bulaqları, münbit torpaqları, əlverişli iqlimi burada kənd təsərrüfatının, xüsusilə meyvəçilik və tərəvəzçiliyin inkişafına geniş imkan yaradırdı. Eyni zamanda, heyvandarlıq üçün də əlverişli şərait mövcud idi.

Kəndin aşağı hissəsində yerləşən səfalı Ərzini sanatoriyası, eləcə də Damcılı və Zağalı kimi bulaqlar bölgənin içməli su təminatında mühüm rol oynayırdı. Qədim Ayvazalı qəbiristanlığı isə bu torpaqların tarixən azərbaycanlılara məxsus olduğunu təsdiqləyən mühüm maddi sübutlardan biridir.

Həmid Mehtiyev bildirir ki, 1947–1950-ci illərdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində onların ailəsi də zorla köçürülənlər sırasında olub. 1898-ci il təvəllüdlü nənəsi Şərəbanı xanımın sözlərini xatırlayan müsahibim qeyd edir ki, insanlar tələsik şəkildə yük vaqonlarına mindirilərək "Azərbaycana aparılırsınız" deyə aldadılmışdılar. Günlərlə davam edən ağır yol şəraitində insanlar böyük əzab-əziyyət çəkmiş, bu çətinliklərə tab gətirməyənlər həyatını itirmiş, onların taleyi ilə maraqlanan isə olmamışdır.

Kür-Araz ovalığında məskunlaşmaq təklif edilsə də, sərin iqlimə alışmış insanların isti və əlverişsiz şəraitə uyğunlaşması son dərəcə çətin olmuşdur. Bu səbəbdən ailə sonradan Tərtər rayonuna köçmək məcburiyyətində qalmışdır. Müsahibim qeyd edir ki, valideynləri ömürlərinin sonunadək vətən həsrəti ilə yaşamışlar. Onun Zəngibasar rayonunda qalan qohumları isə 1988-ci ildə kütləvi şəkildə deportasiyaya məruz qalmışdır. Nəticədə, Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Həmid Mehtiyev əmindir ki, Qərbi azərbaycanlılar gec-tez öz doğma torpaqlarına qayıdacaqlar. Bu qayıdış yüz minlərlə insanın hüquqlarının bərpası və beynəlxalq hüququn tələblərinin təmin olunması baxımından ədalətli həll kimi qiymətləndirilir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, azərbaycanlıların Ermənistana qayıdışı heç kimdə narahatlıq doğurmamalıdır və bu proses gec-tez reallığa çevriləcəkdir.

Digər müsahibim – əslən Qərbi Azərbaycanın Vedi rayonunun Kolanı kəndindən olan **Məmmədov Faiq Mərdan oğlu** 1957-ci ildə Tərtər rayonunun İrəvanlı kəndində anadan olmuşdur. Qeyd edək ki, bu kəndin sakinlərinin böyük əksəriyyəti Qərbi Azərbaycandan deportasiya edilmiş ailələrdən ibarətdir.

Onun valideynləri Vedi rayonunun Kolanı kəndindən köçürülmüşlər. Rayon mərkəzindən uzaqda yerləşən bu kənd zəngin təbii bulaqları ilə seçilirdi. Azərbaycanlılara məxsus ərik, üzüm, fındıq və qoz bağlarında yetişdirilən məhsullar İrəvan şəhərinin mərkəzində yerləşən Qara bazarda satılırdı. Həmin dövrdə İrəvanda azərbaycanlıların sayının ermənilərdən daha çox olduğu qeyd olunur.

Kolanı kəndində azərbaycanlılara məxsus qədim qəbiristanlıq bu gün də mövcuddur. Ərazidə yerləşən qədim karvansara isə vaxtilə uzaq səfərlərə çıxan yolçulara xidmət göstərmişdir. 1948-ci ildən etibarən Vedibasar bölgəsindən, o cümlədən Kolanı kəndindən əhali qısa müddət ərzində tamamilə köçürülmüşdür.

Faiq Məmmədovun valideynləri əvvəlcə Salyan rayonunun Şorsulu kəndinə yerləşdirilmiş, lakin iqlim və yaşayış şəraiti ilə bağlı ciddi çətinliklərlə üzləşmişlər. Qərbi Azərbaycandan gətirilən mal-qara tələf olmuş, insanlar yeni mühitə uyğunlaşmaqda çətinlik çəkmişlər. Bir müddət sonra ailə Tərtər rayonunun İrəvanlı kəndinə köçmüşdür. Qeyd edək ki, bu kəndin əsası 1928-ci ildə qoyulmuşdur.

Hazırda Qərbi Azərbaycan İcmasının Tərtər rayonu üzrə nümayəndəsi olan 69 yaşlı Faiq Məmmədov doğma yurduna qayıdacağı günü böyük ümid və səbirsizliklə gözləyir.

***Vəli VƏLİYEV***
***XQ***

# Mina təhlükəsi ilə mübarizənin "gizli" hədəfləri




**Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə vaxtilə basdırılmış minalar, çoxsaylı partlamamış hərbi sursatlar vətəndaşların həyatı üçün hər zaman təhlükə mənbəyi olaraq qalır. Bu, keçmiş məcburi köçkünlərin doğma torpaqlara təhlükəsiz qayıdışına, ətraf mühitdə sağlam yaşamaq hüququnun təmin olunmasına, eləcə də bölgədə aparılan bərpa-quruculuq işlərinə ciddi maneə yaradır.**

Mənfur ermənilər 30 il ərzində işğalda saxladıqları əraziləri xarabalığa çevirməklə, infrastrukturu məhv etməklə yanaşı, şəhər, kənd və qəsəbə yollarını, tarixi abidələrin yerləşdiyi yerləri, qəbiristanlıqları, əkin sahələrini qarış-qarış minalayıblar. Baş verən partlayışlar ailələrə böyük faciələr yaşadır, çox sayda insan həyatını, sağlamlığını itirir, əlilliklə üzləşir. Martın 12-də Xocavənd rayonunun Aşağı Veysəlli kəndindəki keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə baş verən hadisə nəticəsində Ağdam rayon sakini 1968-ci il təvəllüdlü Ramiz Maşallah oğlu Hacıyev mal-qara otararkən tank əleyhinə minaya düşərək həlak oldu.

Bu gün müvafiq qurumlar baş verə biləcək xoşagəlməz halların aradan qaldırılması, minaların aşkar edilərək zərərsizləşdirilməsi istiqamətində fasiləsiz olaraq çalışırlar. Minaların, partlamamış hərbi sursatların, partlayıcı tərkibli digər təhlükəli qalıqların aşkarlanması, toplanması, daşınması, müvəqqəti saxlanılması və zərərsizləşdirilməsi üzrə əsas icraedici qurum kimi fəaliyyətə başlamış Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) vəzifələri daha da genişlənmişdir. Agentliyin həyata keçirdiyi əməliyyatlar Beynəlxalq Minatəmizləmə Standartlarına uyğun şəkildə təşkil olunur. Bu, əməliyyatların təhlükəsizliyini, efektliyini və şəffaflığını təmin edir.

Minalar və partlamamış hərbi sursatların təhlükəsi Azərbaycan və ümumiyyətlə, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən problemlərdən biridir. Minalanmış ərazilərin təmizlənməsi və mina təhlükəsi barədə ictimaiyyətin məlumatlandırılması ANAMA-nın əsas fəaliyyət istiqamətlərindən biridir.

ANAMA-nın azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı həftəlik məlumatında bildirilir ki, bu il mart ayının 10-dan 15-dək 194 tank və 129 piyada əleyhinə mina, 724 partlamamış hərbi sursat aşkarlanıb və zərərsizləşdirilib. 1234,5 hektar ərazi isə minalardan təmizlənib. Qeyd edək ki, minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində, o cümlədən Qazax rayonunun işğaldan azad edilmiş Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılı kəndlərində həyata keçirib.

Azərbaycan Minatəmizləmə Agentliyi 2025-ci ildə bu işlərə cəlb olunan dövlət və qeyri-dövlət qurumları ilə birgə, ümumilikdə, 69 min 205,7 hektar ərazidə minatəmizləmə əməliyyatları icra edib, həmin ərazilərdə 59 min 216 ədəd mina və digər partlayıcı sursat aşkar olunaraq zərərsizləşdirilib. 2025-ci ildə həyata keçirilən minatəmizləmə əməliyyatlarında agentlik 50 min 75,9, Müdafiə Nazirliyi 7 min 34,6, Fövqəladə Hallar Nazirliyi 880,6, Dövlət Sərhəd Xidməti 22,6, yerli şirkətlər isə 11 192 hektar ərazini təmizləyib. Həmçinin hesabat dövründə agentlik 50 min 877, MN 313, FHN 482, DSX 39 ədəd, yerli şirkətlər isə 7 min 505 ədəd mina və partlamamış hərbi sursat aşkar edərək zərərsizləşdirib.

Bu gün işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri uğurla davam etdirilir. Bununla bağlı Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyətinə dair hesabatında bildirilir ki, 2020-ci ildən başlayaraq, ümumilikdə, 249 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənmiş, tapıntıların sayı 237 min ədəd təşkil etmişdir. 2026-cı ildə isə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

**Təhlükəsizlik üzrə ekspert Orxan Musayev** XQ-yə açıqlamasında qeyd edib ki, mina təhlükəsizliyi bu gün ölkəmiz üçün ən aktual və həssas mövzulardan biridir. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyatın bərpası prosesi getdikcə genişlənir. Lakin bu ərazilərdə mövcud olan mina və partlamamış sursat təhlükəsi hələ də tam aradan qalxmayıb və bu, həm vətəndaşlar, həm də həmin ərazilərdə fəaliyyət göstərən şəxslər üçün ciddi riskdir. Bu qurğular illərlə torpağın altında qala və istənilən anda aktivləşərək ağır nəticələrə səbəb olur. Təəssüf ki, son illərin statistikası göstərir ki, mina hadisələri əsasən ehtiyatsızlıq, məlumat çatışmazlığı və ya təhlükənin düzgün qiymətləndirilməməsi nəticəsində baş verir. Bu baxımdan vətəndaşların maarifləndirilməsi xüsusi əhəmiyyət daşıyır.



Hər kəs bilməlidir ki, yalnız rəsmi şəkildə təhlükəsiz elan olunmuş ərazilərə daxil olmaq mümkündür. Xəbərdarlıq nişanları, hasarlanmış sahələr və qadağanedici işarələr ciddi qəbul edilməli, heç bir halda bu məhdudiyyətlər pozulmamalıdır. Eyni zamanda, naməlum və şübhəli əşyalara qarşı davranış qaydaları da aydın şəkildə bilinməlidir. Belə hallarda əsas prinsip sadədir: yaxınlaşma, toxunma, yerini dəyişmə. Dərhal müvafiq qurumlara məlumat verilməsi isə düzgün və məsuliyyətli davranış nümunəsidir. Xüsusilə uşaqların maarifləndirilməsi vacibdir. Onlara izah olunmalıdır ki, tanımadıqları əşyalara toxunmaq, onları götürmək və ya oynamaq ciddi təhlükə yarada bilər. Bu istiqamətdə ailələrin və təhsil müəssisələrinin rolu böyükdür. Mina təhlükəsi ilə mübarizə yalnız müvafiq qurumların deyil, bütövlükdə, cəmiyyətin birgə məsuliyyətidir.

Hər vətəndaş təhlükəsizlik qaydalarına əməl etməklə bu riskin azaldılmasına töhfə verə bilər. Unutmayaq ki, düzgün addım, məsuliyyətli davranış insan həyatının qorunmasına xidmət edir. Əsas məqsəd odur ki, azad olunmuş torpaqlarda həyat bərpa olunduqca, bu proses maksimum təhlükəsizlik şəraitində davam etsin və vətəndaş mina təhlükəsinin qurbanına çevrilməsin.

Azərbaycan hökumətinin ərazilərin minalardan təmizlənməsi ilə bağlı qəti siyasi iradəsi var. Keçmiş məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz doğma yurdlarına qaytarılması istiqamətində görülən işlər yeni həyatın tezliklə tam bərqərar olacağından xəbər verir.

Mina təhlükəsi uzun illərin prosesi olduğundan doğma yurda köç və səfər edən insanlar ehtiyatlı davranmalı, xəbərdarlıq nişanlarına riayət etməli və təhlükəli hesab edilən ərazilərdən uzaq durmalıdırlar. İnsan həyatı hər şeydən qiymətlidir və bu cür təhlükələrə qarşı diqqətli olmaq hər kəsin vətəndaşlıq borcudur.

***Müşfiq MİRZƏ***
***XQ***

# Təqvimin unudulmaz səhifələri

## Nurəddin Babayev – 105

### Görkəmli publisist, media nəzəriyyəçisi



Nurəddin Babayev Azərbaycan jurnalistikasının vicdanı, sarsılmaz intizamı hesab olunan, qələmi ilə xalqının mənəvi ucalığına xidmət edən nadir şəxsiyyətlərdəndir. 1921-ci ildə dünyaya göz açan görkəmli nasir ömrünün 70 ilini sözün qüdrətinə və həqiqətin işığına həsr etdi. Onun həyat yolu həm də mürəkkəb bir dövrün sənədli salnaməsidir.

N.Babayevin jurnalistlik fəaliyyəti 1940-1941-ci illərdə, hələ gənclik xəyallarının qanadlandığı bir vaxtda "Azərbaycan pioneri" qəzetində sadə ədəbi işçi kimi başlamışdı. Lakin taleyin amansız sınağı olan İkinci Dünya müharibəsi gənc qələm sahibini yazı masasından ayırıb barıt qoxulu səngərlərə atdı. 1941-1943-cü illərdə ön cəbhənin qaynar nöqtələrində vuruşan Nurəddin Babayev, təkcə sözü ilə deyil, silahı ilə də vətənin keşiyində durdu. Ağır yaralanaraq baş leytenant rütbəsi ilə doğma Bakıya qayıtması onun cismində müharibənin ağrılarını, ruhunda isə sarsılmaz qələbə əzmini daşıdığının sübutu idi.

Cəbhədən qayıtdıqdan sonra yarımçıq qalan yaradıcılıq həvəsi daha da artdı. 1943-1945-ci illər arasında "Kommunist" qəzeti kimi nüfuzlu bir redaksiyada şöbə müdiri, "Azərbaycan müəllimi" qəzetində isə redaktor müavini vəzifələrini icra edərək mətbuatın idarəçilik mexanizmlərini dərindən mənimsədi. 1953-cü ildən etibarən "Uşaqgəncnəşrdə" baş redaktor kimi fəaliyyət göstərməsi isə onun gənc nəslin maariflənməsinə, uşaq ədəbiyyatının və mətbuatının inkişafına verdiyi ən böyük töhfələrdən biri kimi tarixə düşdü.

Nurəddin müəllimin bu sahədəki misilsiz xidmətləri 1966-cı ildə ona mətbuatımızın nüfuzlu mükafatlarından biri olan "Qızıl qələm"i qazandırdı. Şöhrəti ölkə sərhədlərini aşaraq beynəlxalq aləmə yayıldı. Fransadan Kubaya, Bolqarıstandan Finlandiyaya qədər müxtəlif ölkələrdə elmi məqalələri bir çox xarici dillərə tərcümə olunaraq çap edildi.

1991-ci ildə əbədiyyətə qovuşan görkəmli nasir mətbuat tariximizdə öz dəst-xətti, prinsipial mövqeyi və səmimi təhkiyəsi ilə silinməz iz qoydu.

## Əli Kərim – 95

### Yarımçıq ömrün əbədi şeiriyyəti



Əli Kərim XX əsr Azərbaycan poeziyasının istedadlı şairləri sırasında yer alıb. Onun yaradıcılığı ruhun səmimi etirafı, insanın daxili aləminin poetik xəritəsidir. 1931-ci ildə Göyçayda dünyaya göz açan şair Azərbaycan ədəbiyyatında modernizmə və intellektual lirikaya qiymətli töhfələr verib. Onun uşaqlıq illərinin İkinci Dünya müharibəsinin qorxulu və qıtlıq dolu günlərinə təsadüf etməsi qəlbində erkən yaşda həssaslıq və dərin ağrılar yaratmışdı. Müharibənin gətirdiyi yoxsulluq və parçalanmış talelər balaca Əlinin qəlbində dərin yaralar açmışdı. Sonralar bu sarsıntılar onun şeirlərində kədər dolu motivlərə çevrilmişdi.

Bakı Dövlət Universitetinin filologiya fakültəsində keçən tələbəlik illəri Əli Kərim üçün həm də sözün ilahi gücünü kəşf etmək mərhələsi idi. Burada klassik irsin dərinliklərinə nüfuz edən gənc şair, eyni zamanda, dünya ədəbiyyatının nəhəngləri ilə tanış olaraq öz bənzərsiz üslubunun təməllərini qoydu. Onun poeziyası hələ o illərdən səmimiyyəti və süni pafosdan uzaqlığı ilə seçilirdi. Şairin yaradıcılığında sevgi, tənhalıq və vətənpərvərlik motivləri bir-birini tamamlayır. "İki sevgi", "Qaytar ana borcunu", "Nə xoşbəxt imişəm bir zaman Allah" kimi incilər oxucunu həm həyəcanlandıran, həm də düşündürən sənət nümunələridir.

Əli Kərimin poeziya aləminə gəlişi Azərbaycan ədəbiyyatının durğun sularını hərəkətə gətirən dalğa, intellektual tufan idi. 1950-ci illərin əvvəllərində "Azərbaycan gəncləri", "Ulduz", "Ədəbiyyat və incəsənət" kimi mətbu orqanlarda işıq üzü görən misraları ilə o, oxucuya fərqli təfəkkür tərzi təqdim etdi. Əli Kərim sözü bəzəmirdi, sözün mahiyyətini insanın daxili aləminin ən gizli künclərinə işıq salmaq üçün bir vasitəyə çevirirdi.

İllər ötür, lakin taleyin amansız hökmü ondan yan keçmir. 1969-cu ildə cəmi 36 yaşında dünyasını dəyişir. Onun vaxtsız vəfatı Azərbaycan ədəbiyyatında böyük itki kimi qəbul edilir.

## Rafiq Babayev – 90

### Novator bəstəçi, ünlü caz ustası



Xalq artisti Rafiq Babayev milli caz janrının istedadlı təmsilçisidir. Onun yaradıcılığı Şərq və Qərb musiqi təfəkkürünün nadir vəhdətini əks etdirir. Rafiq Babayev həm virtuoz pianoçu, həm mahir aranjimançı, həm də novator bəstəçi kimi milli musiqimizi zənginləşdirən şəxsiyyətlərdəndir. R.Babayevin sənət yolu muğamlarımızın fəlsəfi dərinliyi ilə cazın azad ruhunun qovuşduğu bir nöqtədir ki, bu da onu dünya musiqi arenasında fərqləndirən əsas amildir.

Rafiq Babayevin həyat hekayəsi musiqi mədəniyyətinin həm ən parlaq, həm də ən kədərli səhifələrindən biridir. 1936-cı ilin martında Bakıda dünyaya göz açan bəstəkar repressiya dövrünün ağır sınaqları ilə hələ körpə ikən qarşılaşmışdı. Atası Fərzi Babayevin güllələnməyə məhkum edilməsi ailənin sonrakı həyatına ağır və sarsıdıcı təsir göstərsə də, anası Şahbəyim xanımın iradəsi sayəsində altı övladın hər biri cəmiyyət üçün faydalı şəxsiyyət kimi yetişdi.

Bu çətinliklər içində böyüyən Rafiqin musiqi istedadı özünü çox erkən büruzə verdi. 160 nömrəli musiqi məktəbində təhsil alarkən ilk caz kvartetini yaratması onun azad ruhlu sənətə olan meylinin xəbərçisi idi. Asəf Zeynallı adına Musiqi Məktəbində aldığı təhsil onun texniki ustalığını cilaladı. Xalq Çalğı Alətləri Ansamblındakı fəaliyyəti ilə gənc bəstəkar milli musiqinin incəliklərini dərindən mənimsədi.

Musiqiçi kimi formalaşdığı illərdə Rafiq Babayev təkcə icraçı deyil, həm də novator kimi tanındı. 1967-ci ildə dünyaşöhrətli müğənni Rəşid Behbudovun dəvəti ilə Mahnı Teatrının musiqi rəhbəri vəzifəsini icra etməsi onun yaradıcılığında yeni bir mərhələ açdı. Teatrlaşdırılmış böyük konsert proqramlarının hazırlanmasında göstərdiyi fədakarlıq və peşəkarlıq Azərbaycan səhnə mədəniyyətinə yeni nəfəs gətirdi.

Elə həmin il Tallində keçirilən Beynəlxalq Caz Festivalında laureat adını qazanması və "Bayatı-kürd" ladı əsasında təqdim etdiyi kompozisiyanın dünya caz mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilməsi onun Şərq muğamı ilə Qərb cazını hansı ustalıqla sintez etdiyinin əyani sübutu idi. Gennadi Stepanişşevdən Səyavuş Kərimiyə, Tofiq Cabbarovdan Cəmil Əmirova qədər böyük bir nəsil Rafiq Babayev məktəbinin yetirmələri idilər.

1991-ci ildə "Cəngi" folklor-caz kollektivini yaratmaqla Rafiq Babayev milli musiqi tariximizdə inqilab etdi. Öz səsyazma studiyasını quraraq folklor alətlərinin səs imkanlarını müasir harmoniya ilə zənginləşdirdi. 1993-cü ildə Xalq artisti fəxri adına layiq görülməsi onun illərlə çəkdiyi zəhmətin bəhrəsi oldu. 1994-cü ilin müdhiş mart günü təkcə bir bahar sevincini deyil, həm də Azərbaycan musiqisinin döyünən qəlbi olan sənətkarın ömür nəğməsini yarımçıq qoydu. Novruz bayramı ərəfəsində, şəhərin üzərinə yaz nəfəsi qonmağa başladığı gündə metronun qaranlıq tunellərində partlayan bomba bütöv bir mədəniyyət sütununu sarsıtdı. Erməni ekstremizminin xain və amansız siması o gün günahsız insanların, qocaların və uşaqların qanına susamışdı; həmin qanlı siyahıya Rafiq Babayev kimi bir dühanın da adı əbədi həkk olundu.

Musiqi ilə sülhün vəhdətini yaradan bir insanın həyatına nifrətin və vəhşətin dili ilə son qoyulması taleyin ən acı təzadı idi. Rafiq Babayev o gün həyatla vidalaşdı.

Bu il onun 90 illik yubileyi tamam olur. Tanınmış bəstəkarın miras qoyduğu irs hər bir azərbaycanlının qəlbində əbədiyaşardır.

***Fidan ƏLİYEVA***
***XQ***

## Rüstəm Məlikov – 70

# Bahar oğlu

**Sərlövhəyə çıxarılan bu ad yazıçı Seyfəddin Dağlının 20 mart 1899-cu ildə dünyaya gəlmiş görkəmli dramaturq Cəfər Cabbarlının həyatından bəhs edən eyniadlı bioqrafiq-bədii romanından götürülüb. Haqqında söhbət açdığımız tanınmış jurnalist Rüstəm Məlikov da 70 il əvvəl Salyanda həmin gün dünyaya göz açıb.**

Rüstəm hələ orta məktəb illərindən bu əziz günlərdə dünyaya gələn yaradıcı insanların həyatı barədə bilgilər toplayıb və onların yaradıcılığını özünə örnək götürüb. Seyfəddin Dağlının "Bahar oğlu" əsəri və "Bahar nə xoş gəlir, ruha dad verir, Xəyala, duyğuya qol-qanad verir", – deyən Səməd Vurğunun "Bahar və mən" şeiri həmişə masasının üstündə, əlinin altında olub. Məhz bu maraq onu sözə, ədəbiyyata bağlayıb və çox çəkməyib ki, öz duyğu və düşüncələrini yazıya köçürməyin peşəkar yolunu seçib – BDU-nun jurnalistika fakültəsində təhsil alıb.

Rüstəm Məlikovun ilk qələm təcrübələrinin çap olunduğu tarixdən 50 ildən çox bir müddət keçir. Yazıçı Gülhüseyn Hüseynoğlunun "Mücrü"sündən bəhrələnərək, İmaməddin Nəsiminin haqqında yazdığı mənsur şeiri Salyanda nəşr olunan "Qələbə" qəzetində çap olunanda çox sevinib.

Peşəkar jurnalist fəaliyyətinə Azərbaycan Televiziyası və Radio Verilişləri Şirkətinin Salyan Rayon Radio Verilişləri Redaksiyasında başlayan Rüstəm müəllim sonralar rayonun "Qələbə" qəzetində müxbir, 2005-ci ildən 2025-ci ilə qədər qəzetin baş redaktoru işləyib. Hazırda isə ötən il MEDİA reyestrindən qeydiyyatdan keçərək "Ana Kürüm" adı ilə çap olunan qəzetin təsisçisi və məsul redaktoru kimi yaradıcılıq fəaliyyətini davam etdirir. Qəzet müstəqil ictimai-siyasi və maarifləndirici nəşr olaraq cəmiyyətdə ekoloji düşüncənin formalaşmasına və ictimai fəallığın artırılmasına mühüm töhfələr verməkdədir.

Rüstəm Məlikov, eyni zamanda, 15 ildən çoxdur ki, "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri kimi rayonda sanballı ekoloji maarifləndirici layihələr icra edir. Onun Salyan Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri kimi fəaliyyəti də təqdirəlayiqdir. İctimai nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində ardıcıl təşəbbüslərlə çıxış edir.

Onun dövlət və cəmiyyət qarşısındakı xidmətləri layiqincə qiymətləndirilib. Prezidentin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb, Azərbaycan milli mətbuatının 150 illik yubileyi medalı ilə təltif edilib. Həmçinin Azərbaycan Mətbuat Şurası tərəfindən Ali Media mükafatına layiq görülüb.

Rüstəm Məlikov Salyan rayonunun tanınmış şəxsiyyətlərinin həyatından bəhs edən 4 bədii-publisistik kitabın da müəllifidir. O, Azərbaycan Yazıçılar Birliyinin təqdimatı ilə 2024-cü ildə Prezident təqaüdçüsü olub.



Səmimi, mehriban insan olan Rüstəm müəllim hər zaman yolu Salyana düşən həmkarlarını bir ev sahibi kimi sevinə-sevinə qarşılayıb dost qayğısını əsirgəmir. Məsələn, ötən il rayon mərkəzindən xeyli uzaq olan bir kənddə şəhid ailəsinə baş çəkmək istəyirdik. Rüstəm müəllimdən "Ora necə getmək olar?" – deyə soruşduq. "Birlikdə gedəcəyik" – dedi və iş-gücünü atıb bizi özünün şəxsi minik avtomobilində həmin kəndə apardı, üstəlik də, şəhid balamızın haqqında yazını hazırlamaqda bizə lazımi kömək göstərdi. Biz ona təşəkkür edəndə isə dedi ki, dəyməz, mən bundan mənəvi zövq alıram. O, bax, belə həssas, dostcanlı bir insandır.

Ədəbi-publisistik və ictimai fəaliyyətini uğurla davam etdirən qələm dostumuz Rüstəm Məlikovu 70 illik yubileyi münasibətilə təbrik edir və ona gələcək fəaliyyətində yeni nailiyyətlər arzulayırıq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Cahana sığmayan Nəsimi poeziyası



**Heydər Əliyev Fondunun dəstəyi ilə üç dildə hazırlanan "İmadəddin Nəsimi. Mən bu cahana sığmazam" kitabının martın 17-də Bakı Kitab Mərkəzində təqdimatı keçirilib.**

Layihənin rəhbəri Maya Dzirkvelişvilidir. Kitab layihənin həmmüəllifi Taleh Ziyadovun təşəbbüsü ilə hazırlanıb. Nəşrin sponsorları Gürcüstanın "Wondernet Express Investment Group" şirkəti və Dimitri Abduşelişvilidir.

Azərbaycan, ingilis və rus dillərində hazırlanan kitabın xüsusi bölməsində 47 il ömür sürmüş dahi şairin 47 seçilmiş əsərinə yer verilib.

Təqdimat mərasimində gürcüstanlı həmfikirləri adından çıxış edən Mamuka Murjikneli kitabın nəşrinin Azərbaycan xalqı və mədəniyyəti üçün böyük nailiyyət olduğunu qeyd edib.

Kitabın tərtibatında fəal iştirak etmiş Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi deyib: "Kitabın üç dildə nəşri bizi çox sevindirdi, həm də çox böyük çətinliklər yaratdı. Çünki Nəsimi irsi o qədər simvolik, o qədər rəmzlərlə, dərin fəlsəfi məsələlərlə zəngin olan xəzinədir ki, onu başqa dillərə çevirəndə necə alınacağı bizi çox düşündürdü". Filologiya üzrə fəlsəfə doktoru, professor Səadət Şıxıyeva Nəsimi irsinə çox gözəl bir töhfənin hazırlandığını, ilk dəfə belə nəfis nəşrin şahidi olduğunu söylədi.

Layihənin koordinatoru, tarixçi-alim Səbuhi Əhmədov Nəsimi irsinin təbliği ilə bağlı görülən işlərdən danışıb və bunların dahi şairin xatirəsinə layiqli bir töhfə olduğunu bildirib. Kitabın Nəsimi irsinə qayıtmaq üçün unikal bir fürsət olduğunu qeyd edən S.Əhmədov fikirlərinə belə davam edib: "Bu istiqamətdə işə başlayanda bir az tərəddüd etdik. Nəsiminin ədəbi irsi, fəlsəfi düşüncəsi o qədər zəngin idi ki, əvvəlki kitablardan fərqli bir iş ortaya çıxarmaq üçün çalışdıq. Ən yaxşı nəşriyyat, ən yaxşı dizayn qrupu, ən tanınmış tərcüməçilər bu işə cəlb olundu və ortaya gözəl bir iş çıxdı".

Tədbir bədii hissə ilə davam edib.

***XQ***

# Sazın milli çevrəni aşan sehri

## *Amerikalı Marta necə aşıq oldu?*

**Azərbaycanın zəngin musiqi irsi, dərin folklor ənənələri və sazın sehrli sədaları dünyanın müxtəlif guşələrindən insanları cəlb edir. Bu musiqi xalqın ruhunu, tarixini və ənənələrini daşıyan canlı yaddaşdır. Elə buna görədir ki, fərqli mədəniyyətlərdən olan insanlar belə bu sədalara biganə qala bilmir, ölkəmizi daha yaxından tanımağa can atırlar.**



Onlardan biri də Azərbaycana olan sevgisi ilə sazda ifa etməyi öyrənmiş, amerikalı olsa da, ürəyi Azərbaycanla döyünən Marta Lauiridir. Dilimizi, milli musiqimizi öyrənən Marta aşıq sənətinin incəliklərini də mənimsəyib. Bu gün o, övladlarını Azərbaycan bayrağı altında böyüdür, onlara Vətən sevgisi aşılayır.

Amerikalı aşığın bu torpaqlara olan sevgisini özündən eşitmək üçün onunla həmsöhbət olduq.

**– Azərbaycanla ilk tanışlığınız necə olub, sizi ölkəmizə belə dərindən bağlayan nə idi?**

– Əslində, bu hekayə çox illər əvvəl başlamışdı. Mən 2005-ci ildə Rusiyaya getdim və Pyatiqorsk Dövlət Dilçilik Universitetinə qəbul oldum. Orada Qafqazdan gələn tələbələrlə dostlaşdım. Onlara çox böyük hörmətim vardı. Çünki öz mədəniyyətlərinə çox bağlıdırlar və bu bağlılıq hər sahədə hiss olunur.

Xüsusilə, müsəlman qızlarında güclü ailə dəyərləri, valideynə hörmət, təhsilə ciddi yanaşma və mədəni kimliklərini qorumaq istəkləri diqqətimi çəkdi. Onlar tez-tez milli adət-ənənələrindən danışardılar. Bütün bunlar məndə dərin sevgi hissləri yaratdı. Qaraçaylar və məhsəti türkləri arasında dostlarım vardı. Elə orada ikən Azərbaycanı tanıdım. Sonralar bir neçə dəfə Qafqaza getdim və o dağlara, sözün əsl mənasında, bir könüldən min könülə valeh oldum.

Rusiyadan ABŞ-a qayıtdıqdan sonra içimdə qəribə bir hiss var idi, sanki Qafqaz dağları məni özünə çağırırdı. Çünki bu dağlarda yaşayan xalqlar çox qədimdir, adət-ənənələrinə, rəqslərinə, mətbəxlərinə çox bağlıdırlar, öz millətləri, tarixləri ilə fəxr edirlər. Amerikada elə şey yoxdur, bizdə hər şey çox qarışıq və yenidir.

Mən Dallas şəhərində, Texasda təhsil alırdım. O illərdə Amerikada Azərbaycan haqqında geniş məlumat yox idi, indiki qədər tanınmırdı. Amma sanki mən hara getsəm, qarşıma mütləq Azərbaycan adı, ölkə ilə bağlı ornamentlər çıxırdı. Daha sonralar isə rusdilli insanlar axtarmağa başladım ki, dili unutmayım. Nə qədər axtarsam da, Dallasda ruslara rast gəlmədim. Amma daha doğma–Qafqazdan olan məhsəti türkləri ilə qarşılaşdım, tanış oldum. Onlar həm rus dilində, həm də öz ana dillərində danışırdılar. Bu icmaya "Ahısqa türkləri" deyirlər. Mən də onlara kömək etməyə başladım. Çünki ingilis dilini o qədər də yaxşı bilmirdilər.

Həmin ailə ilə tanışlıq Azərbaycana olan marağımı daha da artırdı, hətta bəzi amerikalılar məni azərbaycanlı kimi tanıyırdılar. Bir müddət sonra yay tətilində dostlarımla Bakıya gəldim. Şəhəri gəzdik, orada yaşayan amerikalılarla tanış olduq.

**– Sazda ifa etməyi necə öyrəndiniz?**

– Bakı böyük şəhərdir, halbuki mən Amerikada daha kiçik bir şəhərdə böyümüşəm. Ona görə də Bakıya gələndə bu böyüklük, səs-küy və küləkli hava mənə bir qədər yad təsir bağışladı. Bir gün şəhərdə gəzərkən təsadüfən bir ustanın sazda ifa etdiyini gördüm. Bu mənzərə məni çox təsirləndirdi, öz-özümə dedim ki, əgər bir daha Azərbaycana gəlsəm, mütləq bu alət və milli musiqi haqqında öyrənəcəyəm.

Sonradan magistratura üçün Qafqazda universitet axtaranda Xəzər Universiteti haqqında oxudum, bəyəndim və buranı seçdim. Azərbaycana yenidən qayıdanda artıq fərqli bir yol tutdum. Universitetdə oxuya-oxuya anladım ki, mən dili daha dərindən öyrənmək və mədəniyyətə daha yaxından bələd olmaq istəyirəm. Bu məqsədlə azərbaycanlı ailə axtarmağa başladım və nəhayət, Keşlə qəsəbəsində yaşayan Quliyevlər ailəsində yerləşdim.

Ailənin oğlu tez-tez saz çalırdı. Onun ifasını dinləyəndə bu alətə və mahnılara çox yaxınlıq hiss edirdim. Çünki musiqiyə həmişə xüsusi marağım olub. Amerikada olarkən gitara çalır, dostlarımla bir yerdə mahnılar oxuyurduq. O anların yaratdığı birlik və səmimiyyət hissi mənim üçün çox dəyərli idi. Azərbaycana gəldiyim ilk günlər bu mühit üçün darıxmağa başladım. Çünki burada insanlarla birlikdə musiqi ifa etmək imkanım yox idi. Amma sazda ifa olunan musiqiləri dinləyəndə fərqli atmosferlə qarşılaşdım. İnsanlar bir yerə yığılır, əl çalır, bəzən rəqs edir, bəzən də oxuyurdular. Bu isə mənə xoş ovqat bəxş etdi, elə həmin andan qərara gəldim ki, saz çalmağı öyrənməliyəm.

Bunun üçün müəllim axtardım və onun vasitəsilə yavaş-yavaş sazın sirlərini öyrəndim. Uşaqlıqdan musiqi alətləri ilə məşğul olduğum üçün o qədər də çətin olmadı. Amma burada əsas fərq o idi ki, mən əvvəllər notlara baxaraq ifa etməyə öyrəşmişdim, sazda isə xalq mahnıları, adətən, əzbərdən ifa olunur. Bu da bir az çətinlik törədirdi. Şeirlər öyrənməyə başladım. Bu da Azərbaycan dilini qavramağıma çox böyük təsir göstərdi. Xüsusilə Səməd Vurğunun əsərlərini oxuduqca anladım ki, poeziya ilə musiqi bir-birindən ayrılmazdır.

**– Sizcə, aşıq sənəti Azərbaycan xalqının ruhunu və tarixini necə əks etdirir?**

– Zaman keçdikcə, hiss etdim ki, aşıq sənəti daha çox kənd mühitindən qaynaqlanır. Yay aylarında həmin ailə ilə birlikdə Gədəbəyə getdim və orada maraqlı bir mənzərə ilə qarşılaşdım. Demək olar ki, hər evdə saz vardı. Bəzisi köklənmiş, bəzisi isə illərlə istifadə olunmamış vəziyyətdə idi. Amma yenə də o evlərdə yaşlı bir insanın sazı götürüb asta-asta ifa etdiyini görmək olurdu. Mənim üçün aydın oldu ki, Azərbaycan xalqının ruhu, hiss və düşüncələri ən çox saz havasında öz əksini tapır.

**– ABŞ-da insanlar sazı və aşıq musiqisini necə qarşılayırlar?**

– Mənə elə gəlir ki, Qərb ölkələrində saz və ümumiyyətlə, Azərbaycan musiqi alətləri haqqında kifayət qədər məlumat yoxdur. Halbuki orada insanlar yeni və fərqli musiqi üslublarına açıqdırlar. Sadəcə, bu aləti çox eşitmədikləri üçün hələ ona tam qiymət verə bilmirlər. Amma inanıram ki, eşitsələr, mütləq bəyənərlər. Çünki mən evimə gələn qonaqlara saz ifa edirəm, onlar bunu böyük maraqla qarşılayır, çox bəyənirlər, hətta bu aləti ifa etməyi öyrənmək istəyənlər də olur.

Bu gün dünyada musiqinin və mədəniyyətin yayılmasında rəqəmsal platformaların rolu böyükdür. Əgər sosial şəbəkələrdə tanınmış şəxslər, influenserlər saz ifa etsələr və ya bu alət haqqında danışsalar, düşünürəm ki, daha geniş auditoriya bu mükəmməl aləti tanıyar və sevər.

Hazırda sazı evimin baş köşəsinə qoymuşam. Onu daim ifa etməyi düşünürəm ki, ailəm, uşaqlarım da bu səsi eşitsin, gələcəkdə bu sənətə maraq göstərsinlər.

***Söhbəti yazdı:***
***Ləman TƏHMƏZ***
***XQ***

# Laçında bayram yarmarkası





**Laçın rayonunda Torpaq çərşənbəsinə həsr olunmuş Novruz yarmarkası keçirilib. Tədbir rayondakı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə təşkil olunub.**

Həkəri çayının sahilində keçirilən bayram yarmarkasında Laçında fəaliyyət göstərən bir sıra müəssisə və təsərrüfatlar öz məhsullarını nümayiş etdiriblər. Yarmarkada "Naxışlı" tikiş evi, "Latifa" tekstil və dekor məhsulları, "Can Laçın" müalicəvi otlar və kompot istehsalı, "Pirşağı" yerli ayaqqabı istehsalı, "Yurd" Qalereyası, xalçaçılıq emalatxanası, arıçılıq təsərrüfatları, "Raisa İz" milli şirniyyatları, Həkəri Balıq Təsərrüfatı, "RiverSide" ailəvi istirahət mərkəzi və "Laçın" çörək sexi iştirak ediblər.

Yarmarka çərçivəsində, həmçinin xalqımızın qədim adət-ənənələrini əks etdirən eksponatlar nümayiş etdirilib, ziyarətçilərə milli dəyərlərimizin zənginliyi təqdim olunub.

Bayram şənliyi Dədə Qorqud, Keçəl, Kosa və Bahar qızının meydana daxil olması ilə daha da rəngarəng və şən ovqat alıb. Tədbir Laçın rayon məktəblilərinin hazırladığı konsert proqramı, milli rəqslər və musiqi nömrələri ilə davam edib.

Daha sonra Laçın rayonunda keçirilən ictimai tədbirlərdə fəal iştirak edərək fərqlənən şəxslərə təşəkkürnamələr təqdim olunub.

Tədbir çərçivəsində "Azərçay" brendi, "Araz", "OBA", "Al" və "Rahat" marketlər şəbəkəsi tərəfindən iştirakçılara müxtəlif bayram sovqatları təqdim olunub.

Sonda Novruzun əsas rəmzlərindən olan bayram tonqalı alovlandırılıb və tədbir iştirakçıları birlikdə baharın gəlişini, yenilənmə və ümid rəmzi olan Novruz bayramını böyük coşqu ilə qeyd ediblər.

Bundan əlavə, Torpaq çərşənbəsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin rəsmisi Hüseyn Quliyev, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları şəhid ailələrini ziyarət ediblər.

Xüsusi nümayəndəliyin rəsmisi əvvəlcə şəhid Rəsul Şahverdiyevin ailəsində olub. Şəhidin həyat yoldaşı İntizar Zülfüqarova ilə görüş zamanı ailənin qayğıları ilə maraqlanılıb, Novruz bayramı münasibətilə təbriklər çatdırılıb.

Sonra şəhid Vaqif Salmanzadənin evində olaraq şəhidin həyat yoldaşı Suqra Həmidova ilə görüş keçirilib, ailənin sosial vəziyyəti və gündəlik qayğıları ilə maraqlanılıb.

*Paşa ƏMİRCANOV*
*XQ*

# Ağstafada Novruz çal-çağırı

**Novruz bayramı Ağstafada da təntənə ilə qeyd edilib. İlaxır çərşənbə münasibətilə şəhərin Heydər Əliyev adına istirahət parkında təşkil olunan ümumrayon tədbirində rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət üzvləri iştirak ediblər.**



Şənlikdə milli irsimizi əks etdirən sərgilər, məktəblilərin və incəsənət nümayəndələrinin təqdimatında Novruzun ənənəvi obrazları – Bahar qızı, Keçəl və Kosa ilə rəqs və folklor kompozisiyaları böyük maraqla izlənilib. İdman klublarının nümunəvi çıxışları da bayrama rəngarənglik gətirib.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov mərasimdə Novruzun birlik, sevinc və həmrəylik bayramı olduğunu vurğulayıb, bu gün bayram tonqallarının azad Qarabağ torpaqlarında da alovlanmasının qürurverici olduğunu qeyd edib.

Təntənə bayram konserti ilə davam edib. İdmanda fərqlənən gənclər təltif olunublar. Şəhid ailələri ilə birlikdə bayram tonqalı alovlandırılıb və tonqal ətrafında yallı rəqsi ilə Novruzun birlik ruhu bir daha nümayiş etdirilib.

*Hamlet QASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

# Şirvanda ümumşəhər şənliyi





**Şirvan Şəhər İcra Hakimiyyətinin, şəhərin mədəniyyət və təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə xalqımızın qədim tarixini, milli-mənəvi dəyərlərini özündə yaşadan Novruza həsr olunmuş ümumşəhər bayram şənliyi keçirilib.**

Mərasimdə şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının, regional təşkilatların, idarə və müəssisələrin əməkdaşları, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, şəhər sakinləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Şirvan şəhər Məhəmməd Füzuli adına Mədəniyyət və istirahət parkında yerləşən Zəfər abidəsinin önündə keçirilən mərasimdən öncə şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov şəhid övladları ilə birlikdə bayram tonqalını alovlandırıb.

Ulu ozan Dədə Qorqud qədim bayram münasibətilə xalqımıza xeyir-duasını, xoş arzularını bildirib. Keçəl və Kosa şənliyə gələn qonaqları salamlayaraq şən söhbətləri ilə onlara bayram əhvali-ruhiyyəsi bəxş ediblər.

İcra hakimiyyətinin başçısı İlqar Abbasov xalqımızın milli-mədəni sərvətlər xəzinəsində xüsusi yeri olan Novruz bayramı münasibətilə şəhər sakinlərini təbrik edib, möhkəm can sağlığı, xoş ovqat, bahar əhvali-ruhiyyəsi və bol ruzi-bərəkət arzulayıb.

Sonra Şirvan idmançılarının cəngi sədaları altında müxtəlif idman növləri üzrə nömrələrinə, şəhər ümumtəhsil məktəblərinin hazırladıqları Novruz atributlarına, milli mətbəximizin və geyimlərimizin nümunələri, əl işləri və rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

*N.MİKAYIL,*
*XQ-nin bölgə müxbiri*

# İmişlidə şəhid ailəsinə ehtiram



**İmişli rayonunda şəhid ailələrinə və qazilərə daim diqqət göstərilir və problemlərinin həlli üçün onlarla mütəmadi surətdə görüşlər keçirilir. Novruz bayramı ərəfəsində rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev Vətən müharibəsi şəhidi Alik Musayevin ailəsini ziyarət edib. Novruz görüşündə şəhidin doğmaları, rayon rəhbərliyinin məsul əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Görüşdə şəhidlərimizin əziz xatirələrinin xalqımızın qəlbində əbədi yaşayacağı qeyd edilib. Bildirilib ki, torpaqlarımızın düşmən işğalından azad olunmasına görə qəhrəmanlarımıza borcluyuq. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq şəhid ailələri və qazilərin sosial məsələlərinin həllinin prioritet olduğunu qeyd edən Elçin Rzayev bu istiqamətdə bütün addımların atıldığını bildirib.

Şəhidin ailə üzvləri göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya öz təşəkkürlərini bildiriblər.

*M.NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ**

***aşağıdakı vakant vəzifələri tutmaq üçün***

**MÜSABİQƏ ELAN EDİR**

| Kafedralar | Professor | Dosent | Baş müəllim |
|---|---|---|---|
| Üzvi maddələr və yüksəkmolekullu birləşmələrin texnologiyası kafedrası | 1 | 2 | 8 |
| Neft-kimya texnologiyası və sənaye ekologiyası kafedrası | - | 5 | 5 |
| Kimya və qeyri-üzvi maddələrin texnologiyası kafedrası | - | 1 | 5 |
| Sənayenin iqtisadiyyatı kafedrası | - | 3 | 7 |
| Menecment kafedrası | - | 3 | 1 |
| Neft-qaz mühəndisliyi kafedrası | - | 1 | 4 |
| Sənaye təhlükəsizliyi və əmək mühafizəsi kafedrası | - | 2 | 4 |
| Neftin, qazın nəqli və saxlanması kafedrası | - | - | 6 |
| Sənaye maşınları kafedrası | - | - | 5 |
| Materialşünaslıq və emal texnologiyaları kafedrası | - | - | 1 |
| Mexanika kafedrası | - | 1 | 2 |
| Geofizika kafedrası | - | 1 | - |
| Faydalı qazıntı yataqlarının geologiyası və işlənməsi kafedrası | - | - | 2 |
| Neft-qaz geologiyası kafedrası | - | 2 | 3 |
| Ümumi və tətbiqi riyaziyyat kafedrası | - | 2 | 3 |
| Kompüter mühəndisliyi kafedrası | - | 5 | 10 |
| Cihaz mühəndisliyi kafedrası | - | 3 | 5 |
| Elektronika və avtomatika kafedrası | - | 2 | 2 |
| Elektroenergetika kafedrası | - | 3 | 2 |
| Elektromexanika kafedrası | - | 4 | 2 |
| Enerji istehsalı texnologiyaları kafedrası | - | 4 | 1 |
| Fizika kafedrası | 1 | 5 | 4 |

Sənədləri təlimata uyğun şəkildə, müsabiqə elanının qəzetdə dərc edildiyi gündən etibarən bir ay müddətində www.asoiu.edu.az/vakant səhifəsi vasitəsilə təqdim etməyiniz, eyni zamanda rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıda göstərilən ünvana göndərməyiniz xahiş olunur:

AZ 1010, Bakı şəhəri, Azadlıq prospekti-34, otaq 223, telefon 598-41-57,

***Rektorluq***

*Novruz marafonu*

# Ay səməni, saxla məni!



**Ulu babaların misilsiz mənəvi yadigarı olan Novruz bayramı 10 ildir ki, Əfqanıstan, Azərbaycan, Hindistan, İran, İraq, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın ortaq mirası olaraq Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi siyahısına salınıb. Əslində isə bu xalq bayramının yaşı minilliklərlə hesablanır.**

Min illər öncə günəşin cənub yarımkürəsindən şimala keçdiyi, gecə ilə gündüzün bərabərləşib təbiətin yenidən oyandığı gün insanlar tərəfindən bayram edilib. Novruz fərqli dillərdə danışan, fərqli inanclar daşıyan insanları eyni günəşin doğuşunu, eyni yazın gəlişini, eyni yenilənmə sevincini paylaşmağa təşviq edir.

Novruz dünyada müxtəliflik içində birliyin mümkün olduğunu hər il yenidən xatırladır. Dünya səviyyəsində Novruzun bəşəriyyətin qeyri-maddi mədəni iri kimi qorunması yalnız bir bayramın deyil, həm də mətbəx ənənələrinin, xalq oyunları və adətlərinin, ümumiyyətlə, bir çox etnoqrafik yadigarların mühafizə olunmasıdır.

Adətən, Zərdüşt dünyagörüşünə bağlanan, işıq-zülmət mübarizəsinin simvolizmi olaraq tonqallarla qeyd edilən bu bayramın rəmzi olan səməni onun məhz təbiətlə bağlılığının sübutudur. Novruz bayramı minilliklərdir təbiətin oyanışını simvolizə edən səməni cücərdilməsi ilə müşayiət olunur.

Novruzun hər çərşənbəsi özünəməxsus rituallar və yeməklərlə qeyd olunur. Su çərşənbəsində ev-eşik təmizlənir, od çərşənbəsində tonqallar qalanır, buğda qovrulur, yel çərşənbəsində yelləncəklər asılır, torpaq çərşənbəsində kükülü plov bişirilir. Novruzun özünəməxsus şirniyyatları – şəkərbura, paxlava, qoğal süfrələri bəzəyir. Süfrəyə S hərfi ilə başlayan yeddi təam qoyulur.

Ən qədim Novruz təamlarından biri isə "səməni" və ya "səməni halvası" dır. Əsasən tərkibi cücərdilmiş buğda, su və undan ibarət olan səməninin tərkibi onun qədimliyindən xəbər verir. "Səməni", "səməni halvası", "sumalak" (Özbəkistan) kimi adlarla tanınan bu qədim təam eyni tərkiblə müxtəlif qatılıqda hazırlanır. Bəzi regionlarda qatı halva şəklində olan "səməni halvası", bəzilərində isə qatı maye şəklində "səməni" bişirilir.

Səməni bişirmək üçün buğda müəyyən qədər cücərdilir, sonra nişastası çıxarılaraq su və unla qarışdırılaraq bişirilir. Nəticədə, çox şirin dadlı buğda rənginə yaxın duru səməni və ya qatı, tünd rəngli halva alınır. Səməni halvasına zövqə görə qoz-fındıq ləpəsi və kişmiş də əlavə oluna bilir. Səməni adətən müəyyən bir niyyətlə bişirilib qonum-qonşuya paylanır və onu içənlər "Allah niyyətini qəbul etsin!" deyir.

Bir zamanlar qonum-qonşuların toplaşaraq böyük qazanlarla bişirib paylaşdığı səməni bu gün unudulmaq təhlükəsi ilə üz-üzədir. "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi Siyahısı"na daxil edilmiş Novruz isə tam olaraq qorunmalıdır. Çünki Novruz bir bayramdan, Novruz süfrəsi isə bir bayram yeməyindən ibarət deyil. Novruz süfrəsi həm də nəsildən-nəslə ötürülən etnoqrafik mirasdır.

Novruz süfrəsindəki hər nemət ayrıca məna daşıyır: cücərən buğda – həyatı, yenilənməni, boyanan yumurta – yeni doğulan günəşi, şirniyyatlar – gələcək xoşbəxtlik müjdəsini, niyyət edilib bişirilən səməni ümidi ifadə edir. Süfrə ətrafında toplanan nəsillər arasında, sanki, görünməz bir körpü qurulur: nənənin əllərindən alınan resept, ata evinin ətri, uşaqlığın dadı Novruzu bir bayramdan çox özünəqayıdış kimi səciyyələndirir.

*Zəminə RƏSULOVA,*
*Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 51 (31020) 19 mart 2026-cı il, cümə axşamı

## İDMAN

### İdman Rəqsləri Federasiyasında seçki



**Martın 18-də "Azərbaycan Respublikası İdman Rəqsləri Federasiyası" İctimai Birliyinin ümumi yığıncağı keçirilib. Gənclər və İdman Nazirliyinin inzibati binasında təşkil olunan tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Yığıncaqda çıxış edən gənclər və idman naziri Fərid Qayıbov iştirakçıları salamlayaraq onlara uğurlar arzulayıb.**

Yığıncaqda federasiyanın qanuni təmsilçisi Etibar Məmmədov qurumun fəaliyyəti barədə hesabatla çıxış edib. Sonra İctimai Birliyin adının dəyişdirilməsi və Nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi məsələləri müzakirəyə çıxarılıb və səsvermə ilə qəbul olunub. İctimai Birlik bundan sonra "Azərbaycan İdman Rəqsləri Federasiyası" adlandırılacaq.

Sonra federasiyanın rəhbərliyinə seçkilər keçirilib.

### MOK-un Atletlər Komissiyasının iclası



**Dünən Milli Olimpiya Komitəsinin inzibati binasında MOK-un Atletlər Komissiyasının 2026-cı il üzrə ilk iclası keçirilib.**

Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, iclasın gündəliyində duran əsas məsələlər ötən dövr ərzində həyata keçirilmiş layihələrin hesabatı və komissiyanın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi olub.

Görüşdə, həmçinin komissiya üzvləri öz təkliflərini irəli sürüblər.

Atletlər Komissiyasının əsas məqsədi idmançıların maraqlarını qorumaq, onların hüquqlarını müdafiə etmək və idmançılarla Beynəlxalq Olimpiya Komitəsi arasında əlaqələndirici rol oynamaqdır.

Qeyd edək ki, 2025-2028-ci illər üçün Fəridə Əzizova (taekvondo) komissiyanın sədri, Leyla Əliyeva (cüdo), İradə Aşumova (atıcılıq), Hacı Əliyev (güləş), Nazim Babayev (atletika), Rafiq Hüseynov (güləş), Fatimə Alkərəmova (üzgüçülük), Rasul Çunayev (güləş) komissiyanın üzvləri kimi fəaliyyət göstərirlər.

### Şirvanda Dünya Badminton Federasiyasının layihəsi



**Şirvan şəhərində Dünya Badminton Federasiyasının "Shuttle Time" layihəsi çərçivəsində məktəblilər arasında badmintonun kütləviliyini artırmaq, gənc məşqçi və hakimlər hazırlamaq məqsədilə təlimlər keçirilib.**

Proqram çərçivəsində regional müəllimlər üçün "Shuttle Time Teachers" kursları təşkil olunaraq badmintonun şagirdlərə öyrədilməsi üzrə praktiki məşğələlər keçirilib. Azərbaycan Badminton Federasiyası tərəfindən təyin edilmiş mütəxəssislər tərəfindən həyata keçirilən təlim Təhsil Respublika İdman Mərkəzinin Şirvan Şəhəri Uşaq Gənclər İdman Şahmat Məktəbində baş tutub.

Layihə Dünya Badminton Federasiyası, Avropa Badminton Konfederasiyası, Azərbaycan Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ *"Xan balığı" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.*

*Novruz ənənəsi*

# Doğmaların bayram payı

**O, dünyanın ən nəcib və ən həssas insanlarından biri idi. Gözlərindəki gülüş, üzündəki təbəssüm, çöhrəsindəki nurani-pirani gözəllik hələ də gözlərimdən getməyib. Adı özünə, özü də adına yaraşırdı. Dinib-danışanda zərif duruşu ilə nərgiz-bənövşə kimi qönçələnirdi.**

Nəfəsindən yaz ətri gələn Nərgiz mamam yaddaşıma inci kimi o qədər şirin xatirələr düzüb ki... Novruz bayramının əziz günləri yaxınlaşdıqca Nərgiz mamamı daha çox xatırlayıram. Elə bilirəm ki, yenə kəndimizin o başındakı evindən başlanan yolu əlinə alıb, silsilə dağların ucqarında, zirvə ucalığında qərar tutan evimizə qonaq gələcək. Gəlişi ilə qardaşı uşaqlarına çıraqbanlıq edəcək. Nəğməkar kənd evimizi yenə şadlıq-şadyanalıq bürüyəcək. Sevinc-sevincə qarışacaq. Naz-nemətlə bəzənmiş qələmkar süfrəmizin başında bizimlə üz-üzə oturub bayramımızı şirinləşdirəcək. İliyimizə işləyən allı-güllü söhbətləri ilə uşaq qəlbimizi isindirəcək.

Görəcəyik ki, Novruz axşamında bulaqlar qaynam-qaynam qaynayır. Suların gözü durulur, torpağın canındakı təmizlik suynan üzə çıxır. Dağların, dərələrin, çayların, bulaqların, yal-yamacların növrağı başlayır. El-obanın büsatı, adamların suru ayaq tutub yeriyir. İnsanlar mehribanlaşır, nənələr cavanlara "surun yerisin" deyib alxış edirlər.

Bu günümüzdə bəzi bayram adətləri və inanclar sıradan çıxsa da, Novruzun gözəl adətləri qalmaqdadır. Bayram günü kəndimizdə qızlar gözəllik işığında bulaq başına cəm olar. Əllərini bulaq suyunda yuyarlar. Ürəklərində arzu-dilək tutarlar.

Adamlar köhnə umu-küsünü, ağrı-acını yaddan çıxarar. İnsanların əhvalı yaxşılaşar, hər evə bolluq, bərəkət gələr. Novruz bayramı insanları birliyə, bərabərliyə çağırar. Belə əziz günlərdə qonaq getmək, qonaq qarşılamaq, könülləri sevindirmək savab sayılır. Novruzda verilən bayram payı, pay verilən ocağa bolluq, firavanlıq arzulamaq anlamına gəlir.

Bizim ruhumuzun, könlümüzün, sevincimizin bayram payı Nərgiz mamamla gələrdi. O, bizə gələndə dərdlərini götürüb, köksünü ötürüb gəlməzdi. Ürəyinə dolan istəklə, xoşgörü ilə gələrdi. Yal yolundan payi-piyada qalxıb, doqqaz qapımızdan məni səsləyən başı çalmalı, əli xonçalı pay gətirən o xanım-xatın ağbirçək Nərgiz mamam idi. Onun büllur səsinə tərəf yüyürürdüm. Məni bağrına basıb üzümdən öpəndə nəfəsindən gül ətri gəlirdi. Hər dəfə Novruz gələndə o ətirdən ötrü burnumun ucu göynəyir.



...Qəhrəman sovet xalqı oddan-alovdan keçib Yer kürəsində sülhün, azadlığın bayrağını ucaldanda, müharibənin dəhşətləri bizim ailəmizdən də izsiz ötüşməmişdi. Atam ön cəbhədə, anam da arxa cəbhədə hər cür çətinliyə sinə gərmişdi. Müharibəyə qədər və müharibədən sonra doğulan bacı-qardaşlarım boy atıb böyüdükcə ailəmizin qayğıları da böyüyürdü. Ailəmiz çoxuşaqlı idi – 12 bacı-qardaş! Atamız müharibə qazisi, anamız "Qəhrəman ana" idi.

Nərgiz mamam ailəmizin qayğılarını, gün-güzəranını yaxşı bilirdi. Ürəyini şirin qayğılarla ona görə yükləyirdi, ona görə qayğımıza qalırdı ki, başqalarından heç nə ummayaq. Qonşuların uşaqlarında gördüyümüz hər şirinliyə umsunmayaq. Beləcə, əziz günlərdə ümidimizə arxa-dayaq olurdu.

O, hər bayramda öz taleyinin şirin qayğılarını ürəyinə yükləyib bizə gəlirdi. Bilirdi ki, özünün övladı olmadı, bəxtinə bir gün doğmadı. Amma qardaşının balalarının yanına bayram payı ilə dolu xonçalarla gəldiyi hər gün doğmadı.

Kaş ki, o günlər bu günlər olaydı. İndi nə o balaca Həzi var, nə də Nərgiz mamam. Bayram olunca ürəyimi duyğular yenərdi. Nərgiz mamam gətirdiyi bayram payı kimi, şirin sözlərlə danışardı, dinərdi. Onun hər gəlişi, hər sözü-söhbəti dilimdə nəğməyə dönərdi:

***Sevincimiz qanadlanıb,***
***Nərgiz mamam bizə gəlib.***
***Noğullanıb, nabatlanıb,***
***Nərgiz mamam bizə gəlib.***

***Pay gətirib ətək-ətək,***
***Üzü nurlu bu ağbirçək***
***Bir çiçəkdi özü gerçək, -***
***Nərgiz mamam bizə gəlib.***

***Ürəyində pir gizlənib,***
***Xonçasında dür gizlənib,***
***Yollar, izlər nərgizlənib,***
***Nərgiz mamam bizə gəlib.***

Kəndimizə Novruz gələli dağlara səs-səda düşür. Gözəldağın başında yandırılan gur tonqallar Novruzun gəlişindən xəbər verir. Borçalının hər yerində olduğu kimi, Faxralıda da bir qələbəlik, bir coşqunluq olur ki, gəl görəsən. El-obalarımızın yeniyetmə cavanları bir yerə yığışıb at belində cıdır yarışına çıxırlar. Cıdırda sürəkli qaçan atlarla önə çıxanlara nəmər verilir.

Novruz axşamlarında evlərdə al-əlvan şamlar yandırılır. Süfrələrə yeddi löyün şirniyyat düzülür. Bayram xonçasında belinə qırmızı lent bağlanmış səməni qoyulur. Novruzun yaşıl qurşağı sayılan səməni yazın sorağından xəbər verir.

Ocaqda yeddi adda ləziz yemək bişirilir. Qohumlar, qonşular bir-birinin qapısını döyür, pay verib, pay alırlar. Uşaqlar bayram payı almaq üçün "baca-baca" oynayırlar.

Novruzun əziz günlərində, gəlişi ilə ailə-ocağımızı nurlandıran Nərgiz mamamın ömrü yadımda şirin noğul, sehrli nağıl kimi qalıb. Özü də bir gün ömrümüzdən nağıl kimi köçüb getdi. İndi Nərgiz mamam öz nağıl ömrü ilə ürəyimdə naçar yaşar. Hər Novruz gələndə könlümdə nərgiz kimi açar yaşar.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## Azərbaycanın Vyetnam şagirdlərinə dəstəyi



**Vyetnamın şimal-şərqindəki Laokay əyalətinin Lukyen qəsəbəsində Azərbaycan Respublikasının dəstəyilə inşa edilən məktəb binasının yeni korpusunun açılışı olub. Çan Fu ibtidai məktəbi üçün bina 2024-cü il sentyabrın 7-8-də "Yaqi" qasırğasının fəsadlarının aradan qaldırılmasına dəstək məqsədi ilə Azərbaycanın Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin maliyyəsi hesabına inşa edilib.**

Əyalətin Xalq Komitəsinin sədr müavini Vu Thi Hien Hanh məktəb binasının Azərbaycan və Vyetnam arasında dostluq və əməkdaşlığın rəmzi, dost Azərbaycanın qiymətli hədiyyəsi olduğunu deyib. Ölkəmizin Vyetnamdakı səfiri Şövqi Mehdizadə xalqlarımız arasında dostluğun böyük tarixi olduğunu vurğulayıb.

Sonra məktəb binasının Azərbaycan tərəfindən inşa edilməsinə dair məlumatın əks olunduğu lövhənin üzərindən örtük götürülüb, binada yaradılan şəraitlə tanışlıq olub.

Qeyd edək ki, təxminən, 1400 şagirdin təhsil aldığı Çan Fu ibtidai məktəbi üçün inşa edilən üçmərtəbəli binanın ümumi sahəsi 825 kvadratmetrdir.

***XQ***


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*Heydər Əliyev Beynəlxalq Aeroportu Terminal 2 ərazisində yerləşən böyük brifinq zalının təmiri işlərinin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Heydər Əliyev Beynəlxalq Aeroportu Terminal 2 ərazisində yerləşən böyük brifinq zalının təmiri işlərinin satınalınması məqsədilə keçirilən açıq tenderdə iştirakçılar elshad.ismayilzada@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 13 aprel 2026-cı il saat 15:00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs: Elşad İsmayılzadə, aparıcı mütəxəssis, elshad.ismayilzada@azal.az, əlaqə nömrəsi - (+99412) 497-26-00; daxili 5831.


# Xəzərdə zəlzələ



**Xəzər dənizində zəlzələ olub. Bununla bağlı Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.**

Bildirilib ki, yerli vaxtla 10:10-da baş verən zəlzələnin maqnitudası 3.6 olub.

Yeraltı təkanlar 56 km dərinlikdə qeydə alınıb.

***XQ***

## HAVA

# Çiskinli, yağmurlu yaz günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**



Lakin gündüz bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Gecə və səhər zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-7, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə və gündüz 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə az yağıntılı olacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 15-20, dağlarda gecə 1-6, gündüz 8-13 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2959
SİFARİŞ 377
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00